Yüz sinəzən

Ustad Rəhim Münzəvi Ərdəbili

# Sinəzən və cuşi

## İmam Zamana (əc) xitab

Yenə quruldu cəddinin əzası yəbnəl-Əsgəri!

Çəkildi ərşo-fərşidə qarası yəbnəl-Əsgəri!

Vuruldu zəngi təziyət yetib xəbər Peyğmbərə

Hüseyninin əzasıdır çəkildi qarə göylərə

Asıldı qanlı köynəyi fəraze-ərşe davərə

Qoyuldu göydə təziyət binası yəbnəl-Əsgəri!

Min üç yüz ildi ağlarıq yarasına dəva ola

Deyillər bir yarsası var ona çətin şəfa ola

Gərək sənin zühuruna gecə-gündüz dua ola

Qalıb sənə ürəkdəki yarası yəbnəl-Əsgəri!

Hər il qara geyəndə biz xülus və etiqadilə

Bir iddə yəhudxülq baxır bizə inadilə

Nə fərqi vardır Şimrilə Übeydibni Ziyadilə

Vurar bizə o kəslər dil yarası yəbnəl-Əsgəri!

Necə dayanmısan ağa sükutü helm o-səbridə
Gəlibdi təngə Şiələr kəməndi-zülmu-cəbridə
Qalıb Rübabın əlləri ürək başında qəbridə
Zühurun eylər arzu duası yəbnəl-Əsgəri!
Eşitmişik çox ağlarsan həmişə sən bu mətləbə
Sataşdı qızların gözü necə o qanlı mərkəbə
Fəğan əz-zəlimədən yetirdi rəmzi Zeynəbə
Ucaldı ərşə va Hüseyn sədası yəbnəl-Əsgəri!
Ucaltdı başdan əllərin o pakizad Heydəri
Qabaqda şəhriyare-qəm dalıyca düşdü ləşkəri
Görüb qara ləçəkləri əsibdi Şümrün əlləri
Salıbdı Şümri vəhşətə nidası yəbnəl-Əsgəri!
Çağırdı yəbnə-zaniyə əyuqtəlu rəcauna?
Ümidimizdi bu Hüseyn dayan eyvan xarab ola
Nə Zeynəb etdi vahimə nə Şümri qıldı etina
Qalıb arada kuyi-həqq fədası yəbnəl-Əsgəri!
Salıb təvan və tabdan Hüseyni şiddəti əməl
Xiyam -o- qətligahidə iki imam edibdi qəş
Vücudi-höccətə görə xanım çox etdi keşməkeş
Əlindən öpdü Fatimə-anası yəbnəl-Əsgəri!

Görüb ki Şümr baxmadı sızıltıyla tərənnümə

Tutub zəbəski qan gözün çətin gələ tərəhhümə

Qaçıb əmiri-ləşkərin sorağına təzəllumə

Ki, bəlkə Şimrün əsgilə cəfası yəbnəl-Əsgəri!

Yetişdi ibn Sədilə müqabil oldu rubəru

Dedi Hüseyni öldürür bu Şimri-şum fitnəsi

Müzayiqə gəl eyləmə üzündə olsa abiru

Məgər qoyardı başda Rey həvası yəbnəl-Əsgəri!

Buyurdu heç yadında var babam Əli xilafəti

Vuran zaman vücuduna hüdude şəri- zərbəti

Çıxıb yadından ey əcəb Hüseynimin vəsatəti

Deyib bu dərdə olmadı dəvası yəbnəl-Əsgəri!

Yetişdi onda bir nəfər şitabilə sərasimə

Dilində əl-bəşarə və ürəkdə xovfu-vahimə

Əmir müjdə ver tapıb Hüseynin əmri xatimə

Pozuldu onda əmmənin nüması yəbnəl-Əsgəri!

Xanım qayıtdı məqtələ dübarə qəsdi-qürbətə

Təvafi-nafi Kəbəyə fəziləti-ziyarətə

Öpüb kəsik boğazını gəlib kəmali-riqqətə

Təkan verib Mədinəyə bükası yəbnəl-Əsgəri!

Həmin Hüseyndi bu baba anam çəkərdi nazını

Sinəndə əyləşib sənə deyərdi hər niyazını

Həmin Hüseyndi görmüşəm öpəndə sən boğazını

Cavab gəldi Zeynəbə çox eyləmə fəğan bala

Gərək bu qan belə qala gələ o qan alan bala

Gətirdi şurə Zeynəbi bu söz çağırdı can bala

Hayandasan Hüseynimin balası yəbnəl-Əsgəri!

# İmamətin keyfiyyəti və İmam Hüseynin (ə) təfəzzülü

İmamət məsnədində mərdi-dana olmasa olmaz

İmamın helmi kuh və elmi dərya olmasa olmaz

Şüur istər həqiqət dərki biünvan və şəxsiyyət

Yəhudi, ya məsihi əhli məna olmasa olmaz

Əsasi etiqadi şiədən ədl və imamətdir

O da min canibillah xəlqə mövla olmasa olmaz

Bilər var Səd Vəqqasın başında neçə milyon tük

Bəli məsum olan bu elmə dara olmasa olmaz

Bir iddə guya məmuridir bu əmrə İranda

Təşəyyö mane vəhdətdi ilğa olmasa olmaz

Şəyatin istəyir dansın imamın elmini əvvəl
Əli çün elmdə Əbu Bəkrə həmta olmasa olmaz
Sonra tədricən etsin Əhli-Beytin ismətin ketman
Məqami Ayişə xəlq içrə ülya olmasa olmaz
Bilin agah olun millət, bunlar məmuri düşməndir
Hüseynin düşməni xəlq içrə rüsva olmasa olmaz
O kəslər ki, Müaviyyəyə əmirəlmöminin söylər
Onlar əhli həqiqətdən mücaza olmasa olmaz
Cahanda höccətullah bilməyin hər nikbətullahi
Əmir əl-möminin dəryayi təqva olmasa olmaz
İmamət şəxsi məsumundu ələmdir xəlayiqdən
Sərpa elm, ecaz və müəmma olmasa olmaz
Yəhudi doktoru gətirdi mətəbdə bir yetim ağlır
Deyir ya Rəbb əlac eylə müdava olmasa olmaz
Sual etdi nədir dərdin bəyan eylə edim dərman
Dedi naxoş anam var çarə peyda olmasa olmaz
Atam əldən gedib tazə, anam tənha ümidimdir
Yetiməm sərpərəstim yox bu tənha olmasa olmaz
Səni verrəm qəsəm mövla Hüseynə bir əlac eylə
O ölsə mən də ölləm əhdim ifa olmasa olmaz

Hüseyn adın eşitdi ol yəhudi oldu narahat

Dedi var bir dəvası gər mühəyya olmasa olmaz

Sarı bir at kəsin cigərin eyləyin hazır

Təbibin nüsxəsi diqqətlə icra olmasa olmaz

Yetim binəva həsrətlə boynun çiyninə qoydu

Töküb göz yaşın ərz etdi Xudaya olmasa olmaz

Yetiməm yoxdu imkanım mənim kəs başım iqdam et

Təsəddüqlən əgər rəfi bəlaya olmasa olmaz

Dilə gəldi təbib onda açıb ağzın şəmatətilən

Dedi bir yol nişan verrəm get amma olmasa olmaz

Sizin ərababınızın ki, şöhrəti dünyanı doldurmuş

Hüseynə get sizilda yalvar ağla, olmasa olmaz

Hüseynin ilxısında yaxşı rəngarəng atlar var

Nolar versə birin aya bu yolda olmasa olmaz

Qayıtdı boynu çiynində, əli qoynunda, gözü yaşlı

Ədu bəzən səbəbdir xeyrə, yoxsa olmasa olmaz

Kərəmi dərgəhini gördü açıq oldu pənahəndə

Dedi gəlsin ağam dərdim var ifşa olmasa olmaz

Yetimi çün Hüseyn gözdən tanırdı aldı ağuşə

Dedi dərdin de əmri fori mücra olmasa olmaz

Atan ölcək səni Allah mənə tapşırdı əmr eylə
Əgər Əkbər kimi sənlən müdara olmasa olmaz
Ürəkləndi dedi ya səyyidi qıl çarə naçarəm
Əlac əldən gedir səyu-təqəlla olmasa olmaz
Anam əlan ölür, məndən nə istir gör təbib amma
Sarı bir at deyir kəsdir və illa olmasa olmaz
İmam əmr elədi forən bir sarı at zibh olsun
Bəli, müşgülqoşa hər işdə guya olmasa olmaz
Cigərin verdilər qaçdı səna quyan, dua quyan
Yəhudi görcəyin gördü ki, haşa olmasa olmaz
Dedi bu sarı at nədir, gərək qırmızı at olsun
Bunu qaytar denən gər qırmızı at olmasa olmaz
Qayıtdı bir də məyus və məlul ol tifli sərgərdan
Görüb şaha yenə ərzi qəzaya olmasa olmaz
Utandı keçmədi səhnə qapıda tökdü göz yaşın
Hüseyn ibn Əli gördü təsəlla olmasa olmaz
Dubarə könlünü aldı doyunca təsliyət verdi
Buyurdu həlli müşkül bu qapıda olmasa olmaz
Yenə dəstur verdi zibh ediblər qırmızı bir at
Müsəlmana yəhudidən çün iza olmasa olmaz

Cigəri aldı şövqilən təbibin səmtinə qaçdı
Xəbisanə dedi gər rəngi beyza olmasa olmaz
Qayıt forən denən səhv etmişəm ağ at istəyir
Müdava etməyə eyni təmənna olmasa olmaz
Qərəz, əmdən o tifli yeddi dəfə getdi qaytardı
Mülazimlər dedi bu xahişə “la” olmasa olmaz
Məgər kimdir bu tiflin xatirinə yeddi at kəsdik
Deyir hey gahi əbləq, gah səfra olmasa olmaz
Hüseynin rəngi qızardı, dedi and olsun Allaha
Bu dərgahi kərimdir, ölü ehya olmasa olmaz
Əsirəm bu yətimə, Zülcənahım istəsə verrəm
Yetimin xatiri mənzuru irza olmasa olmaz
Anam Zəhraya and olsun yetimi etmərəm məyus
Onun təslimiyəm mən hökmfərma olmasa olmaz
Mənimdə bir günü bəlkə balalarım yetim qaldı
Rüqəyyəm ac yatanda nan və xurma olmasa olmaz
Dilində əşhədu ənnə Muhəmməd gördu cuş eylir
Baş açıq pa bürəhnə rahpeyma olmasa olmaz
Qoyub üz əd-dəxil ədrikni quyan babi ümmidə
Dedi pak olmağa bir belə dərya olmasa olmaz

Nəməkzari imamətdə səgi murdarınam Allah
Şəfaətçim əgər dilbəndi Zəhra olmasa olmaz
Qərəz iqbalə baş düşdü yerə Zəhran düşən yerdə
Dedi bu dərgəhin dərbanı Musa olmasa olmaz
Hüseyn pişvaz edib tez mehmani müsəlmanı
Buyurdu dur ayağa seyri məna olmasa olmaz
Müsəlman oldun əlan ki, imamın qüdrətin dərk et
İmama çeşmi dildən bir tamaşa olmasa olmaz
Görək gəlsin zühura qüdrətullah höccəti Allahdan
Yədi beyza Musada təcəlla olmasa olmaz
Cigərlər yerlərində pay bərca olmasa olmaz
Dayandı ru beqiblə xazianə qibleyi aləm
O halda çün ədayi zikr və əsma olmasa olmaz
Qutardı rəkətini səslənib “qumu biiznillah”
Bəli hər kəs inanmaz çeşmi bina olmasa olmaz
Durub atlar dolandılar Hüseynin başına əvvəl
Müsəlləm dilsiz heyvanlar ima olmasa olmaz
İmamın qüdrəti əlbəttə mafoq təsəvvürdür
Və lakin dərki feyzə dili müsəffa olmasa olmaz
İmamiki kəsik başı cidada başladı Quran

Onun ecazidə mafoqi İsa olmasa olmaz

Hüseynin düşməni vəllahi ya kafirdi, ya nadan

Amandır Münzəvi bu mətləb ifşa olmasa olmaz

# Hüseyn (ə) aləmə fərman verdi

Düzdü sərməşqi qiyamı bizə Quran verdi

Əvvəli səfdə Hüseyn aləmə fərman verdi

O zaman ki, hamı Loğmani zaman olmuşdu

Pərdeyi hisni təqiyyəylə nihan olmuşdu

Ürəyi sahibi əsrin dolu qan olmuşdu

Fəzzəlullah özu alullaha rüchan verdi

Qara topraqdan o Allah ki, insan yaradıb

Müxtəlif rəngidə ba in həme yeksan yaradıb

Hamıya ədlu müsavatilə imkan yaradıb

Əhli təqvayə fəqət rütbeyi şayan verdi

Türkünən farsı görün hansi bir əllər ayırıb

Nəhrəvan əhli kimi cəbheyi digər ayırıb

Həbəşilən qürəşi harda peyəmbər ayırıb
Həqqi heysiyyəti aləmə yeksan verdi

Əhli küfrilə əgər olmasa dəmsaz bəşər
Necə İslama olar şaye pərdaz bəşər
Niyə insaf eləmir təfriqə əndaz bəşər
Bizə bu məktəbi Allah məgər asan verdi

Əlli ildən çoxdu ölmüş idi millətimiz
Məhvu nabud idi namusumuz heysiyyətimiz
Hər cahanxarə mübah olmuş idi sərvətimiz
Aldı İranı ki, abad edə viran verdi

Hər o kişvər ki, vəziri, şahı biqeyrət ola
Gərək əlbəttə onun sərvətidə qarət ola
Biz Əli şiəsiyik bizdə gərək himmət ola
Şükr edək həqqə ki, div aldı, Süleyman verdi

İnqilab etdi bu millət ol İslam adına
İndi bir iddə düşübdür komunislik yadına

İstəyir dini verə ariyə dünya badına
Xəlq bilmir nə üçün bir belə qurban verdi

Vardı bir iddeyi digər də müsəlmanlar ara
Komunisdən çox olardır ki, vurur qəlbə yara
Ah, Yəbnəl Həsən iş gör yetişib indi hara
Hər müzalif bu əzadarə bir elan verdi

Necə ki, kor günün nuru-ziyasın görməz
İnqilabında bunlar əsli əsasın görməz
Bu Hüseyn ləşgərinin qara libasın görməz
Düşmənə mahi Məhərrəmdə necə san verdi

Bir də hər şəhridə yüz min geyinir qara libas
Kuyu-bərzəndə Hüseynə qurulur məclisi yas
Bu əzadaridi saldı dili tağuta həras
İnqilaba çoxu can bəzl elədi qan verdi

Müddəi sən bizə bihudə itab eylirsən
Köhnə aşiqə xürafati xitab eylirsən

Sən bu göz yaşlarını axər nə hesab eylirsən
Adəmin tövbəsinə müjdeyi ğüfran verdi

Kaxi zülmü sitəmabadı, bu göz yaşı yıxıb
Xaneyi qatil və cəlladı bu göz yaşı yıxıb
Zalımı, kafəri, Şəddadı bu göz yaşı yıxıb
İmtahan qalmadı bu sel xüruşan verdi

Adəmi tövbəyə irdaş eləyən göz yaşıdır
Nuhu gerdabidən azad eliyən göz yaşıdır
Qorxulu qəbrini abad eliyən göz yaşıdır
Ağlayan gözlərə qurban gözəl ehsan verdi

Bu Peyəmbər sözüdür yoxdu müsəlləm yalanı
Gördü ki, cümlə Ühüddə ölənin var yananı
Dedi heyf olsun əmim Həmzəyə yox ağlayanı
Bu işarəylə öz əshabına meydan verdi

Hərə öz mənzilinə qaçdı o ərbabi üqul
Çağırıb əhli-əyalın dedi ba qəlbi məlul

Həmzənin ağlayanı yoxdu pərişandı Rəsul
Tökülüb övrət, uşaq əşginə tüğyan verdi

Bu əməl sünnət olub doreyi-Peyğəmbərdən
Biri ölsəydi o əshabi vəfadarindən
Yad edərdilər əvvəl Həmzeyi namavərdən
Kərbəla vaqiəsi bu qəmə payan verdi

Ali-Haşim nə qədər başa qara bağlardı
Naleyi Ümmü Bənin qəlbləri dağlardı
Həmzəyə ağlayan, Abbasa əza saxlardı
Çün əzadarə Peyəmbər özü fərman verdi

Özü şahi şühəda zakir olub bu xəbərə
Çox müsirranə sifariş eləyib şiələrə
“Fəndibuni ənə məzlum və qətilul-əbərə”
Şiənin göz yaşın Allah mənə dərman verdi

Qorxdu təhrif edə amma bu sözü əhli riya
Etdi bir cümləni digərdə sözün roşən əda

Dedi “la yuzkurni mominun illa və bəka”
Xəbərin məna və məfhumuna mizan verdi

Hər kimin var xəbəri şiənin asarından
Həzrəti Sadiqin ibraz olan əxbarından
Nohəxan şairilən etdiyi rəftarından
Ağlayıb-ağladana vədeyi rizvan verdi

Vardı səkkiz qapısı cənnətin ey Zeydi pəlid
Birisi babi Hüseyndir, birisi babi şəhid
İkisi olmuş öz ərbabımızın adına qeyd
Bizə Həqq vədeyi cənnət iki yoldan verdi

Bu iki zübdə müşabeh xəbərə illət var
Həm şəhidə, həm əzadarı üçün cənnət var
Hansına çatsa əlin zəhmətinə ücrət var
Allah, ağlar gözə də ərci şəhidan verdi

Fatimə düşmənidir düşməni ənsari Hüseyn
Çün əzadari Hüseyn yəni həvadari Hüseyn

Başərəfdir o şəqidən səgi murdari Hüseyn
Şəxsi Peyğəmbərə çün nisbəti həzyan verdi

Altımış il taətilən yetmədi rahib hədəfə
Bir gecə ağlardı bax gör necə çatdı şərəfə
Üz tutub sidqilə dilbəndi əmiri Nəcəfə
Dedi təşrifin ağa ruhuma reyhan verdi

Ta təşəhhüd deməyincə bilirəm xaram mən
Bu nəməkzarda əlan səgi murdaram mən
Himmət eylə nəcisəm şirkə giriftaram mən
Görələr kürrü təharət necə ehsan verdi

Dilxoşam mülkə bərazəndə Süleyman aldım
Zərri zəravəri verdim şəhi xuban aldım
Sikkeyi qəlbə gözəl Yusifi Kənan aldım
Vay füruşində naəhlidi, ərzan verdi

Xoşqədəmdir bu səri biqədəm ey sərvəri nas
Tanımırdı səni bu firqeyi göhərnəşünas

Odur Səd oğlu ziyan etdi, varım Həqqə sipas
Mən ona zər, o mənə Yusifi Kənan verdi

İstədim itrətüvə mənzili rahət verilə
Qoymadı deyrdə Səd oğlu iqamət verilə
Nəgiran olma dedim qızlara şərbət verilə
Baxma Şam əhli sizə su yerinə qan verdi

Nitqə gəl vaqif olum bu gecə əsrarından
Məni sirab elə bu ləli göhər barından
Yuyaram indi bu qanlı külü rüxsarından
Çün şərəf deyrimə bu rəsi ləbətşan verdi

Qoy durum teştidə su hazır edim məhzərüvə
Su töküm həqq danışıb qana batan ləblərüvə
Ey Məsihanəfəs əmr eylə qoca nokərüvə
Ev sənindir məni İsa sənə dərban verdi

Dil açandan Məryəmin oğlunu təclil edirəm
Gündə yüz danəni, yüz mərtəbə təkmil edirəm

Altımış ildir ki, fəqət xidməti İncil edirəm
Müjdeyi cənnəti axir mənə Quran verdi

Yumulan gözlərinin dərdini de mən də bilim
Qoruyub qanı əgər isladım əşgilə silim
Yoxdu başımda ləyaqət sənə qurban kəsilim
Yazalar pir kəlisadə baş və can verdi

Məni mədhuş edir ətrin sənin ey məhliqa
Gedirəm huşə gəlir zəmzəmeyi va vələda
Hey deyir ya əbəta va əsəfa va əcəba
Bu Hüseynimdi ki, Quranuva qurban verdi

Bu sızıltı ki, qulağıma gəlir mənadan
Qərq olan səsdi sanki yetişir dəryadan
Hey deyir getdin oğul ac-susuz dünyadan
Sənin iftarını zəhrabeyi peykan verdi

Qolları süst olanın əlləri çatmaz başına
Kül səpənməz baş imkanı gələr göz yaşına

Qəlbimin şişəsini vırdıla hicran daşına

Şimr ki, Xuliyə bu başı şitaban verdi

Görcəyin cismüvi məqtəl ara yandım yaralı

Baş yara, əl yara yandım yaralı

Mən hara, sən hara, mətbəx hara, yandım yaralı

Bu fələk gör kimi axər kimə mehman verdi

# Qitə

Gər nist to ra əqide bər mən zəkka

Bavər nəkoni be mən bəka əv əbka

Fərmud Huseyn ənə qətilul-əbərə

La yəzkuruni mominun illa və bəka

# İmam Hüseynin (ə) vəsfi (cuşi)

Qundaq ilən ərşə zinətdir Hüseyn

Həşridə babi şəfaətdir Hüseyn

Sərvəri azad mərdani cahan

Milləti İrana izzətdir Hüseyn

Qəlbdə gizlin məhəbbətdir Hüseyn
Xəlqə misbahi hidayətdir Hüseyn
Mayeyi ənduh və möhnətdir Hüseyn
Payeyi ədl və şərafətdir Hüseyn
Hər əməldə şərti səhhətdir Hüseyn
Rəmzi rəhmət, ruhi taətdir Hüseyn
Bəhri cud, əbri səxavətdir Hüseyn
Şahi iqlimi səadətdir Hüseyn
Mahi əflak fütüvvətdir Hüseyn
Meyveyi nəxli nübüvvətdir Hüseyn
Şireyi pistani ismətdir Hüseyn
Buyi ətri bağı cənnətdir Hüseyn
Cuyi nəhri şəhri qüdrətdir Hüseyn
Mərdi meydani şücaətdir Hüseyn
Fərdi divani fəsahətdir Hüseyn
Şeri porşur və lətafətdir Hüseyn
Nəsri mənsuri bəlağətdir Hüseyn
Tərhi bəzmi arayi möhnətdir Hüseyn
Şərhi ənduh və müsibətdir Hüseyn

Mehri rəxşani vilayətdir Hüseyn

Çöhri zibayi imamətdir Hüseyn

Şafeyi ruzi qiyamətdir Hüseyn

Dameyi üsyani ümmətdir Hüseyn

Ruzi məhşər Allah əmrilən yəqin

Mayeyi əfv və şəfaətdir Hüseyn

# Şəhidlər sərvərinin (ə) mədhi (cuşi)

Guşvari ərşi əladır Hüseyn

Zinəti ağuşi Zəhradır Hüseyn

Hardasız ey bavəfa İranlılar

Tez gəlin meydanda tənhadır Hüseyn

Mənayi "zibhən əzima"dır Hüseyn

Nəssi tənzili "fədəyna"dır Hüseyn

Varisi Yasin və Tahadır Hüseyn

Şahi Yəsrib, mahi Bəthadır Hüseyn

Qəbridə fikr etmə tənhadır Hüseyn

Əkbər və Əsğərilə yekcadır Hüseyn

Olsa hər dərdin təsəlladır Hüseyn

Bidəva dərdə müdavadır Hüseyn

Aşiqi Məbudi Yektadır Hüseyn

Şahidi bəzmi təmənnadır Hüseyn

Saliki rahi təvəlladır Hüseyn

Maliki ruzi ətayadır Hüseyn

Vrisi “mən kuntu movla”dır Hüseyn

Xamisi ləvlak və ləvladır Hüseyn

Xətti bütlani xətayadır Hüseyn

Səfheyi üsyana dəryadır Hüseyn

Üzü on dörd surə quyadır Hüseyn

“Həl əta”, “Şəms”, “əz-Zuha”lardır Hüseyn

“Hud”ilən “Əhqaf”ə saradır Hüseyn

“Fəcr”ilən, “Vəl-əsr” və “Əsra”dır Hüseyn

“Zariyat”a eyni mənadır Hüseyn

“Yunis” və “Muzəmmil” “Asa”dır Hüseyn

“Vaqia”ta rəmzu imadır Hüseyn

“Mursəlat”a gülşən aradır Hüseyn

# Şəhidlər sərvərinin (ə) mədhi (cuşi)

İlləti icadi Adəmdir Hüseyn

Pərdəli əsrara məhrəmdir Hüseyn
Eylədi sibqət Xəlilullaha
Çün zəbihullahi əzəmdir Hüseyn

Ruhi İsadan müqərrəmdir Hüseyn
Feyzbəxşi cani Məryəmdir Hüseyn
Elmi əsmadan müəllimdir Hüseyn
Hər yezidilən müsəlləmdir Hüseyn
Şahi məzlumi Məhərrəmdir Hüseyn
Şərqdən qərbə mükərrəmdir Hüseyn
Qəlbdə bir sirri mübhəmdir Hüseyn
Həmdəmi dil sahibi dəmdir Hüseyn
Rəhbər və mövlayi aləmdir Hüseyn
Şəb çırağı bəzmi matəmdir Hüseyn
Əsğərə həmraz və həmdəmdir Hüseyn
Əkbər oğluylan da bahəmdir Hüseyn
Rişteyi dürrü münəzzəmdir Hüseyn
Həbbəza ruhi mücəssəmdir Hüseyn
Mərhəba cismi müsəmməmdir Hüseyn
Layiqi mirasi Xatəmdir Hüseyn

Zəxmi xəncər başda xürrəmdir Hüseyn

Ləxtə qanilə müəmməmdir Hüseyn

Gərçi bir mocafərinimdir Hüseyn

Misli Kosər eyni Zəmzəmdir Hüseyn

Teşnəkam nəhri Əlqəmdir Hüseyn

Atəşin qəlbilə təvəmdir Hüseyn

Ağlaram çün munisim qəmdir Hüseyn

Yarana göz yaşı məlhəmdir Hüseyn

Yad edib qəlbində Əkbər yarəsin

Hər nə qədri ağlasam kəmdir, Hüseyn

# İki əqidə sahiblərinin deyişməsi

Aşağıda oxuyacağınız şer iki əqidə sahiblərinin sözüdür. Onlardan biri leninizm və marksizm şiəliyi, digəri isə ələvi şiəliyinin tərəfdarlarıdır. İki misra leninçi və marksist şiəliyinin tərəfdarlarının fikrini, digər iki misra isə ələvi şiəliyinin fikrini çatdırır.

Ey nəsli cavan baxma kitabi şüəraye

Məndən söz söz eşit ağlama şahi şühədayə

Min ildi Hüseynin qəmi aləmləri dağlar
Biz ağlamasaq da anası Fatimə ağlar

Öldürdü birin səltənət üstündə ərəblər
Sən qara geyib köhnəpərəst olma bəradər

Din üstə ölən zindədi biganə danışma
İslamı Hüseyn saxladı əfsanə danışma

Bir şəxs ola qüdrətdə qəvi rəyidə möhkəm
Cəm eyləyə hər yerdə vurublar qara pərçəm

Hər əsirdə cuş eylər Hüseynin qanı batmaz
Dünya nə qədər var ucalar pərçəmi yatmaz

Hər il qara köynəklə əza saxlamaq olmaz
Min üç yüz il axır birinə ağlamaq olmaz

Çöllərdə gəzər indi də var Höccəti Qaim
Nahaq tökülən qana tökər göz yaşı daim

Möhkəm vurusan sinəni qəlb üstə xətərdi

Tibb əhli deyillər bu əməl qəlbə zərərdi

Qəlbi mərizin sinəyə vurmaqdı şəfası

Bu eşqi Hüseyndir nə təbibi nə dəvası

İslami modernizə əgər olsa piyada

Göz yaşı nə lazım tökəsən bəzmi əzada

Loğman da mod axtarsa bu yolda əli boşdu

Doktor da mühəndis də əzadar ola xoşdu

Boşla bu xürafatı nədir eşq, iradət

Axər bu Hüseyn kimdi edə xəlqə şəfaət

Bədbəxt, haçandan tapılıb səndə cəsarət

Məhşərdə Hüseynsiz nə ibadət, nə itaət

# Yola çıxma cuşisi

Hüseynin qoyma xar olsun əzası
İbadətdir təbakası bükası
Hüseynin həqqi çoxdur boynumuzda
Hüseyndir din -o- Quranın bəqası

Su üstə tərh olub zülmün bənası
Beş-on gündür hamı nəşvu nüması
Bilinmir heç Yezidin qəbri harda
Gülüstandır Hüseynin Kərbəlası

Görün üç yaşda bir məzlumun ahı
Necə yıxdı Yezidi rusiyahı
Ediblər zibillik Yezid qəbrini
Çırağbandır Rüqəyyə barigahı

Elə bir ərbəin qismət ilahi
Qızıl eyvanı kaşı barigahı
Alaq ağuşə ol şeşguşə qəbri
Yuyaq əşgilə tumari günahı

Yanar  dünya və mafiha Hüseynə
Sızıldar cəngəl və dərya Hüseynə
Balıqlar Əsğərə xatir çalıxlar
Necə qan ağlamaz Zəhra Hüseynə

Qulaq as sən ürəkdən ya Hüseynə
Baxın dördüncü göydə va Hüseynə
Mələklər dorəsində, el də on gün
Əza bəzmi qurar İsa Hüseynə

Kəlimullah verib imza Hüseynə
Edə xidmət qulam asa Hüseynə
Əgər görsə düşüb əldən əsası
Əsasın tez verər Musa Hüseynə

Yaranmış cənnəti-əla Hüseynə
Bəzənmiş şaxeyi-Tuba Hüseynə
Hüseyni qətligahda görsə üryan
Yolar geysuların Hura Hüseynə

Müxaliflər qura şura Hüseynə
Qoyanmaz bir nəfər əmma Hüseynə
Hamı roşəngəran əhli təhqiq
Səri təslim əyib yekca Hüseynə

Olar Hind oğlu gör həmta Hüseynə?
Yezidin öp əlin baxma Hüseynə
Cəhənnəm əhlisən gər bitərəfsən
Tərəfdar ol Yezidə, ya Hüseynə

# Peyğəmbərlərin (ə) Kərbəlada İmam Hüseynə əza saxlaması (cuşi)

Çün həzrəti Adəm yetişib Kərbübəlaya
Qəmli ürəyi dərdə gəlib gəldi nəvaya
Səs gəldi dayan burda əza saxla Hüseynə
Torpağını öp, oxşama de, ağla Hüseynə

Nuhun gəmisi aləmi qoymuşdu qəfada
Gəldi keçə, girdaba düşüb Kərbübəlada
Can qaldı xətərgahda gözü ərşi Xudada

Cibril dedi cuşə gəlib bəhri təfəzzül

Ver sən də Heseyn daməninə dəsti təvəssül

Yol saldı o səhraya Xəlulullah at üstə

Birdən yıxılıb atdan olub fərqi şikəstə

Üz tutdu göyə baş yaralı peykəri xəstə

Forən ona da gətdi xəbər peyki əvamir

Cuş etdi sənin qanın Hüseyn qanına xatir

İsmayılın əhşami pəsəndidə sifati

Daim mələşib içmədilər abi Fərati

Heyrətdə qalıbdır kəsilibdir səbri-sübatı

Səs gəldi qoyundan-quzudan qıl bu sualı

Etsinlər səni ta bu yerin sirrinə hali

Həsrətlə o dilsizlərə bir etdi nəzarə

Qüdrət əli qıldı hamısın əhli işarə

Ecaz elədi müşkülü İsmayıla çarə

Gəldi dilə dilsiz quzular etdi təzahür

Bu çöldə suvarma bizi sən Əsğərə xatir

Fərş ilə hava üstə gəzən vəqtə Süleyman
Təxtin çevirib vurdu yerə şiddəti tufan
Ərz eylədi ya Rəbb görünüb məndə nə nöqsan
Səs gəldi çox tünd gedisən belə getmə
Vəhşətlidi bu vadiyi-iymən belə getmə

Bu çöldə Hüseyni qəmə amac edəcəklər
Zülm ilə onun təxtini tarac edəcəklər
Qızlarını bir məcərə möhtac edəcəklər
Bu çöldə Hüseyn də batacaq qana Süleyman
Düş, ağla o məzlum Süleymana, Süleyman

Musa da gəlib bir gün o səhrayi bəlaya
Batdı bir ayağına tikan, gəldi nəvaya
Cibril dedi sən də cülus eylə əzaya
Bu çöldə Hüseynin hərəmi baş açacaqdır
İstəkli Rüqəyyə tikan üstən qaçacaqdır

Bir gün də Məsihin yolu düşmüşdü zəruri

Yanında həvariləri başında qüruri

Bir şiri qəvipəncə kəsib rahi üburi

Səsləndi həvariləri qeyzilə o saət

Kəsdin yolu Ruhullaha aya nədir illət

Səsləndi həvarilə ba qeyzu cəsarət

Aşuri Məhərrəmdi bu rəftarıma illət

Vadar eləyir dildəki pünhani məhəbbət

Hər kim ki, hər il düşsə bu səhraya güzarı

Dəvət edərəm mənlə edə nohə və zari

Yandı hamı əlqissə ürəkdən bu məqalə

Hüzzar onun dorəsinə vurdular halə

Topraq sovurub başa o şir eylədi nalə

Səsləndilər ey ruhi Məsiha sənə qurban

Məryəm sənə qurban ağa, İsa sənə qurban

# Məhərrəmin əvvəlnin həyəcanı (cuşi)

Qara geyindi əhli-iman Hüseynə xatir

Oldu əzayi milli elan Hüseynə xatir

Verdi hilali matəm fərman əlaqəməndə
Məknun olan məhəbbət, cuş etdi səndə, məndə
Qana dönər ürəklər, qara ələm əsəndə
Ver müjdə qərzdarə, miskinə, dərdiməndə
Alsınlar haqq əlilə dərman Hüseynə xatir

Hər il qara ələm ki, birdən olar nümayan
Mənşuri inqilabı, eylər cahana elan
Köynək qara, hədəf bir, şah və gedası yeksan
Səslər Hüseyn deyənlər payəndə bad Quran
Artar ürəklərində iman Hüseynə xatir

Elmi lədünni istər, amma nə iktisabi
Məlum ola Hüseynin ta fəzli bihesabı
Biz görmədik dəriğa təfsiri Bu Turabı
Olsa qəbul Əlinin cəm etdiyi kitabı
Nazil olub deyərsən Quran Hüseynə xatir

Verdi İmami Sadiq əshabinə bəşarət

Tapşırdı sinələrdə qalsın bu söz əmanət
Məhmum olan nəfəslər təsbihdir, ibadət
Olsun qızıl su ilən bu söz gərək kitabət
Düşməndən eylə sirri pünhan Hüseynə xatir

Bəzi kütübdə yazmış bu möhnəti əşəddi
Bir tazə köynək ilən gördü Hüseyni cəddi
Çox təng idi boğazı düşmüşdü düymə rəddi
Forən açıb yaxasın lam oldu əlif qəddi
Öpdü boğazın oldu giryan Hüseynə xatir

Zəhra anasın etdi bu macəra mükəddər
Ərz etdi var nə illət ağlır baba bu gözlər
Fərmayiş etdi görrəm Şimrin əlində xəncər
Bu mən öpən boğazı ətşan kəsir o kafər
Eylir həya o tiği-bürran Hüseynə xatir

Əyyami eyd bir gün şahzadəqani Zəhra
Tazə libası tez-tez eylirdilər təmənna
Zəhra dedi Əlidən mən etmişəm təqaza

Hazır olub libasız xəyyat əlində guya
Geysin Həsən də olsun şadan Hüseynə xatir

Axşam qapı döyüldü Zəhra edib iradə
Gördü qapı dalında bir piri mərdi sadə
Etdi əl üstə təqdim bir boxça sərqoşadə
Röyətdə binəzir -o- qiymətdə föqəladə
Xəyyatı qoymayıbdır nöqsan Hüseynə xatir

Baxdı libasa gördü qüdrət yetib təmamə
Pəşmindən ətri zülfü hura gəlir məşamə
Cüt-cüt siyah çəkmə, tək-tək yaşıl əmmamə
Dürraə və səravil layiqdi hər məqamə
Səbzi Həsəndən ötrü, əlvan Hüseynə xatir

Ərz eylədi Rəsulə, Zəhra bu sərnevişti
Aya dedi tanırdın sən ol niku sireşti
Bu səbz məxməl ilə bu şali xeşt-xeşti
Xəyyat surətində istəbrəqi behişti
Gətdi xəzinədari rizvan Hüseynə xatir

Dərdim yenə dəyşildi ey Xatəmi risalət
Öz yazdığım xəbərdən şəkk eylirəm bu saət
Cibril harda qaldı həngami qəsdi qarət
Bir köhnə köynəyin də soydu şəqi cəmaət
Gün batdı qopdu tufan üryan Hüseynə xatir

Səccadının sorağın oddan ki, aldı Zeynəb
Öz qəlbi tək sipehrə bir lərzə saldı Zeynəb
Oddan çəkib imamı əl başda qaldı Zeynəb
Düşdü gözü cidayə birdən qocaldı Zeynəb
Gördü Hüseyn oxurdu Quran Hüseynə xatir

Dünyanı Şimr qoydu bu macərada ağlar
Çıxmış sudan balıqlar, quşlar havada ağlar
Qaçdı qaçan, Rüqəyyə qaldı arada ağlar
Ətfalına Hüseynin başı cidada ağlar
Dəryalar etdi birdən tüğyan Hüseynə xatir

# Sinə vurmaq səadəti (cuşi)

Bu qarə köynək ilən ünvanımız Hüseyndi
Bir iddə dərdiməndik dərmanımız Hüseyndi

Hər qasidin səfası badi-səba olanmaz
Hər səngrizə almas, hər quş huma olanmaz
Hər təxtə parə minbər hər daş təla olanmaz
Tək kağız və mürəkkəb müşkül-güşa olanmaz
Həllali-müşkilat olanımız Hüseyndir

Misbahi ruhi vicdan müşkati rahi iman
Kəhfi əmani ümmət, rəmzi kilidi Quran
Qomi əcəmdə zi-şən mülki ərəbdə sultan
Damadi xanədani por iftixari Sasan
Əərabə imtiyaz İranımız Hüseyndir

Bu qəlbi sol tərəfdə xəlq eyləyibdi xaliq
Vursun sağ əllə sinə kimdir Hüseynə aşiq
Olmaz ona müvəffəq dəsti-çəpi-xəlaiq,
Qəlbün tökülsə zəngi, rövşən olar həqaiq
Əlhəqq səfayi qəlb və imanımız Hüseyndir

Bir az gərək döyülsün hər zəngdari ahən
Qəlbində zəngi vardır vur sinə eylə şivən
Ayineyi həqaiq olsun təraz və rövşən
Ondan qəzavət eylə gör sünnü həqdi ya sən
Vallah sübuti-həqqə bürhanımız Hüseyndir

Nisbət verirlər guya bir alimi cəlilə
Zəncanda yalvarırmış xəllaqi bibədilə
Ya, Rəbb vəbanı göndər Zəncandan Ərdəbilə
Eşqi Hüseyn olarda artıqdı bu dəlilə
Sinə vurub deyərlər dərmanımız Hüseyndir

Əlan gəl Ərdəbilə ey alimi-girami
Diqqətlə eylə röyət divarı, səqf və bami
Bax gör nələr görərsən İslamə ver səlami
Bəndə Hüseyn firuşəm, adım Hüseyn qulami
Əmalımız Yəzidi, unvanımız Hüseyndir

Əhli İraqə bənzər hər kimdə var bu xislət

Zər bədrəsin görəndə eylər Yezidə beyət
Zərd oldu simu-zərdən axır gülü şəriət
Səsləndi nökərani muzduru bi şərafət
Şəmşirizi itildin, mehmanımız Hüseyndir

Hey əsləhə düzəltdi ahəngərani Kufə
Zəhrilə verdilər su sərnizə və süyufə
Min-min gəlir süvari mülhəq olur süfufə,
Qatil yığışdı yüz min bir seyyidi rəufə
Hökm oldu kim qətili ətşanımız Hüseyndir

Gördü Həbibi Müslim bazaridə pərişan
Ərz etdi keyfə əsbəhtə ey piri əhli iman
Bir bax dedi Həbibi necə qocaltdı dövran
Rəng və hənayə bir az var ehtiyacım əlan
Bu gün dəvayi dərdi hicranımız Hüseyndir

Müslim dedi bəs onda yox lütf bu hənadə
Bir namə var ağamdan ol mənlə həm iradə
Bu nisfi şəb geyin gəl, gizlin gedək cihadə

Yaxşı həna satırlar bazari Kərbəladə,

Biz bəndəqane-eşqik sultanımız Hüseyndir

Hər kəs gəlib evində geydi səfər libasın

Andırdı bir dililə öz yaru-aşinasın

Ağlar qoyub dalıyca həsrətli əqrəbasın

Gördü Həbib əyalı başə salıb əbasın

Ağlar deyir ağamız, cananımız Hüseyndir

Müddətdi mən ağamın hicrində əşkrizəm

Xişu-təbarə gərçe hörmətliyəm əzizəm

Zindanidir bu Kufə, amadeyi qorizəm,

Sən ol Hüseynə nökər, mən Zeynəbə kənizəm

Gənci nihani qəlbi viranəmiz Hüseyndir

Hasil gəlib çıxıblar səhrayi-Kərbəlayə

Diqqətlə baxdılar bir covləngəhi bəlayə

Bir yanda çəng, tar və tənbur əşqiyayə

Bir səmtidən ucalmış Quran səsi səmayə

Səsləndilər o sovti xoşxanımız Hüseyndir

Verdi qərəz uzaqdan Quran səsi güvahi
Qəsd etdilər piyadə o ruyi-padişahi
Əbbasi namidarə görsəndi bir siyahi
Şərzə gedib Hüseynin şir büləndi-cahi
Səsləndi ey gələn dur mizanımız Hüseyndir

Olsaz əgər Hüseynçi, azadisiz xiyamə
Şayistəsiz göz üstə, çox izzu-ehtiramə
Amma müxalif olsaz, mən istəyən imamə,
Şəmşiri eylə vurram başız gələr səlamə,
Gün rükni xəlqi kövni imkanımız Hüseyndir

Gördü Həbib uzün qol, kəskin qılıncı üryan
Səsləndi mən Həbibəm, ey şiri mərdi meydan
Əbbas sən də, mən də yalqız Hüseynə qurban
Gəldim bu ağ məhasin qanilə olsun əlvan
Nuhi nicat bəxş tufanimiz Hüseyndir

Qərq oldu qeyrətindən Əbbas göz yaşında

Bir söz dedi Həbibə ağlatdı yoldaşın da

Əmr eylədi üzəngi bağla əyir qaşında

Qorxar, bu xeymələrdə bir qız var üç yaşında

Hər ağlayanda qəlbi suzanımız Hüseyndir

# Hüseynə (ə) qurban (cuşi)

Səhra Hüseynə qurban, dərya Hüseynə qurban

Məxluqi ərş -o-xəlq dünya Hüseynə qurban

Adəm Hüseynə qurban, Xatəm Hüseynə qurban

Ağlar gözüm, yanıqlı sinəm Hüseynə qurban

Quranda “Kaf”, “Ha”, “Ya”, “Ayn”, Sad“ yeksər

Hər sureyi müəvvəl, hər ayeyi müfəssər

Hər cümleyi müdəlləl, həm kəlmeyi müsəttər

Fəcr, Züha, Nəcm, Zeytun, Tin, Kosər

Əhqaf, Hud, Rəd, Əsra Hüseynə qurban

Salsın nəzər sərapa Vəl-Əsr və Mursəlata

Mənzuri Həl-Ətaya, məfhumi Vaqiata

Həm Yunis, Muzzəmmil, həm şəni Zariyata

Məruf olan Hüseyndir, təfsiri Naziata
Torati həqq əlində Musa Hüseynə qurban

Təsnim, Hovz və Kosər, cənnati Ədn və Hura
Quddusiyani Əqsa, subbuhiyani əla
Səkku, Dəyr və Əqnum, Qissis və xaçi tərsa
Beyt, Səfa və Zəmzəm, Rükn, Hətim və Bətha
Mövudqahi eydi Əzha, Hüseynə qurban

Cibrili basədaqət, Mikali baləyaqət
Zuhhadi bahəqiqət, ubbadi bakifayət
Şərq ilə qərb arası, məzlum ölən camaat
Bədr və Ühüddə içdi kim şərbəti şəhadət
Təşti təlada rəsi Yəhya Hüseynə qurban

Bir gün yatıb Peyəmbər etmişdi istirahət
Gəldi əzizi Zəhra cəddin edə ziyarət
Peyğəmbərin əyalı mane olub o saət
Alcaq səsin Hüseynin durdu o kani rəhmət
Fərmayiş etdi cəddi Taha Hüseynə qurban

Tapşırdı aftabi irşaddır Hüseynim
Həm illət və bəqayi icaddır Hüseynim
İncitmə iftixari əcdaddır Hüseynim
Hər vəqt görüşə gəlsə azaddır Hüseynim
Mülkü, əyalu, canım yeksər Hüseynə qurban

Bir gün də gördü cəddin minbərdə xırda çağı
Sürət qaçıb ilişdi bilməm hara ayağı
Nagəh Hüseyn yıxıldı dəydi yerə dodağı
Düşdü yerə Peyəmbər görcək bu ittifaqı
Öpdü üzün buyurdu guya Hüseynə qurban

Hey ləblərin öpərdi, ağlardı yana-yana
İllət sual ediblər bu mehnatı gerana
Fərmayiş etdi yannam təqdiri xeyzərana
Bir gün batar bu ləblər təşti təlada qana
Zeynəb deyər Yezidə vurma Hüseynə qurban

Bir gün olar Yezidin tüğyan edər cəfası

Bilməz baxır bacısı, ovladı, əqrəbası
Onda qızım Bətulun ərşə çıxar nəvası
Göydən ağac enəndə can-can deyər anası
Məzlum Möhsün ilə Zəhra Hüseynə qurban

Zeynəb də səslər onda dünya Hüseynə qurban
Öz dayəsi vəfalı Ləya Hüseynə qurban
Gülsüm ilə, Rübab, Leyla Hüseynə qurban
Min Qasim ilə Əkbər tənha Hüseynə qurban
Qolsuz yatan su üstə Səqqa Hüseynə qurban

Zərr aləmi olunmuş imza Hüseynə qurban
Məsumə Məryəm ilə İsa Hüseynə qurban
Sərdastani xilqət Həvva Hüseynə qurban
Yəsribdəki əlilə Suğra Hüseynə qurban
Tazə gəlin qızım da hətta Hüseynə qurban

Oraqi Sidrə, şaxi Tuba Hüseynə qurban
Tahada ləfz -o- lütf -o- məna Hüseynə qurban
Bil cümlə mahiyani dərya Hüseynə qurban

Avarə ahuvani səhra Hüseynə qurban
Viranədə üç yaşlı Zəhra Hüseynə qurban

# Xoş gəldin (Cuşi)

Ey xəlili sərgərdan, bu minaya xoş gəldin
Kəbədən səfa gətirdin, Kərbəlaya xoş gəldin

Ey xəlili rəbbani vey dəlili ər-Rəhman
Göydə vəhyi nazildir yoxdu qətinə bürhan
Min yolilə vəhy eylər bəndəyə Həqqi Subhan
Başına yığıb yetmiş bir nəfər gözəl qurban
Hökmi vəhyilən düşübdü ibtilaya xoş gəldin

Kəbənin binasında cəddin eyləyib himmət
Daşların Xəlilullah nəsb edib çəkib zəhmət
Kəbə də sizinkidi, qiblə də behər surət
Sən ki, çöllərə düşdün beytə saxladın hörmət
Kəsbi ehtiram etdin Kərbəlaya xoş gəldin

Biz Bəni Əsəd qovmu paybəndi imanıq

Hamiyani İslamıq, cannisari Quranıq
İndi mizban sənsən, biz bu çöldə mehmanıq
Əmrin olsa təslimik, gəllən olsa çobanıq
Xidmət eylərik Ali-Mustafaya xoş gəldin

Bir gül eyləsə hədiyyə öz həbibinə aşiq
Qəlbinin səfasından eşqini bilər sadiq
Şübhəsiz bu qurbanlar şəninə deyil layiq
Sən özün ki, layiqsən ey səhifeyi natiq
Çün bəha verər lütfün kəmbəhaya xoş gəldin

Şərmsar olar görsə hişmətin süleymanlar
Feyz alar hüzurundan basədaqət insanlar
Ver cavanlara rüxsət canına fəda canlar
Nəhrdən su versinlər teşnədir bu qurbanlar
Axmasın susuz bir qan bu minayə xoş gəldin

Gəlmişik edək xahiş dərdu qüssən inçəlsin
Bu solub yanan güllər kölgə yerdə dirçəlsin
Əhli-beytə rüxsət ver bir qəbiləyə gəlsin

Nazdanə qızların xeymələrdə dincəlsin

Səqfi xanəmiz salsın ərşə sayə xoş gəldin

Məhzərində Əbbasın qərqi bəhri möhnətdir

Çox yaxın gəzir sənlən sahibi iradətdir

Tutqun ay kimi amma qorxulu əlamətdir

Ay günə yaxınlaşsa şahidi qiyamətdir

Bari itrətin salma bu bəlaya xoş gəldin

Kufə əhli əvvəldən sidqilən səfa bilməz

Fori bağlanan əhdi sındırar vəfa bilməz

Evdə öz qonağın da öldürər xəta bilməz

Tapsa fürsət qarəti heç ana bala bilməz

Baş kəsər çoxu köhnə bir qəbaya xoş gəldin

# Cənab Hürrün tövbəsi (sinəzən)

Hürrü şərməndəyəm ey şah pənah axtarırram

Gəlmişəm dərgahına izzətu cah axtarıram

Mən həmən zalım idim zülmdə tüğyan eylədim

Fatimə qızlarını qəlbi pərişan eylədim
O cəsarət ki, Hüseynə məni nadan eylədim
Gəlmişəm xətti aman əfvi günah axtarıram

Yetirin şaha deyin bəndeyi şərməndə gəlib
Ya Hüseyn Hürrü sərəfkəndə panahəndə gəlib
Qapına bir üzü qara əli boş bəndə gəlib
Halıma quşeyi çeşminlə niqah axtarıram

Görmədim ali-Yezidin səri rahində şərəf
Nə əmirində ədəb var, nə sipahında şərəf
Nə libasında fəzilət, nə kulahındə şərəf
Mən bu dərbari şərafətdə kulah axtarıram

Mən əzəl fikr elədim iş belə gəlməz qabağa
Kimdi şəmşir çəkə dəvət olunmuş qonağa
Məni əfv eylə bağışla yolunu kəsdim ağa
İndi babi kərəmu rəhmətə yol axtarıram

Atanın haqqına verrəm qəsəm ey şah səni

Qapına qan eləyib gəlmişəm əfv eylə məni
Siz şərəf mədənisiz rədd eləməzsiz gələni
Töbeyi rusiyah -o- namesiyah axtarıram

Dərdimin çarəsini səndə fəqət görrəm ağa
Daməni vəslini əldən necə mən verrəm ağa
Mən əgər Hürrəm elə bu qapıda hürrəm ağa
Üstuxani kərəmin gah bigah axtarıram

Gəlmişəm cürmu xəta dəftərin əşgilə siləm
Öpəm Əkbər əlini, Əsğərə qurban kəsiləm
Sən su verdin mənə yollarda, mən əlan xəciləm
Üzü ağ olmağımı xah-nəxah axtarıram

Məndən üz döndərib əsrarimi ifşa eləmə
Küfrümü səfheyi tarixdə imza eləmə
Qapıdan qovma Hüseyncan məni rüsva eləmə
Göz yaşım qanə dönüb sinədə ah axtarıram

Gecə başından olan xəlqi pərakəndə sənin

Heç biri şəninə olmazdı bərazəndə sənin
Bu qulamım sənin, oğlumda sənin, mən də sənin
Bu sınıq ləşgəri məduduma şah axtarıram

Şühədaya eləyibsən nə kəramət bilirəm
Öz məqamın hamı eylib gecə röyət bilirəm
Şühəda huri görüb, mən səni cənnət bilirəm
Qeybə iman gətirib, əmnu-rifah axtarıram

Ar ola cənnəti sənsiz biri gər yada sala
Gedirəm qoyma bu nisgil vəli qəlbimdə qala
Göndər Əbbası bacından mənə hilliyyət ala
Özümün gəlmir üzüm, lütfi ilah axtarıram

# Leylanın həzrət Əli Əkbərlə (ə) vidalaşması

Gözəl oğlum o gözəl gözlərinə maşallah
Hüsnü zibayi mələk mənzərinə maşallah
Xaliqin ləfzi təbarəkdə mübarək buyurub
Belə Əkbər yaradan, Əkbərə maşallah
Yaşıl əmmamə gül ruyun alub sayə sənə

Hüsnü sultanı qoyan əfsərə maşallah

Necə Peyğəmbərin ardınca Bilali Həbəşi

Hey deyərdi belə Peyğəmbərə maşallah

Düşüb ardınca qara türrələrin misli Bilal

Sənə iman gətirən kafərə maşallah

Tökmə zülfün üzə qoyma gecə gündüz bir ola

Qatma kafiri bir müşki tərə maşallah

Tiği neylirsən Əli var iki şəmşiri qaşın

Elə şəmşiri qəvi cövhərə maşallah

Tiri müjqanı çox vurma ürək başından

At o oxları dili ləşgərə maşallah

Surətin sureyi Nurun oxuyub üstün Əli

Bir belə surətə Surətgərə maşallah

Həlqeyi Bismilə manəndi əmaməndə vurub

Sureyi Nurə gözəl mənzərə maşallah

Ləblərin ləli bədəxşanda salıb ronəqdən

Can fəda bu ləbi can pərvərə maşallah

Çəkələr surətini Misridə gər divarə

Min Züleyxanı salar çöllərə maşallah

Boğazında oxunur zibhən əzima rəmzi

Gedisən indi dəmi xəncərə maşallah

Ver nişan düşmənə pistani şücaət əmməyin

Qoy desinlər sən əmən o südə maşallah

Necə gəlsən elə gəl yanıma qəşş eyləmərəm

Dərsi səbr ürəyimdə Hacərə maşallah

Boyaram zülfümü qana tökərəm üz-gözümə

Sayə sallam o gülü əhmərə maşallah

Lalə yandırram öz ahimlə ayaqın altda

Oxşaram dörədəki ellərə maşallah

Canımı allam üzərlik kimi öz ovcuma mən

Tökərəm şölə şəkən məcərimə maşallah

Və in yəkadi oxuyum qaşlarına, gözlərinə

Ya ki, bir dəfə deyim yeksərə maşallah

Alıb ətrafını məzlumların ahı oğul

Dövrənə həlqə vuran ləşgərə maşallah

Əl duada ayın ətrafın alıb ulduzlar

Xırda qızlar dil açıb Davərə maşallah

Yeri bir göz dolusunca ana baxsın boyuna

Yaza ardınca sireşgim yerə maşallah

Ya qabaqda su səpim yollara göz yaşımla

Qonmasın toz o qara tellərə maşallah

Qorxuram sən toza batsan deyələr Yusifdi

Üstü topraqlı gəlir məhşərə maşallah

Qoy Rübabı çağırım Əsğəri al bağrına bas

Üzün öp sən də denən Əsğərə maşallah

Görməmiş Münqəzi qoy uğruna Əsğər çıxsın

Yolda xoş yomn olur ahubərə maşallah

İki seyyid, iki qardaş aylan ulduztək

Öpüşün bir də deyin bir-birə maşallah

Alnının sil tərini öz kəfənin guşəsinə

Rəzmigəhdə qarışa qan tərə maşallah

Anasın eylə dua qalmaya Leyla gününə

Toy edib oğluna xeyrin görə maşallah

Daş toxanmaz bir ayağa yazısı var hamının

Hər nə versə gərək Allah verə maşallah

Göz yaşı bəxti dəyişməz poza bilməz yazını

Hər nə təqdir yazıb dəftərə maşallah

# Əli Əkbərlə (ə) vidalaşma

Nə qədər Əkbərə Leyla dedi maşallah

Gördü Əkbər yol alıb səslənir innəllah
Xəbər aldı bu işin baisi kimi oldu Əli
Dedi la hovla və la quvvətə illa billah

Anacan mən gedirəm məqtələ inşallah
Deyəsən gəldi məramım ələ inşallah
Vacibut-taətə imamım məni məmur eləyib
Qıl dua həll ola bu məsələ inşallah
Bizə həsrətlə baxır Hacərilən İsmail
Söhbətin olsa da qalsın hələ inşallah
Səbri ünvan eləyək mədrəseyi irfanda
Öyrədək Hacər və İsmailə inşallah
Get otur xeymədə həsrətlə dalımcan baxma
La əqəl həşrə kimi səbr elə inşallah
Var ümidim ana ədani sevindirməyəsən
Baş açıq gəlməyəsən məqtələ inşallah
Qoşunun saydı babam gördü biri kəmdi yenə
Fikri qıllam dedi bu müşkülə inşallah
Axəri səfdə qoyub tez südəmər sərbazın
Məni bildim qoyacaq əvvələ inşallah

Olmuşam Ali-Xəlil içrə odur pişqədəm

Tez yetəm şoqilə sərmənzilə inşallah

Mən bu rəzmə hamıdan tez gedirəm, tez qayıdım

Bəlkə məqsudum ələ tez gələ inşallah

İstirəm indi bu on səkkiz ilin zəhmətinə

Sənə bir feyz verəm kamilə inşallah

Anama cəddimə səndən aparam ərzi salam

Əcru muzdun verələr yüz belə inşallah

Cənnətə getsəm əgər halu-həvasın pozaram

Baxmaram sərv -o- gülu sünbülə inşallah

Qoymaram dörəmə sənsiz o behişt hurilərin

Dəyməz əl sən darayan kakilə inşallah

Zülfümün qanını cənnətdə özün gəl yu ana

Verəsən bəlkə təsəlli dilə inşallah

Şərti amma budu qəşş etməyəsən məqtəldə

Ləhzə yalvarmayasan qatilə inşallah

Göz yaşından yığasan daməninə mirvarid

Düzəsən zülfünə xoş nəzmilə inşallah

Məndə mərcan kimi qan qətrəsi can qiymətinə

Şiddə-şiddə duzərəm hər telə inaşallah

Neçə şiddə apararsan ana, Suğra bacıma
O bəhanəylə tutarsan dilə inşallah
Zülfün altda vəli qarət günü möhkəm gizlət
Səy elə düşməsin əldən-ələ inşallah
Onu aviz elə yolda gül aviz kimi
Tağİ balayi səri məhmilə inşallah
Qoy desinlər ki məşahiri ərəbdəndi bular
Cümlə sadatidi bu qafilə inşallah
Mən özüm də başın üstündə cida üstə varam
Açmaram sənlə uzaq fasilə inşallah
Nizədən görsən əgər ayı şəqqul-qəməri
Qismətindən eləməzsən gələ inşallah
Desələr Şamda kimdir bu cavanın anası
Əlini qoy sinənə fəxrilən inşallah
Denən əlbəttə bu qurbanlığı mən bəsləmişəm
Ona qurban demişəm hər ilə inşallah
Axər amma özü qurbanlara qurban oldu
Yetdi nəxli hədəfim hasilə inşallah
Bizdə rədd eyləmərik Münzəvinin hacətini
Həşrəcək yox demərik sailə inşallah

Qapıdan qovmarıq əlbəttə əlindən tutarıq
Şeri zibasına verrik silə inşallah

# Həzrət Əli Əkbərin (ə) şücaəti

Ey hizbi şeytan çıxmayın dəvayə hizbullahilən
Nabud olar öz ləşgəruz bir kəlmə bismillahilən

Ey kufiyan, ey şamiyan, mənzuri Aşura mənəm
Məfhumi kərrəmna babam, məmuri Aşura mənəm
Qan cövhərilən münşiyi mənşuri Aşura mənəm
Qanlı minada fidyeyi porşuri Aşura mənəm
Ar eylərəm cəng etməyə hər gəllə rubahilən

Mən şiri-Yəzdan oğluyam, çox izzu-cahım var mənim
Misdaqi nəsrullahdan möhkəm sipahım var mənim
İnna fətəhna əsləhəm, nüsrət kulahım var mənim
Əbbas əmim tək xeymədə poştu-pənahım var mənim
Amadədir mən tək o da qəsdi fəna fillahilən

Vəl-ləyl zülfümdən məsəl, vəl-fəcr hüsnümdən rəqəm

Nəsru minəllah pərçəmim, tiru-kaman nun vəl-qələm
Hey in yəkad və ayətul küsrü oxur əhli hərəm
Bikəs anam eylir dua mən xeyməyə salim gedim
Əlan mənim fikrimdədir Hacər, Xəlilullahilən

Taha və Yasin oğluyam, dilbəndi Peyğəmbər mənəm
Həm yadigari Həl-əta, həm varisi Kosər mənəm
Xəlqən və xülqən heykəli Peyğəmbərə məzhər mənəm
Biyar -o- yavər Leylanı məcnun edən Əkbər mənəm
Öz niyyətimdə sabitəm lillahilən fillahilən

Bir badi pay tondro rəxş -o- səməndimdir mənim
Ləbbeyk ya Həqq səsləyən hər bəndi bəndimdir mənim
Pozğun pərişan dillərə zülfüm kəməndimdir mənim
Qurbani eşqəm öz dilim ağzımda qəndimdir mənim
Dami bəlayə eylərəm həmlə dili agahilən

Agah olun meydanidə biz lafi bica vurmayaq
Biz Ali-Haşim adətən əhd eyləsək sındırmarıq
Mərdanə dəva eylərik dami siyasət qurmarıq

Kim qaçsa təqib etmərik, kim vursa sakit durmarıq
Rəhm -o- mudara eylərik biz düşməni bədxahilən

Olsa ölümdən vəhşətiz əlan müqəddərdir qaçın
Rəsmən hərifiz pəncə -o- bazuyi Heydərdir qaçın
Məndən himayət eyləyən ruhi Peyəmbərdir qaçın
Şəmşirimə əl vurmamış qaçmaq müyəssərdir qaçın
İtmami höccətdir qərəz xeyli ədüvvüllahilən

Bilməm qərəz Şam əhlinə neylibdu bu ziba cavan
Səd oğlu qoysaydı əgər təslim olardı kufiyan
Tez çaldırıb təbli yürüş toz qopdu həşr oldu əyan
Şahzadə xəşmilən əsib manəndi qəlbi aşiqan
Yerdən qopartdı mərkəbi fəryadi ya Allahilən

Allahu Əkbər səslənib hey Heydəri Kərrartək
Titrətdi qəlbi ləşgəri təblərz edən bimartək
Şəmşiri bir ac əjdaha həm nizəsi şahmartək
Hey verdi yıxdı səfləri bir köhnələn divartək
Təşviq edərdi qüdsiyan əhsənt ey vəllahilən

Qozandı va ğovsa səsi vəhşətdən əl başdan keçər
Ləşgər elə naçar olub qardaş da qardaşdan keçər
Əkbər ki, şəmşir endirir başdan dəyib qaşdan keçər
Qüvvətli qol, kəsgin qılıc baş səhlidir, daşdan keçər
Bir şölətək rəftar edər şəmşiri pərri kahilən

Şəstin görəndə kufiyan yapraq kimi lərzan olur
Şəmşiri ki, pərran verir, qol başdan avizan olur
Başdan vuranda nisf edir, vəzn olsun mizan olur
Baş, qol demə, göydən yerə bərgi xəzan rizan olur
Darul əzaba yollanır inkarilən, ikrahilən

Hər kəs itirdi şiddəti qoğadan öz yoldaşını
Sərkərdələr bir guşədə saldı aşağa başını
Zeynəb çəkib ağuşinə təll üstə öz qardaşını
Leyla vəli bilmir nə var, sel-sel tökür göz yaşını
Məcnundu rizan əşgilən, Leyladı suzan ahilən

Səslir biri bəh-bəh əcəb şiri qəvibazudu bu

Bəzi qələt təşbeh edir kim Rüstəmi və Borzudu bu
Bəzi deyir səhv etməyin Peyğəmbəri xoşrudu bu
Danişgəhi Quranidə fəhmidə danişcudu bu
Quran yolunda əhd edib ustadi danişqahilən

Birdən dedi bir bihəya tufan edək sərsər kimi
Damə salaq şahzadəni ahuyi xoş mənzər kimi
Qoymaz qabağından heybəti var röbi Peyğəmbər kimi
Bu nocavani biz gərək daldan vuraq Heydər kimi
Müşküldü çün cəng eyləmək bu mərdi ali cahilən

Neyləyibdi bilməm Əkbərə, həşr oldu bərpa xeymədə
Rəngi saraldı Zeynəbin, qozandı qoğa xeymədə
Bir yarə dəydi Əkbərə, diskindi Leyla xeymədə
Fəryadi vaveylasına səs qoşdu Zəhra xeymədə
Şəh xeyməgahi tərk edib, tez qəsd qurbangahilən

Düzdür sipər dəva günü çox tiru-peykan qaytarır
Ox yağsa gər dörd səmtidən biçarə hardan qaytarır
Kim bir belə meydanidən baş qurtarır, can qaytarır

Şahzadə aldıqca nəfəs zəhmət çəkir qan qaytarır
Gül peykəri ağ köynəyi əlvandı sarullahilən

Oxlarda çox göydən gedir yalqız görən qan-qan deyir
Cərrahə orətlər yanır biganə can qurban deyir
Röyətdə qəlb istər dözə söhbətdə dil asan deyir
Məzlum atası səslənir ləbbeyk Əli can-can deyir
Meydanda sərgərdan gəzir mehri imamət mahilən

Hər səmtə bir göz gəzdirib hey Əkbər Əkbər səslədi
Şahzadədən səs gəlmədi birdə mükərrər səslədi
Yəqub piri nagəhan tofiqi davər səslədi
Qan içrə tapdı Yusifin Allahu Əkbər səslədi
Gördü ki, qan qoymur verə təşxisi rahi çahilən

Baxdı vərəqlənmiş gülə birdən dedi vay Leyliyə
Kafidir əfşan tellərin Leylanı məcnun eyliyə
Səndən sora naçaridi nəxli ümidin peyliyə
Mən mühtəzər halındıyam biçarə Leyla neyliyə
Allah mükafat eyləsin o ləşgəri xudxahilən

Ey taqi əbrusi gözəl mehrabi taatım mənim

On səkkiz il sənlən keçib ləzzətli saatım mənim

Ziba cəmalından olur təhsili hacatım mənim

Ayinə hüsnündən ey fəxru-mübahatım mənim

Hər gün mulaqat eylərəm cəddim Rəsulullah ilən

Düşmən gələr fəryadıma öz naləmi qaytarmasam

Canan bəyənməz eşqimə səbru-vəfa göstərməsəm

Fürsət gedər əldən əgər bu şaxədən gül dərməsəm

Güllər yiğılmaz bir yerə mən bu əbanı sərməsəm

Heç bilmirəm neylim Əli bu fürsəti kutah ilən

# Leylanın Əli Əkbəri (ə) oxşaması (sinəzən)

Ax o şəmşir oturan qaşına qurbanam Əli

Ay kimi parçalanan başına qurbanam Əli

Şakiyəm məst gözündən məni mədhiş aparır

Gözlərin nazilə hər başda ki, var huş aparır

Hamını dindirir amma məni xamuş aparır

Aşiqəm qəmzədə pərxaşına qurbanam Əli

Nə qədər cantək ananın qəhridə sərmayəsi var
Çıxaram birbaşa eşqin nə qədər payəsi var
Şakirəm mən yenə başımda oğul sayəsi var
Başıma sayə salan başına qurbanam Əli

Surətin surəsi misdaqidi şəqqul-qəmərə
Zəhmətim əqrəbi şəmşir veribdir hədərə
Qəmər əqrəbdə düşüb kokəbi bəxtim xətərə
Nəzər eylə gözünə, qaşına qurbanam Əli

Demirəm heç ananam lütf elə əfsürdə diləm
Səni ətşan yola saldım o səbəbdən xəciləm
Məndə yoxdur o ləyaqət sənə qurban kəsiləm
Südəmər sevgili qardaşına qurbanam Əli

Toy günü açar oğlum bacı qardaşa əlin
Hara əlan yaza billəm fələkin bu əməlin
Nizədən göz yaşı tök cəm eləsin tazə gəlin
Qoy desin gözdəki şabaşına qurbanam Əli

Zülfünün hər teli min aşiqi zəncirə çəkib
Qaşların bigünah aşiqləri şəmşirə məkib
Yusifin hüsnünə hüsnün elə bil tirə çəkib
Hamı məbhutidi nəqqaşına qurbanam Əli

Gün şaxır yarənə hərçənd ki, zəhmədti sənə
Qaşın üstə quru qan ləxtəsi zinətdi sənə
Taci yaqut ki, padaşi şəhadətdi sənə
Əcrinə, feyzinə, padaşına qurbanam Əli

Yuxu gəlmir gözümə gərçi bu yollarda bala
Səni röyadə görəm bəlkə bu dərdim azala
Desin ey kaş anam başımı ağuşə ala
Deyərəm dildəki eykaşına qurbanam Əli

Kim görüb nizədə bir baş məhi tabəndə kimi
Tuta sağ-solunu zülfü siyah bəndə kimi
Deyə bikəs anası aşiqi şərməndə kimi
Saqilən soldakı fərraşına qurbanam Əli

Nizədə  Qasim əmoğlun sənə çox gözələr ədəb
Dolanır neçə qədəm dalda o fərxündə həsəb
Həsəni xulq, Hüseyn xislət və Siddiqə nəsəb
Baədəb haşimi yoldaşına qurbanam Əli

# Cənab Qasimin (ə) şücaəti (cuşi)

Əla ey kufiyani bimürüvvət
Olun agah peyəmbərzadəyəm mən
İmami Müctəbanın yadigarı
Hüseynin bavəfa damadıyam mən

Verin qulaq əlan bir xeyməgaha
Suzular ahı çıxmış mehru-maha
Edin beyət bu şahi kəmsipaha
Verin su əhli-beyti bigünaha
Əgər su verməsəz ətfali şahə
Mübariz göndərin amadəyəm mən

Fününi cəngə var tədbir əlimdə
Görülməz vəqfə -o-təxir əlimdə

Əsirimdir nəhəng -o- şir əlimdə
Olar şiri jiyan nəxcir əlimdə
Bu gün qan-qan deyir şəmşir əlimdə
Əcəl məmuru can səyyadıyam mən

Əgərçi surətim vəchul-həsəndir
Vəli vəchul-həsən əldən gedəndir
Qalan eşqi Hüseyn nami Həsəndir
Mənə cəngi zireh bir pirəhəndir
Toy etsəm xələtim, ölsəm kəfəndir
Riyasız eşqilərtək sadəyəm mən

Qərəz təslim olub əhli nəzarə
Cəmali məh cəmali tacidarə
Düşüb rixnə sipahi kin şüara
Ömər Səd, Əzrəqə etdi işarə
O da göndərdi oğlun karzarə
Ki, yəni fənnu-rəzm ustadıyam mən

Atıb nizə səgi zərrinqəlladə

Əyildi rədd edib ol şahzadə
Kəmərbəndin yapışdı biliradə
Bülənd etdi dolandırdı həvadə
Yerə vurdu o səhrayi bəladə
Dedi get əşqiya cəlladıyam mən

Dili Əzrəq yanıb bu möhnətilən
Üç oğlun yolladı foriyyətilən
Müqabil oldu ünəqa himmətilən
Yıxıb dörd kafiri üç zərbət ilən
Gəlib Əzrəq də getdi xiffətilən
Çəkib nərə ki, Heydərzadəyəm mən

Kişilən cəng edə dünyada insan
Ölüb-öldürməyə olmaz hərasan
İraq əhlində gər olsaydı iman
Deyərdim su yolun kəsməz müsəlman
Biz Ali-Mustafa, siz əhli-Quran
Əgər xaram, gülü Zəhradayam mən

Deyil şəhriz iqamətgahi mərdan
Bu şəhri Sədi Vəqqas etdi bünyan
Nə Kufə, məhdi qəflət şəhri məstan
Onun hər kuçəsi min kafiristan
Nə Kufə şirkoş, rubahxahan
Kim ilən gör səri hicadayam mən

Ömər Səd ey səgi bədbu dəmağə
Məni oxşatma nabaliğ uşağə
Varın hər pəhləvan göndər sorağə
Baxırsan olma bu ətşan dodağə
Mən ətşanəm vüsali iştiyaqə
Belə fikr eyləmə bəlvadayam mən

Baxıb Səd oğlu sərhəngani həngə
Vurub zəngi, əlamət verdi cəngə
Kamanlar kök olub yeksər xədəngə
Fəlaxunlar rəvan pərtabi səngə
Mühiti dairə hey düşdü təngə
Dedi tez gəl əmu dəryadayam mən

# Cənab Qasimin (ə) İmamı (ə) köməyə çağırması (sinəzən)

Əmu gəl Qasımin qanı töküldü inqilab üstə
Nə mane var axa bir qan hesab üstə, kitab üstə

Cahanda hər nəfəs, ya hər qədəm teyyi mərahildir
Həyati cavidanə ömrü fani həddi vasildir
Bu qanuni təkamüldü şəhid insani kamildir
Gərək hər gül müəttərdi ayaqlansın gülab üstə

Zireh geysin dedilər cismə tiri cansitan batmaz
Dedim iman zirehdir sinəm üstə heç sinan batmaz
Cavanlar qorxmasın Quran yolunda axsa qan batmaz
Fəramuş eyləməz tarix səbt elər kitab üstə

Özüm bir on üç yaşlı mücahid əhli imanam
Qiyafəm şadidir amma ürəkdən qönçə tək qanam
Yetiməm, dəstgirəm, dəstgirim yox pərişanəm
Yetirməz bir müsəlman bu ləbətşanı su üstə

Sən ey əsrin imamı sahibimsən, dadxahımsan
Vüqarım, izzətimsən, etibarımsan, pənahımsan
Dəlilim, rəhbərimsən, sərvərim, ümidgahımsan
Gəlib bir su tökəydin bu qəlbi kabab üstə

Hüzuri yarə çox-çox sadə vəla yek qəba gəldim
Babam gördüm məni səslir yıxılma ay bala gəldim
Həvəsləndim dedim mən də dayan bikəs baba gəldim
Özümü on bir ildən sonra atdım ol cənab üstə

Vüsalın arizusunda yanır pərvanə gəl qoyma
Babamın əlləri əlan bata al qana gəl qoyma
Sənə təzim edən başı kəsə biganə gəl qoyma
Xəzinə sahibi sənsən, gəl əyləş ləli nab üstə

Ədalətxah olan aləmdə istibdada yalvarmaz
Qəfəsdə can verər himmətli quş səyyada yalvarmaz
Mücahid xəncər üstə yol gedər cəllada yalvarmaz
Cəri etməz sitəmgər şəxsi xəlq inqilab üstə

Tökülsə hərbə başımdan misali çəkkoş -o- sindan

Bir ayə qoymaram təhrif ola Quran arasından

Yezid istirdi qanuni Fərəngi, vurdum ağzından

Ərusun qolları bağlansa, bağlansın hicab üstə

Dedim bikəs ərusə sən də məntək inqilab eylə

Cəmalın zülfün altda gizlədib hifzi hicab eylə

Sənə kim qeyzilən baxsa ona qeyzu-itab eylə

Əgər ölsən də eyb etməz bu bir əmri savab üstə

Cidaya çox baxıb tez-tez məni ahınla yandırma

Qulaqında yaran olsa əgər, əğyara andırma

Anan Zəhradan ilham al, əmoğlun çox utandırma

Necə ki, zülfünü tökmüşdü nili aftab üstə

# Gəlinin həzrət Qasimin ayrılığında sözləri (sinəzən)

Hicrində beş-on gündü giriftaram əmoğlu

Fikr eylərəm illərdi ki, bimaram əmoğlu

Düşmənlərimiz silmədi qəlbindəki zəngi
Bazara çəkirlər bizi çün rumi -o- zəngi
Ruhum quşuna dil verib əzbəs dəvə zəngi
Birdir gecə-gündüz mənə bidarəm əmoğlu

Sən varsan əgər istəmirəm məqsədə çatmaq
Eşq əhlinə bir fənnidi çün vəqti yubatmaq
Bimar yanında məgər insafidi yatmaq
Mən nərgizi bimara pərəstaram əmoğlu

Axşam görürəm rəddi niqab eylədi zülfün
Billəm ki, azan vaxtı səvab eylədi zülfün
Birdən görüsən qəlbi kəbab eylədi zülfün
Hacib ki, həsud oldu nədir çarəm əmoğlu

Söz yox ki, cidadə uca yerdə dolanırsan
Bax bir ayağın altına hərdəm sənə qurban
Murə nəzər eylərdi o hişmətdə Süleyman
Nə sən mütəkəbbir, nə mən əğyaram əmoğlu

Bir toy ki, nə adında, nə qəndində dad oldu
Damad öz ərusiylə vida etdi yad oldu
Axər bu gəlinlik mənim üstümdə ad oldu
Harda söz açılsa yenə mən xaram əmoğlu

Toydan sora lazımdı gəlinlər gedə didə
Hədyə apara biləxəs əqvami cədidə
Gəldim odu bu Kufədə bazara xəridə
Əfsus əli boş daxili bazaram əmoğlu

Başın dalısınca edərəm teyyi mərahil
Dilsuxtə bir müştəriyəm aqil və kamil
Versə yaralı başını can nəqdinə qatil
Vallah mən özüm xibrə xəridaram əmoğlu

Verrəm anana bu yaralı başını hədiyə
Qatil bu təqazaya vəli rəhm edə hə diyə
Məqsud ələ gəlsin mənə aləm hələ nə diyə
Ölsəm də bu yolda yenə mən varam əmoğlu

Pərvanəni naqis bilirəm eşqidə düz söz
Tənha gecə aşiqdi gəzir gündüzü düz-düz
Yansa o yanar tək gecələr mən gecə-gündüz
Moşt olsa o, mən eşqidə xərvarəm əmoğlu

Çıxmaz neçə gün tazə gəlin hicləsəradan
Bir kimsə üzün görsə ölər şərmu-həyadan
Mən bəxti qara bir belə şiddətli bəladan
Salim qutaran canıma bizaram əmoğlu

Eşqim var əzəldən bilisən zikri əzaya
Əşari ədibanə, kəlami üdəbaya
Lütf eylə bir az Münzəvitək nöhəsəraya
Çün yazdığı əşarə tərəfdaram əmoğlu

# Təzə gəlinin həzrət Qasimə (ə) xitabı (sinəzən)

Yel əsəndə hərdəm əmoğlucan gözümün yaşın hədər eylərəm
Çətin öz cəmalımı gizlədim, necə sənə nəzər eylərəm

Qıl özün dua bu yel əsməyə
Göz evində zülfü müənbərə
Tökülə cəmalına tellərin
Çəkə pərdə qüdrət davərə
Pozulanda bir də çətin gələ
Nəzərə təxəyyüli mənzərə
Yel əsəndə vəqtim olur tələf
Bir az ömrümü hədər eylərəm

O məcazi eşqimdi kinədən
Hamı vəsli yarə özün seçər
Biri ləblərin biri surətin
Kim ola mənim kimi bihəsəd
O ğəzayi ruhun özün seçər
Odur hər görəndə cəmalını
Anana özüm xəbər eylərəm

Məni şəhrlərdə görən deyər
Elə bil bu toy günü görməyib

Bu əgər gəlindi məşatələr
Niyə bu hörükləri hörməyib
Deyə bilmirəm mənə bir nəfəs
Toylan əza ara verməyib
Əridib həya su edir məni
Sözü fori müxtəsər eylərəm

Ürəyimdəki qəmi-qüssəmin
Sayı yoxdu mən gətirəm sana
Kimə mən ağardım ürək sözün
Nə bacı gərək bilə, nə ana
Gülü dərdim istədim iyləyəm
Yel apardı qoydu yana-yana
Yel apardığın aparar vəli
Ox ola gözüm sipər eylərəm

Gecə yatmıram dəvə zənginin
Səsinə həras ayilam yenə
Ürəyimdə ram olan eşqimin
Sına qəlbi inciyə diskinə

Bu ürək döyünməni nəzmilən
Qoşaram gecə dəvə zənginə
Görələr səbili vəfada mən
Nə siyaqilən səfər eylərəm

Hərə başlayıbdı bir oxşama
Qarışıbdı bir-birə hay-hay
Seçilir yanıqlı sızıltıdan
Neçə vay-vay, neçə lay-lay
Mən anan baxa-baxa səs çəkib
Necə səsləyim vay əmoğlu vay
Oxusam hüda daşı ağladıb
Dəvələrdə mən əsər eylərəm

O qaşunda qan qətəratinə
Hamı yaru-yoldaşın ağlayır
Baxanın gəlir belə fikrinə
Ki, gözün gülür, qaşın ağlayır
O qədər ki, mən sənə ağlaram
Nə bacın, nə qardaşın ağlayır

Quruyan ağaclara ağlasam
Onu əşgimilə tər eyələrəm

Açılan hörüklərimi töküm
Üzümün harasını gizlədim
Əl əl üstə, ya qoyub əyləşim
Əlimin hənasını gizlədim
Vəli gözlərin belə andırır
Qulağım yarasını gizlədim
Gözün əmr edə nə qadası var
Gözümü ona çəpər eylərəm

Min il ömr edib sənə ağlasam
Bu güman  varım ki, bəs olmaya
Dəyə neştər hər o gözdə ki
Sənə baxmağa həvəs olmaya
Bu ürək döyünmə ki, var mənə
Gecə istərəm cərəs olmaya
Nəzəri vüsalə xoş olmasa
Gecəni necə səhər eylərəm

Nə varım təbiətə etina

Nə sorağı bağ və mənazirəm

Hamı bir mənə baxıb ağlayır

Mən özüm cəmalına nazirəm

Mənə hər baxanda qara gözün

Min ölüb diyilməyə hazıram

Ölüm adı gəlməyilən məgər

Belə eşqidən həzər eylərəm

# Təzə gəlinin sözləri

Sübut olsa gər eşqimin səbatı əmoğlu

Yəqin ürəkdə yazarsan bu xatiratı əmoğlu

Dedilə bir neçə saət mənə gəlin, sənə damad

Əvvəl inandım eşitcək bu şayiatı əmoğlu

Bu tezlikilə nə biləydim gəlin də qara geyərmiş

Xəyalə kim salar axər bu hadisati əmoğlu

Salanda süfreyi əqdin nə tapıldı, nə şərbət

Mən ac-susuz yola saldım müxəddəratı əmoğlu

Rüqəyyəmin dili qənd oldu, noğulu daneyi əşgim
Bu qəlbimin sınığı süfrənin nəbatı əmoğlu
Susuzluğun əsər eləyib bu gözlərimə kəənnəhu
Öziylə gəzdirir əlan gözüm Fəratı əmoğlu
Nə fayda olan oldu, ölən də öldü qutardı
Bu göz yaşı yuya bilməz müqəddəratı əmoğlu
Məni güzəşt elə nəşin gələndə maneyim oldu
İcazə vermədi hücbü-həya zatı əmoğlu
Vəli səni tanıram mən ağalığından uzaqdı
Müzayiqə eləməzsən bir iltifatı əmoğlu
O qədri yazdım ərizə sənə bu göz yaşım ilə
Daxi bu göz yaşımın xoşk olub dəvatı əmoğlu
Sənin cəmalını bir baxmağa varım iki mane
Müvafiq eləsin Allah o müşkülatı əmoğlu
Sənin üzün görünəndə mənim gözüm yaşı qoymur
Gözüm silincə yel örtür təcəlliyatı əmoğlu
Sənin yolunda mənə nuşdur bu qeydi əsarət
Gəzim piyada tikanlıqda şeş cihatı əmoğlu
Bu şərtilən baxasan gah-gah nizə başından
Ki, eşqimin yenə təcdid ola həyatı əmoğlu

Sənin nəyin azalar sühbü şamacan mənə baxsan

Gözündədir yorulan ruhumun nicatı əmoğlu

Başın təsəddüqi xalxal və güşvarəmi verdim

Zəkatu-fidyədi hüsnün mühəssənatı əmoğlu

Təriqi eşqu-vəfada fəqirəm ibni səbiləm

Gərək mənə yetişə hüsnüvün zəkatı əmoğlu

# Bəhrul-məsaibdən Şimranda İmamzadə Qasim barədə xəbəri

İmamzadə Qasim bu mülki İranda

Varidi türbeyi mərufi kuhi-Şimranda

Yazıbdı Sahibi Bəhrul-Məsaibi şühəda

Bu bir xəbər ki, dözüm yoxdu qəlbidə əbəda

Bir iddə şimrsifətdən o yerdə vardı nişan

Yazır İmam Həsən yadigarı Qasimi zar

On üç yaşında vəli möhnəti hezar-hezar

Əgərçi gül bədəni min bəlaya oldu qərin

Başı nə çəkdi, bədən çəkməyibdi mində birin

Deyillə, nizədə on yeddi baş gedib Şama

Vəli onun başı çox başdan oldu həngamə

Varidi ləşgər içrə bir iddə iranlı
Hamı sevirdi ürəkdən o mahi tabanı
Həmin qoşunda olan ariyayi sərkərdə
O başa aşiq olub düşdü günbəgün dərdə
Təsadüfən tərəbilən at oynadanda sipah
Düşübdü topraqa sərnizədən o surəti mah
Təəssüfilə dedilər hezar heyif o başa
O mah surətə əfsus indi dəydi daşa
Töküldülər götürüblər onu silib yumağa
Nə gördülər toza da batmayıb o məh liqa
Baxıb cəmalına aşiqlər oldu aşiqtər
Xüsusi dildən o sərkərdə oldu şayiqtər
Dedi başındakı yoldaşlarına ki, ey rüfəqa
Diyari Şamə kimi ömrümüzdə olsa vafa
Öpüb Yezidin əlin əmrə müntəzir qallam
Bu başı gər desə can qiymətinə mən allam
Qərəz yetişdilər paytaxti zülmə qovmi rəcim
Yezidə etdilər kürnuşi xassilən təzim
Verib güzariş o xəlqi əvam kəl-ənam
O qan tökənlərə paylandı xələt və ənam

Hamı çəkildi dayandı, əmiri iranlı
Yezid məsti mey, o məsti eşq tufanı
O xoşk olubdu yerində, gözündə əşki bəsər
Yezid işarə edir hey əlində kiseyi zər
Nəhib verdi mülazimlər ey əmiri əcəm
Əlindən öp sənə sarı gəlibdi dəsti kərəm
Təkan yeyibdi o sərkərdə gəldi öz-özünə
Yezidi agah edib qan olan ürək sözünə
Dedi zər istəmirəm eşqimə əlamət ola
Bir ərzi halım var, qorxuram cəsarət ola
Vəli bunu bilirəm aşiqi unutmazlar
Ki, çox ədaları eşqdən eyib tutmazlar
Başıma tacını qoysan da vurram indi daşa
Əgər düzün xəbər alsan mən aşiqəm o başa
O rəzmə özgədən əvvəl ərus vaqif olub
Qızardı rəngi qəzəbdən bulud kimi tutulub
Tələsdi qeydin açıb səfdən aşiqanə çıxa
Rəqib alınca özünü o başın üstə yıxa
Çalışdı qoldan açılsın tənabın bəndi
Tənab açılmadı amma cəmalı görsəndi

Bir ayrı şəxs o dəm durdu, ya İmami Zaman
Yezidi şumə onu verdi barmaqilə nişan
Əcəm əmiri ki, damadı tutdu belə əziz
Verin ərusunu mən də edim evimdə kəniz
Kəniz adın eşidim şərmsar olduğuna
Sıxıldı quş kimi biçarə əmmə qoltuğuna
Dedi amandı bibi eylə sən bu dərdə əlac
Fələk nə fikrilə verdi Bəni Üməyyəyə tac
Yezid görmədi bizlərdə ismət və fəzli
Qolun ki, bağlıdı əmmə çağır Əbulfəzli
Buyurdu sal qolunu boynuma yıxılma qızım
Vüqar sahibisən, səy elə sıxılma qızım
Əgər atası Müaviyyə gəlsə dünyayə
Bu əmrə cürət edənməz fürumayə
Bu yerdə naleyi Gülsüm məclisi bürüdü
Dedi əlin qurusun! cabeca əli qurudu
Qərəz pozuldu o dəm nixbəru-qüruri Yezid
Qarışdı məclis olub vahimə Yezidə məzid
O qəm sipahını viransərayə göndərdi
Zibəs müsirriydi eşqində mərdi irani

Yeziddən alıb axər o mahi tabanı

Dedi ətiqə kimi poşti şişədə qoyaram

Bunun cəmalı dilarasına baxıb doyaram

Sənin də fəthini İranda çox xətibi bəliğ

Məcalis içrə hamı xəlqə eylərəm təbliğ

Beqolu Xaceyi Şiraz o mürşidi irşad

Fələk bemərdumi nadan dəhəd zimami murad

O mərdi cahil və nadan marəmına yetdi

Qəzali Fatimənin başını alıb getdi

Açıb ürək gözünü eşqi cahilanəyə bax

O tuli rahda rəftari aşiqanəyə bax

Aya İmam Zaman sən özün bu yerdə həkəm

Necə riza olusan mən bu sirrə pərdə çəkəm

Düşərgələrdə necə topi məşğələ yerinə

Sərani-ləşgər atardı onu biri-birinə

Odur ki, aşiqi nadan qəbahətin görməz

Hüseynə aşiq olan vəchi xümsünü verməz

Qərəz gecə yatışıblar o feli məvada

Varidi çeşmə ilə bircə külbeyi sadə

O külbədə bir anaynan var idi norus oğul

Fədaiyani Hüseyn-Həsən, Rəsul və Bətul
Gecə görüb o xanım Neynəva nəvası gəlir
Həzin-həzin deyəsən vay oğul sədası gəlir
Deyir ki, təxteyi tabutu təxt edən bala vay
Mənim gəlin qızımı qarə bəxt edən bala vay
Səsin dalınca çıxıb ol zəni vəfa sirət
Süründü sinəsi üstündə çox edib himmət
Gəlib tapdı əmiri sipahı ahistə
Baxıb gördü ki, bir kisə var başı üstə
Çəkibdi dövrəsinə həlqə-həlqə nur hisar
Götürdü kisəni bildi nə var o kisədə var
Süründü himmətilən gəldi çatdı külbəsinə
Qoşub sızıltısın ahistə oxşama səsinə
Açıbdı kisəni hey nalə çıxdı, vay çıxdı
Çırağ tapılmayan evdə işıqlı ay çıxdı
Nə ay, nə gün, ona təşbihi şairanədi bu
Fərazi nəxli nübüvvətdə bir cəvanədi bu
Gər eyləsəm ona təşbih ahuyi xütna
Maralda, ahuda yoxdu məlahəti həsəna
Desəm qəzalə çox oxşar gözəl cəmalından

Qəzal vəhşidi şərm eylərəm kəmalından
Basıbdı bağrına, vurdu hüzurda zanu
Müxatəb etdi o səs sahibini ki, ey banu
Bu mətləbə həkəm olsun səni, məni yaradan
Bu başın hörmətinə pərdəni götür aradan
Səsin qulağıma gəlir aşina xanım kimsən
Bu baş hara, sən hara, mən hara, xanım kimsən
Səni qəsəm verirəm Həqqə ki, kəşfi-raz eylə
Mühəqqər evdə məni sahib imtiyaz eylə
Cavab verdi ki, mən yadigari Tahayam
Bala dalınca çöllərdə rah peymayam
Az ömrümün səməri gözlərim ziyasıdı bu
İmam Həsən balamın nazənin balasıdı bu
Bunun böyük nənəsi, cəddə qaynanası mənəm
Qabırğaları sınan Fatimə anası mənəm
Eleyki, səs kəsilib, qayib oldu mənzərələr
Durub ayağa həmin orəti həmidə səyər
Oyatdı xabidən öz oğlun iztirabilən
Bəyan edibdi qəzayanı çox şitabilən
Dedi ki, Fatimənin bir işi düşübdü mənə

Mənim də indi əlacım oğlu qalıbdı sənə

Soruşdu neyləyim əlan bu suz-ahilən

Əlimdə əsləhə yox cəng edim sipahilən

Dedi ki, cəng eləmə, bax fəqət mənim sözümə

Gözünü yumgilən oğlum sataşmasın gözümə

Hüseyn yolunda oğul əgər olmasan sən əhli qərəz

Kəsib sənin başını eylərəm bu başa əvəz

Uzandı yerdə, yerə salmadı ana sözünü

Götürdü kardı ana tez oğul yumub gözünü

Kəsib oğul başını etdi kisədə pünhan

Apardı qoydu yerində gəlib sənaquyan

Nihan edəndə oğul nəşini o hamiyi həqq

Edib o başı bu başsız cənazəyə mülhəq

Səbah olub yenə ruzanə adətilə qoşun

Durub hamı yuxudan şoqi rəğbətilə qoşun

Çıxartdılar o başı gündəki başını yerinə

Atıblar göy misalı onu bir-birinə

Gülərdi gündə o baş ki, sitareyi fələkə

Yerə düşəndə görüblər üzünə düşdü ləkə

Əmirə vurdu bir od, şöleyi dili hasid

Belə xəyal eyləyibdi o baş olub fasid
Bir az qalır vətənə oldu dəsti-rənci hədər
İmamı öldürən əlbəttə dəsti xali gedər
Görübdü gərdişi gərduni əksi mətləbinə
Vurubdu bir ləgəd ol başə mindi mərkəbinə
Qoşun gedib eləki, oldu ərsəgəh xəlvət
Durub ayağa şitabilə ol xanım ovrət
Qazıbdı oğluna bir qəbr səbrilən hasil
Gedib gətirdi başın olmadı pərişan dil
Oğul başın eyləyəndə cənazəyə mülhəq
Edibdi möcüzəsin dəsti qüdrəti mütləq
Oğul durub ananın öpdü əl-ayağından
Sipas edib o gözəl möhtərəm qonağından
O başı dəfn eləyib əyləşiblə fariği bal
Oğul dedi ana, ey xoş nəsib, xoş iqbal
Buyur görüm hələ oldun bu gün riza məndən
Dedi olub hələ bir hacətim rəva səndən
Yenə varımdı bir ayrı sifarişimdə sənə
Gərək toxunmayasan xatiri İmam Həsənə
Toy etməyib bu cavan nisgilin itirməyəsən

Nə qədri mən sağam oğul gəlin gətirməyəsən

## Cənab Əbdullah (ə) (sinəzən)

İstərəm əmmə qoyam rəzmə qədəm tutma məni
Eşqə bax, sinnimə baxma belə kəm tutma məni

Əmimin gəldi səsi bir həyəcan getdi mənə
Fürsətim yox eləyəm halımı tərif sənə
Aridir qeyrət ovladi İmam Həsənə
Belə ki, Şimr qoyub ərşə qədəm tutma məni

Mane olma mənə sən əmmə uzaqdır səfərim
Sındırıb qəlbimi Qasim kəsilib balu-pərim
O çatıb məqsədə mən qalmışam ey taci sərim
O gedən şəhrə gərək mən də gedəm tutma məni

Bundan artıq nə rəva başı aşağa dolanam
Əmimin külfəti hər süfrə salanda utanam
Əmi də getdi daxi kimdi əlimdən tutanım
Sayəsiz qaldı səri-əhli-hərəm tutma məni

Bir uşaq ki, atanın görməyə dünyada üzün
Özgələr vəsf edə söz düşsə qaşın ya gözün
Can verərəm ta görə bir gün atanın şəxsən özün
İstərəm can çıxa cananı görəm tutma məni

Bax bu həsrətli baxan gözdən axan göz yaşıma
Başımın fikrini etmə, məni qoy özbaşıma
Görsədim qüdrəti eşqi atama, qardaşıma
Öz əmimdən eləyim dəfi sitəm tutma məni

Əlqərəz quş kimi əldən qotarıb şəhpər açıb
O belin bağladı mərgə anası məcər açıb
Gördü bülbül o gözəl sinə əcəb güllər açıb
Şimrə, amma dedi ey kinəşiyəm tutma məni

Ya göz aç bir başın üstən Həqqi Davərə bax
Ya utan bu ayağın altda gülü pərpərə bax
Busəgahi ləbi can pərvəri Peyğəmbərə bax
Ya su ver, ya çəkil, ey kani sitəm tutma məni

Gördün öz meylinə bu çərx eləyən gərdişi sən
Kimə xatir edisən bir belə nəngin işi sən
Evi viran, onu boşla məni öldür kişisən
Yolumu gözlür atam şahi üməm tutma məni

Özünü istədi atsın əminin sinəsinə
Nagəhan düşdü gözü cəncərin ayinəsinə
Bir qolun etdi sipər düşmən por kinəsinə
Şimr səsləndi qənimətdi bu dəm tutma məni

Mən gərək Fatimənin qəlbini naşad eləyəm
Toyların matəm edib fitnələr icad eləyəm
Boyarım gündə Bəni Haşimi bərbad eləyəm
Moizə eyləm ey əql, həkəm tutma məni

Baxmadı əql eləyən moizəyə Şimri dəni
Andırıb tiği kəsib şaxeyi sərvi Həsəni
Dedi oxşatdın əcəb öz əmim Əbbasa məni
Vur bu birsi qolu da eylə qələm tutma məni

Basdı qolsuz balanı bağrına Zəhra balası
Ərzi qıldı əmi qol düşdü sızıldar yarası
Ax o Əbbas əmimin sinəmə gəlsin qadası
İndi bildim nə edib ol kani kərəm tutma məni

Məni qaytar anama xeymədə görsün yaramı
Öldürür kufəlilər meydanda adamsız adamı
Həmneşin eylədim Əbbas anasıylan anamı
İki qəmdən olacaq qaməti xəm tutma məni

Balaya sinədə istirdi ola hafiz əmi
Ruhu bir şəhqə çalıb səslədi ya hafiz əmi
Gördü qeyb aləmin ərz eydi xudahafiz əmi
Boşla gəldi atam, istəkli nənəm tutma məni

# Həzrət Abbas (ə) (cuşi)

Əla ey çəpgərayani siyasi
Bizə çəp baxmağın var çəp cəzası
Əbulfəzl hər xəbisə sili vursa

Qaraldar surətin gəlməz sədası

Əgərçi zahirən qolsuzdu Səqqa
Mürüvvətdə naziri yoxdu amma
Səxada əbridir bəxşəndə dərya
Çağırsa kim buyurmaz la o mövla
Əl açsa naümid olmaz gədası
Təvazölən gəlib gərdən fərazan
Öpəllər asitanın lərzi lərzan
Pərişan çün qəriban əşgrizan
Düşəllər topraqa oftan -o- xizan
Edəllər ərzi halu iltiması
Ziyarət qəsdinə şahlar gələndə
Əvvəl tacın qoyardı kəfşkəndə
Düşərdi məntiqi quyası bəndə
Özünü oxşadardı dərdiməndə
Sınıq ney tək sızıldardı nəvası
Nijadi Haşimin tabəndə mahı
Köməksiz padişahın sərsipahı
Pənahəndə ona aləm pənahı

Yaman gündə Hüseynin təkyəgahı

Ucalsa harda bir məzlumun ahı

Olar hər binəvanın dadixahı

Uzun qollar iki adil güvahı

Həya eylər görə ətfali şahı

Odur düşmüş uzaqda barigahı

Olaydı qan Fərati rusiyahı

Xəcalət etdi şiri sərşünası

Ağa, ey mahi bihəmta Əbülfəzl

Pənahi itrəti Zəhra, Əbülfəzl

Suyu yox şöhrəti Səqqa Əbülfəzl

Qapında sailik mövla Əbülfəzl

Gedayə sən deməzsən la Əbülfəzl

Səni səslənsə hər tərsa Əbülfəzl

Gedərsən dadə bərqasa Əbülfəzl

Edər məcərlərin qoğa Əbülfəzl

Olar düşmənlərin rüsva Əbülfəzl

Adın qurbanı ollam ya Əbülfəzl

Dolandır gözlərin Allah rizası

Görüb şəh ruzi Aşura başında

Sipahi eşq edir şura başında

Gəlib qan cuşə çün dərya başında

Edəndə həlhələ əda başında

Nə gördü bilməm Zəhra başında

Baş açdı dildə vaveyla başında

Sənə süd etdi bu sevda başında

Mübarək taci kərrəmna başında

Gedib qol, iş qalıb tənha başında

Ola ey kaş, üz qoğa başında

Ürəkdə olmaya bir dil yarası

Edə bir cilvə ta canan gözündə

Keçib min leyleyi-hicrin gözündə

Çəkib qan pərdeyi əlvan gözündə

Görübsən masəvanı qan gözündə

Olub zülmətkədə meydan gözündə

Susuzlar hey veriblər san gözündə

Axır məşgin suyu hər an gözündə

Çağırdın əşgilə canan gözündə

Gəlincə əyləşib peykan gözündə

Minlərlə dərdə var dərman gözündə

Qayıtmaz qan dolan gözlər duası
Görülmüş çox kəramət əllərindən
Açılmış babi hacət əllərindən
Edib Cəfər ziyarət əllərindən
Görüb Həmzə məharət əllərindən
Edər Zəhra kifayət əllərindən
Əzadarə şəfaət əllərindən
Öpər əhli iradət əllərindən
Alallar feyzi rəhmət əllərindən
Olub dinə himayət əllərindən
Öpüb şahi vilayət əllərindən
Dedi bu əllərin olam fədası
Səni verrik qəsəm Pərvərdigarə
Dili porşur və çeşmi əşgibarə
Mücahid nocəvan və piri zarə
Zənani bahicab və xanədarə
Cavanani əfif və tövbəkarə
Pərişan madəri şəb zindədarə
Hərasan tifli zar və şirixarə
O qanlı gözlərinlə qıl nəzarə

Əlac eylə mərizə, qərzdarə
Sənə mümkündü hər dərdin dəvası

# Həzrət Əbəlfəz (ə) (cuşi)

Ey dəsti dilrübası müşkülqoşa Əbəlfəz
Dəsti girehqoşayə canlar fəda Əbəlfəz

Bizlər hər il quranda təşti əza çağırrıq
Qara geyib dollannıq sübhu-məsa çağırrıq
Hər dərdə ki, tapılmaz qəti dəva çağırrıq
Yəbnəl-Həsən özün gör hardan-hara çağırrıq
Biz dərdiməndi miskin, sahib əta Əbəlfəz

Əbbasi bavəfadır əvvəldən əsil adı
Əşhər küniyyəsindən Əbulfəzl məhliqadı
Əlqabı Əbdi-Saleh, Əlmüstəcar və Fadi
Həm Zeyğəm və Məvasi, həm sahibi livadı
Səqqadı, Babi Hacət, Bəhri Səxa Əbəlfəz

Mətlubi tacdaran, sədri səfi nəali

Məqsudi şəhriyaran, cudi kəfi nəvali
Rədd olmayıb dilindən heç sailin sualı
Sidqən əl açsan etməz məyus və dəstixali
Hər dərdin olsa qorxma eylər dəva Əbəlfəz

Türkani azəridə bir iddeyi qəlili
Yad eylər and içəndə bir mahi bibədili
Olsun qəsəm o şəxsə möcüzdə vurdu sili
Ecazilən çırağan etdi o Ərdəbili
Bir binəva demişdi sidqilə ya Əbəlfəz

Ey dərdiməndi miskin gəl səndə gahigahi
Etsin sənə müdava bu aləmin pənahı
Rizqi gəda azatmaz məcmuyi gənci şahi
Kuhi səxavətindən kafidi pərri kahi
Rəhmət yağar səmadan etsə dua Əbəlfəz

Bir şairi ərəb ki, vermiş məsəl setizə
Yazmış Bəni Kilabi bazigərani nizə
Kimlər müqabil olsa, yoxdur məhəl qorizə

Fərqində yer verər tez şəmşiri zəhri xizə
Çeşmi Bəni Kilabə nuru-ziya Əbəlfəz

Dəvada Mürtəzatək hər yerdə görsənərdi
Şəmşiri həmzaman bərqi bəla enərdi
Başlar havada guya əl-ğovs səslənərdi
Zeynəb qanad açardı, qızlar həvəslənərdi
Hərdəm ki, səslənərdi ya Mürtaza, Əbəlfəz

Amma eşit bir az da mehrabi taətindən
Xalis ibadətindən, ziba tilavətindən
Vazehdi Əbdi-Saleh misdaqi heybətindən
Atdan düşəndə hətta səcdə məhəbbətindən
Düşdü üz üstə etsin Həqqə səna Əbəlfəz

Amma kəramətindən kafidi bir hekayət
Ümmül-Bənin evində bərpa edib qiyamət
Bayram günü yetişdi bir şəxsi bihüviyyət
Fikr etdilər gətirmiş Əbbasa ərzi hacət
Səsləndi aşinalar va həsrəta Əbəlfəz

Durdu təhiyyə görsün forən oğul anası
Bir qədri mali dünya, bir müxtəsər libası
Qaytardı sail amma ərşə çıxıb nəvası
Sən get xanım xəbər ver, gəlsin evin ağası
Hər kim eşitdi birdən səsləndi va Əbəlfəz

Sail dedi: keçən il lütfü müfəssəlindən
Verdi ağam ətaya dəsti mücəlləlindən
Sərmayəm aşdı-daşdı iş döndü əvvəlindən
Qurbanı olam indi gəlsin öpüm əlindən
Birdən dedi kənizlər ey vay ağa Əbəlfəz

Ümmül-Bənin tutuldu qəlbi mükəddərindən
Aldı qucağa oğlun hey öpdü gözlərindən
Bir bax dedi bu tiflə əzayi peykərindən
Əbbasa bənzər olsa, öp xırda əllərindən
Eylə məhəbbət olsun, səndən riza Əbəlfəz

# Həzrət Əbəlfəzin (ə) Ərdəbildə baş vermiş məşhur möcüzəsi

Müddəi sən belə fikr etmə rəvayət yazıram

Şahid zindədi bu eyni dirayət yazıram

Nəqli qol eyləmərəm, məclisi qoftarından

Ta sözüm rədd ola hər münkərin inkarından

Ərdəbil şəhrimizin şöhrəti möcüzdəndi

Kuçeyi Möcüz onun mötəbər əxbarından

Görsənib vaqiə quldur Rzaxan əsrində

Kərbəla şahının o qolsuz ələmdarından

Gəlib at tutmağa guya iki məmur polis

Hamı narahat olub dövlətin ixtarından

Döydülər bir qapını bivə bir orət çıxdı

Rəngi qaçdı, oların heybəti rüxsarından

Dedilər burda bir at var onu ver biz aparaq

Dövlət agahdı hər kuçənin amarından

Orətin gözləri doldu dedi insaf eləyin

Dörd səğirin utanın Xaliqi Qəhharından

Sahibim yoxdu, bu ətfalə kəfiləm mən özüm

Gözlərəm ac-susuzundan, təni bimarından

Bir bu heyvandı bizdə mayeyi ümid və məaş
Müxtəsər vəch alırıq hasileyi karindən
Gözümün bu qapıdan həzrət Əbbas görə
Qorxun oftadələrin yaru-mədədkarından
Heyf Əbəlfəzlin adından dedi ol namərdə
Etina etmədi tutdu atın əfsarından
Yalvarıb hər nə qədər ağladı, tutdu ətəyin
Gəlmədi rəhmə onun ahi-dili-zarından
Dedi neylim səni tapşırdım o qolsuz ağama
Get cavabın verə öz tiği şərbarından
Atı çəkdi apara açdı o dəm nəhs ağzın
Çıxdı bir söz dəhəni fasiq -o- murdarından
Dedi: Əbbasə de məndən gəlib alsın atını
Qaynadı qəhri Xuda çeşmeyi qəhharından
Maridin nizəsini əldən alan barmaqlar
Vurdu bir sili düşüb mərkəbi rəhvarından
Qaralıb rəngi üfunət götürüb, şişdi bədən
Eşidən qaçdı yəqin eyləyə didarından
Dəstgah istədi pərdə çəkə bu ecazə
Dəsti həqq pərdəni rədd eylədi əsrarından

Lənətullahı yuyub qoydular bir tabuta

Düşmənin xalq qəzəbləndi bu rəftarından

Eşidib müctəhidi vəqt oların mənzurun

Gəldi narahat olub düşmənin əfkarından

Çəkdi tabutidən atdı o səgi murdarı

İp çəkib gərdəninə pənbeyi kirdarından

Gecə-gündüz neçə gün şəhər çırağan oldu

Asılıb pərdə şəmayil dəru-divarından

Ərdəbil şəhrini bu möcüzə məşhur etdi

Dillərə düşdü adı möcüzün asarından

Təkyələrdə oxunub mərsiyə, şer, sürud

Ərşə ovc eylədu Quran səsi bazarından

Rəsm olub indi də çox yerdə qəsəm yad eləyən

Yad edər sili vuran dəsti vəfadarından

Deyər and olsun həmən şəxsə çırağan etdi

Ərdəbil şəhrini öz himməti sərşarından

# Qəməri Bəni Haşimin (ə) xüsusiyyəti və Müvəhhidlər Mövlasının (ə) onunla rəftarı (uşaqlıq illəri)

Şahi-şəcani-ərəb Heydəri-Kərrar oğlu
Mahi gərduni ədəb höccəti dadar oğlu
Adı Əbbasdı, əlqabı adından da gözəl
Əbdi-Salehdi, Əbülfəzlidi, Kərrar oğlu
Ali-haşim qəməri, nəxli şücaət səməri
Fatimə gözlərinin nuru vəfadar oğlu
Qəlbi kabinədə on yeddi böyük mənsəbi var
Saqiyi Kosərin heybətli ələmdar oğlu
Can bekəf, hafizi heysiyyət və namusi hərəm
Atası Heydərə bənzər bu fədakar oğlu
Elə öyrənmişidi düşmənə verməzdi aman
Əmisi Həmzə kimi saiqə rəftar oğlu
Şir tək həmlə edərdi diyəsən bərqi şaxar
Od tökər sahibi şəmşir şərərbar oğlu
Olmasa mane əgər ləm yəlid və ləm yuləd
Görən Əbbasa deyər xaliqi qəhhar oğlu
Ali-Haşim nəməki, Ümmül-Bəninin əməyi
Ələvi tərbiyəti, Haşimi ətvar oğlu
Mürtəzanın balası, doqquz imamın əmisi
Atadan irs aparıb, nadirə qoftar oğlu

Dizi üstə atanın bir gün uşaq vəqtində
Oturub eyləyə öz eşqini izhar oğlu
İmtahan etdi balanı görə az sinnində
Əqlu-huşunda gəlib rüşdə nə miqdar oğlu
Ləblərin öpdü buyurdu vələdi, qul vahid
Kəlmeyi vahidi tez eylədi iqrar oğlu
Sonra fərmayiş edib: bir dedin indi iki de
Dinmədi sakit olub sərvəri əhrar oğlu
Onu çox silkələyib, naz eylədi, gətdi dilə
Gül töküb, gül dodağından gülə oxşar oğlu
Dedi bir dil ki, baba bir dedi, gəlməz ikiyə
Şirkə iqrar eləməz Heydəri Kərrar oğlu
Birdi Allah, ürəyim verməz iki eşqə məkan
Sanəvi eşqi Əlinin edər inkar oğlu
Hara getsəm ikini mən birə qurban verrəm
Mürtəzanın bilələr etdi nə isar oğlu
Əlqərəz rüşdu-nümüvv etdi bu minvalilə
Tərbiyəti xaneyi Zəhrada sipəhdar oğlu
Verdi zimni inki onun pərvərişin Ümmü Bənin
Gördü ev Fatimənindir şəhi əbrar oğlu

Özünü Fatiməyə bildi nəməkpərvərdə

Fatimə həqqin əda etdi nəməkxar oğlu

Görməyincə özünü oğluna qardaş demədi

Seyyidi, səslədi qardaşına huşyar oğlu

Gəldi torpağa at üstən təyəran halda

Fatimə gördü olub Cəfəri Təyyar oğlu

Tez açıb qolların ağuşə alıb qoydu yerə

Dedi ey Fatimənin həqqə tərəfdar oğlu

Üzün ağ olsun oğul yaxşı ucaltdın başımı

Ananı qəm bürüyəndə olur qəmxar oğlu

Sən mənim oğlumu tək qoymadın Allaha görə

Səni xar olmayasan sən ey gülü bixar oğlu

Dəfətən Fatimənin oldu duası məqbul

Gəldi imdada Əbəlfəzlə o biyar oğlu

Gördü qardaş baş açıqdı, əl atıb öz başına

Götürüb əmmaməsini seyyidi əxyar oğlu

Əyləşib qoydu diz üstə o yaralı başı

Ərşə fəxr etdi Əlinin yenə fəxxar oğlu

Bilmirəm gözlərinin sildi birin, ya ikisin

Dedi aç gözlərin ey kaşifi əsrar oğlu

Göz açanmırdı bir az qozadı kipriklərini
Şahi gördü o Nəcəf şahının həmyar oğlu
Dedi həmd eylərəm Allaha ucaltdın başımı
Çatdım amalıma ey Əhmədi Muxtar oğlu
Bir başı ki, dizin üstündə verir can nə qəmi
Nə alan qeyridi, nə can verən əğyar oğlu
Bu anam Fatimənin xeyir-duasıdı mənə
Səri naqabilimə oldu xəridar oğlu
Kaş ola yüz belə ləşgər hey ölüb, hey deyərəm
Onda məlum ola Kərrarilə, fərrar oğlu
Ey gülü Fatimə, mən xar idim izzət verdin
Əhli insaf idin az xidmətə qiymət verdin
Sındırıb şənin əyildin yerə, götürdün qolumu
Aciz əldən yapışıb, şənu-şərafət verdin
Müddətidi ki, bu əlsiz baş açıq qalmışdı
Başıma sayə salıb qəlbimə qüvvət verdin
Topraq üstən götürüb başımı aldın dizinə
Yenə sənsən bu sınıq gohərə qiymət verdin
Bu idi nəzrim at üstən üzü üstə yıxılam
Səcdeyi şükr eləyəm, ölməyə rüxsət verdin

Elə cananə çalışdım ki, bir az su gətirəm
Təllidən fikr edirəm cəngimə diqqət verdin
Qaçanı qovmadım amma suyu təqib elədim
Dedim ey su özünə sən necə cürət verdin
Zəmzəm övladı yanır sən belə nəm-nəm axısan
Zalıma olma sükutunla rizayət verdin
Tutulub doldu buludtək quruyan məşgimə su
Deyəsən dərk elədi hər nə əlamət verdin
Dedim ey su, belə əlan ki, buludtək doldun
Olmaya ağlamağa rəmzu-işarət verdin
Qurxuram çün suyu əvvəldə könülsüz gördüm
Su deyil daşdı kəənnəhu ki, nəsihət verdin
Mən də fəxr eyləmirəm içməmişəm su sənsiz
Fəxr sənləndi, mənə dərsi mürüvvət verdin
Çox şitabilə sudan çıxdım edəm əzmi xiyam
Dedim Allah mənə Sən vədeyi nüsrət verdin
Kömək eylə yetirim mən bu suyu ətfala
Sora təsliməm əgər hər qəmu-möhnət verdin
Qəlbimə gəldi bu söz sal yolu nəxlistana
Bəlkə su məşgini ətfala səlamət verdin

Bilmədim söz vəli hər yerdə qəzanın sözüdür
Bildiyin eylər o, sən məğzinə zəhmət verdin
Mən dəyişdim yolumu, kəsdi ədu sağ-solumu
Məşgə ox dəydi dedim ömrümə afət verdin
Sındı qəlbim ox atan kaş kamanın sınsın
Bu oxa sən nə əcəb dərsi xəyanət verdin
Vur bur ox da ürəyimdən yıxılım topraqa
Sənki öz ruhuna təlimi cinayət verdin
Nə suyum qaldı gedim xeyməyə, nə qollarım
Bir oxilan mənə bir ömür xəcalət verdin
İndi qardaş gözünə çəkmirəm öz xidmətimi
Neylirəm bundan əlavə mənə rütbət verdin
Başımın ərz elədim cümlə qəza və qədərin
Bəlkə sən teşnələrə şərhi hekayət verdin
Qoyma su üstə gileylik edə məndən balalar
Deyələr sən ki, əmi qoli sədaqət verdin
Mənim əlbəttə dilimcə elə dəvət be sükut
Oları səbrə Hüseyn bəlkə sən adət verdin
Denən öz vədimin üstüdə iki qol getdi
Deməsinlər suya kəm vəchi zəmanət verdin

İki qol ki, ola bir məşk suyun təzmini
Kim deyər kəmdi, odur ki, suya babət verdin
Mən bu sevdada iki gözlərimi göz qoydum
Ox dedi bir gözün eylərdi kifayət verdin
Nə qolum oldu xülasə, nə gözüm gördü yolu
Dedim ey şah gəl al, hər nə əmanət verdin

# Amannamə (sinəzən)

İnsan düşə hər surətə vicdan əvəz olmaz
Vicdanı olan bağlasa peyman əvəz olmaz

Vicdan yoxudu kufəli əhli qərəz oldu
Boş vədələrə döndü məhəbbət mərəz oldu
Beyət eləyəndən sora millət əvəz oldu
Min ildi vəli millət İran əvəz olmaz

Əlbəttə gərək fəxr eləyə milləti İran
Damadıdı bu məmləkətə şahi şəhidan
Hər il çıxacaq ərşə Hüseyn vay, Hüseyncan

Qan ağlayacaq dideyi-giryan əvəz olmaz

İllərdi Hüseynə ki, bizim beyətimiz var
Sındırmamışıq biyəti çün qeyrətimiz var
Əlan da qara köynəyilən ülfətimiz var
Bu məmləkəti şiədi peyman əvəz olmaz

Ey kufəlilər sizdə olan cəhli qərizi
Məğzizdən alıb qüdrəti təşxisu-təmizi
Hind oğluna beyət edə Zəhranın əzizi
Bilməm niyə bu gərdişi dovran əvəz olmaz

Beyət eləyən rişteyi əhdi belə qurmaz
Kafir qonağın başını sərnizəyə vurmaz
Ox atmaq ilən həqq danışan sakit oturmaz
Daş vurmaq ilən natiqi Quran əvəz olmaz

Dəvət elədiz şəhrə imam oğlu imamı
Qoyduz qabağa pəst zinazadə qulamı
Şəhrizdə Hüseyn xar, Yezid oldu girami?

Amma daşilan ləni bədəxşan əvəz olmaz

Ey kufəlilər var bu Yezidin nə vafası
Beş günlük olar cirəsi, ənamı, libası
Vardır oların mülki Hüseynində duası
Simu-zərə Allah verən ünvan əvəz olmaz

Nokər qocalıb olmasa gər xidmətə qadir
Şah eyləyəcək baznişəst hökmünü sadir
Şah olsa Hüseyn, nokər Həbib ibni Məzahir
Şahın qapısında qoca dərban əvəz olmaz

Şimr onda ki, məkr ilə vafa rəddin itirdi
Fikr etmədi qorxan var özün təllə yetirdi
Abbası ögey bildi amannamə gətirdi
Rubah sözünə bilmədi aslan əvəz olmaz

# Amannamə hadisəsi (sinəzən)

Əbbas ola gər aləmə sultan əvəz olmaz

Hər kimdə ki, var qeyrət-o-vicdan, əvəz olmaz

Olmadı deyən Şimrə ki, ey kəlbi übeydi
Əbbas, Əli oğludu, nə talibi Reydi
Qardaşını movla çağıran bilməz ögeydi
Düzdü anadan ayrıdılar, qan əvəz olmaz

Əbbasa verəndə o zinazadə nəsihət
Fərmayiş edib sakit ol, ey kani şəqavət
Zay eləyib əqlini təhsili riyasət
Rey vədəsinə sahibi iman əvəz olmaz

Min can mənə gər bəzl eyləyə Xaliqi Subhan
Min canımı verrəm elə bir qardaşa qurban
Əkbər telinin hər tükü min Yusifi Kənan
Hər kipriyi min huri -o- qılman əvəz olmaz

Şahın bu yaman gündə qəvi ləşgəriyəm mən
Öz qardaşımın arxasıyam, yavəriyəm mən
Yəsribdə yanan bir qapının nokəriyəm mən

Hər təxtəsi min təxti Süleyman əvəz olmaz

Sərləşgəriyəm bu gecə sərbaz yerində
Verrəm keşiyin aşiqi canbaz yerində
Asudə yatışsın balalar naz yerində
Sübhə kimi bu evdə nigəhban əvəz olmaz

Get ləni Həqq ol xamiyə yazdı belə namə
Öldürrəm əgər sözlərinə versən idamə
İndi nə üz ilən qayıdım səmti xiyamə
Qızlar nə bilir farisi şəcan əvəz olmaz

Bilsə bala qızlar salacaq aləm ara şur
İstəkli Rüqəyyəm olacaq xatiri rəncur
Məcburam edəm Əkbəri bu mətləbə məmur
Əkbər deyə əlbəttə əmican əvəz olmaz

Hərçənd o namə təbəqi batilə düşdü
Amma yenə də xeymələrə vəlvələ düşdü
Əbbas gəlincə sözü dildən-dilə düşdü

Bilmillər vəli ol məhi taban əvəz olmaz

Gəldi qərəz öz xeyməsinə mahi dilara
Qardaşlarını başa yığıb eylədi nəcva
Eylir bacılar aqibəti əmrə tamaşa
Qorxur hamı tək Zeynəbi nalan əvəz olmaz

Zeynəb dedi bu mətləbi asan sanıram mən
Getməz, vəli getsə hamıdan çox yanaram mən
Tək qoymaz Hüseyni, onu çoxdan tanıram mən
Canım o uzun əllərə qurban əvəz olmaz

Qardaşları başında çıxıb xeyməsəradan
Xəcalət təri alnından axır şərmu-həyadan
Dörd əl yapışıb daməni şahi şühədadan
Ərz eylədilər əldəki daman əvəz olmaz

Ətrafidə hər kim var idi rəngi pozuldu
Əşgilə tamaşaçıların gözləri doldu
Durdu əvvəl Əbbas və Hüseyn qol-boyun oldu

Ərz etdi ağa adəti xuban əvəz olmaz

Bir əl ki, onu aldı ələ şahi vilayət
Verdi əl-ələ qardaşı qardaşa əmanət
Ayrılmaz o əllər belə gün bir belə saət
Can üstə atam yazdığı fərman əvəz olmaz

# Həzrət Əbəlfəzin (ə) amannaməyə münasibəti (sinəzən)

Bipənaham qovma qardaş babi hacətdən məni
Baisi xar olsun öldürdü xəcalətdən məni

Kufədən düzdü aman yazmış mənə ümmali-Şam
Mən vəli ölsəm, qocalsam asitanəndə xoşam
Fatimə süd verməyib amma duzundan dadmışam
Kəmtərəm əlbəttə kəm bilmə iradətdən məni

Mən tüfeyli dərgəhəm müddətdi ey miri hərəm
Bilmərəm sərbazi sıfram, ya əmiri ləşgərəm

İzzətim sənsən Hüseyn, mən bir ovuc xakistərəm
Ver şəhadət müjdəsin qurtar həlakətdən məni

Eylirəm əlan otuz dörd ildi rahət zindəgi
Ömr olub asudəlikdən baisi şərməndəgi
Olmasa gər səcdəgahımda nişani bəndəgi
Sahibim aya tanır hansı əlamətdən məni

Nuh tufanilə dönməz şahrahımdan üzüm
Ayrıla başım dolanmaz zərrə şahımdan üzüm
Taətim batildi dönsə qibləgahimdən üzüm
Mən edənməz heç həvadis bu səadətdən məni

İndi bir rəftar ilə Abbasa düşmən gəlməsin
Adımı Ümmül-Bənin öz xatirindən silməsin
Bu sözü sən bil anan səy elə Zeynəb bilməsin
Söz bilinsə sındırar şənu-sədaqətdən məni

Olmağa ümmü səbəbdən Şimrilən həmsayə mən
Bir kəzayi nisbət ilə düşmüşəm qoğayə mən

Kaş anam doğmaydı, gəlməydim belə dünyaya mən
Şimri dun xar etməyəydi bu qərabətdən məni

Düzdü Zəhra oğlusan sən, şəninin rüchanı var
Nisbəti Ümmül-Bənin, Zəhraya çox nöqsanı var
Tibqi qanuni vərasət məndə Heydər qanı var
Bir ögeylik tərd edənməz bu vərasətdən məni

And ola bu teşnə qızlardan xəcalət canıma
And ola batində fəryad eyləyən vicdanıma
Əsğərin ahıyca qiymət bilmərəm öz qanıma
Öldürür hər ahı min dəfə xəcalətdən məni

İndi movlacan, əgər bir əbdi biazarınam
Bu uzun qollar, uca qamətlə pərçəmdarınam
Satma, satsan ver su al, sərmayeyi sərşarınam
Bax bu baş, bu qol qəni qıl bu ticarətdən məni

Mən zərərdən qaçmaram, çün ba hədəf İslamıyam
Məktəbi Quranda sərdar şəhir və namiyəm

Sağ qolum düşsə, solumdan dini həqqə hamiyəm
Sol da düşsə mən edənməz bu himayətdən məni

Çəkməz əl heç əbdi saleh seyyidi əhrardan
Gər qapıdan qovsa movlası gələr divardan
Satmağa çəksə qaçar bir baş evə bazardan
Ərz edər rədd eylisən hansı xəyanətdən məni

Su deyən vəqtə Rüqəyyən od tutur qəlbim yanır
Məşgə baxdıqca edir bir söz qəlbimdən xütur
Kaş ola su üstə gözdən keçməyən səqqanı kor
Ox inanmır imtahan etsin bu babətdən məni

Əzqəza sübh oldu çün başlandı Aşura sözü
Su yalançı oldu, ox bəd əhd, söz Səqqa sözü
Ox su məşgin göz-göz etdi, qaldı bir şəhla gözü
Ey qələm məzur tut şərhi hekayətdən məni

Ah, o saətdən üzüldü hər tərəfdən çarəsi
Eylədi tari ümidin parə məşgin parəsi

Məşgdən su axdı, üç yerdən də qan fəvvarəsi
Ah çəkdi səslədi, su saldı taqətdən məni

Olsa hər tərsu müqabil pəncəsiz bir şir ilən
Pəncəsiz şiri nə lazım öldürə şəmşir ilən
Bəsdi bir dil yarəsi oxdan betər təsir ilən
Oxdan artıq düşmən öldürdü şəmatətdən məni

Ey cəmaət sizdə yox rəsmu-rəhi mərdanəlik
Vurmağa bir qolsuzu hökm eyləmir fərzanəlik
Bir nəfər öldürməyə axər bu nə divanəlik
Şadlığız, əl çalmağız salmaz şəhamətdən məni

Əl çəkin bir əlsizəm, mən yalqız, ətrafım dolu
Rədd olun ləşgər yolumdan, nə tutubsuz sağ-solu
Ox atan əllər şil olsun, gözlərim görmür yolu
Eyləyib aciz belə hifzu-hərasətdən məni

Mən bu minval ölməyə Həqdən bəşarət almışam
Pərçəmim ləngər edir, mən yoxsa möhkəm qalmışam

Əyləşib bir dağ kimin zeyn üstə ləngər salmışam
Salmayıb bu saldığız qollar səlabətdən məni

Siz məni aciz görürsüz ey güruhi kin şüar
Şirə cürət tapmısız əlan varız qəsdi şikar
Gözlərim görsə gözüzdə eylərəm dünyanı tar
Heyf görmür gözlərim salmış rəşadətdən məni

İzn versəydi mənə sultani mülki irtiza
Bildirərdim kimdi fərzəndi Əliyyul-Mürtəza
Bağladı qollarımı şah olmadı cəngə riza
Sərvərim saldı yerə ovci şücaətdən məni

Əl tapanmazsız mənə bica edirsiz həlhələ
Əlsiz olsam da bu başı vermərəm hərgiz ələ
Siz əgər baş istəsəz səbr eyləyin şahım gələ
Kəbətək sirab edə feyzi ziyarətdən məni

# Həzrət Əbəlfəz (ə) (rəcəz)

Fərzəndi namdari Heydərəm mən
Heydər kimi Kərrari Səfdərəm mən
Cəng etməyə şahım icazə versə
On min səvarə tək bərabərəm mən

Sizdə nə qədri var xətayi didə
Daş qəlbizə ruh olmayıb dəmidə
Əmiri möminan dediz Yezidə
Hər yerdə həqqə yaru-yavərəm mən

Yezid alıb əlizdən ixtiyarız
Cəllad olub əmir və tacidarız
Zor və sitəm məhv eləyib etibarız
Gəlin dalımca həqqə rəhbərəm mən

Biyət sözün mənlən danışmayın siz
Firiştə, divə biyət etməz hərgiz
Yolun əyənlərə baş əymərik biz
Düz yol gedən Hüseynə nokərəm mən

Peyğəmbər oğlu beyət altda getməz
Azadələr tağuta beyət etməz
Heç səltənət zülmilə başa yetməz
Cəng etməmiş nəsihət eylərəm mən

Qan çıxsa sinəbəndi mərkəbimdən
Əl çəkmərəm tohidi məktəbimdən
Ayrılmaram Hüseyndən, Zeynəbimdən
And içmişəm vəfalı əfsərəm mən

Divari ahənin də olsa hayil
Mən gəlmişəm olam Fərata daxil
Ümidilən məşg etmişəm həmayil
Heyhat məşgi xalı qaytaram mən

Dərk eylədim Rüqəyyəmin gözündən
Qəşş eyləyib Əsgər gedib özündən
Ürək sözün seçdim şirin sözündən
Yəni ki, nagiran Əsğərəm mən

Dedim qızım get söz ver Rübabə
Əlan su allam Ali-Bu Turabə
Gəlin qoyar böyük qaynın hesaba
Yaxşı tanır düzgün dilavərəm mən

And olsun öz nizami vicdanıma
Ayinimə, dinimə, Quranıma
Su vurmaram bu ləbi ətşanıma
Cənnətdə də Hüseyni gözlərəm mən

Gəlinlərə ayaq açdı hesabı
Anam qonaq çağırmayaıb Rübabı
Ləbaləb eyləsəm bu məşgi abi
Su içməyə Rübabı səslərəm mən

# Həzrət Abbasın (ə) su gətirməyə getməsi (cuşi)

Qalxıb rikabımdan öpüb yalvarsa dərya içmərəm
Dünya suyundan içməsə övladi-Zəhra içmərəm

Yol üstə bica durmayın, mən Mürtəza dilbəndiyəm
Səf çəkmyəin, yol kəsməyin, şiri-Xuda fərzəndiyəm

Bir iddə ətşan qızlara söz vermişəm, şərməndəyəm
Yoxdur sədaqətdə mənim qolumda əmma, içmərəm

Eynul-həyata çatmağa məndən pərişandır bu su
İbrət gözüylə baxsalar qəlbim kimi qandır bu su
Namərdilər, ox atmayın çox dərdə dərmandır bu su
Şeş mahə Əsğər içməsə qıllam tamaşa, içmərəm

Mən hər necə ətşan olam, səbri cəmilim var mənim
Yorğun, susuz qızlar ilə rəncur əlilim var mənim
Xeymədə əlan bir bölük ətşan dəxilim var mənim
Babül-həvaic mənsəbim, adımdı səqqa, içmərəm

Yazdır amannamə çəkəm əl höccəti dadaridən
Mən bisəbəb əl çəkmərəm bu seyyidi- əhraridən
Qovsa qapısından məni gəlləm yenə divaridən
Mövladı, əmr etsə əgər, cürə su hətta içmərəm

Tənha Fəratın səmtinə möhr oldu məmuriyyətim
Xatir susuzlar xatiri su oldu əla niyyətim
Siz bari namərd olmayın məşgimdədir heysiyyətim
Xatirlərə mən verməsəm əlan təsəlli, içmərəm

Sizdə şərafət var əgər əlan verin qoli- şərəf
Fövrən zirəbəndin açım, sinəm sizə olsun hədəf
Şərti-mürüvvətdən çıxıb ox atmayın məşgə tərəf
Su axsa gər bu gözlərim həsrətlə baxsa, içmərəm

Qəlbizdə rəhm asarı yox, ey qövmi-bipərva, sizin
Pərdə çəkib rüxsarıza sər pəncəyi-dünya sizin
Bir məşgi mən doldurmuşam nəhr -o- şət -o- dərya sizin
Məndən hərasan olmayın, su heyni dəva içmərəm

Ey Kufiyan, fikr etməyin şiri cərahət öldürür
Cəng etməyə qol bağlıdır, Əbbası qeyrət öldürür
Siz də məni öldürməsəz, şərmü-xəcalət öldürür
Cami-şəhadət məstiyəm, şəhdi-müsəffa içmərəm

Mən xeymələrdən ayrılan saətdə çün ruhi-rəvan

Birdən qəfadan səslədi öz nökərin şahi-cahan

Bir məhrəmanə söz dedi, Zeynəbdən oldum nagiran

Aşüftə etdi fikrimi dilbəndi-Zəhra, içmərəm

Süst eylədi qollarımı öz şahımın bu mətləbi

Dərs öyrədib Əbbasına manəndi-tifli-məktəbi

Şam əhlini öldürmə çox, yolda döyəllər Zeynəbi

Əlan giriftar olmuşam, su eylər iza, içmərəm

# İmam Hüseynin həzrət Əbəlfəzlin (ə) başı üzərinə getməsi (sinəzən)

Dolanır kənari-Fəratidə, tapa bir yaralı-yaralını

Görə qardaşın tökə göz yaşın, oyada vəfalı yaralını

Bacısından istədi mərkəbi, səsini alanda vəzirinin

Qədəmin rikaba qoyanda şəh, ələmin görərdi əmirinin,

Yıxılıb gedincə ələm yerə, itiribdi rəddini şirinin

Nə o qanlı pərçəmini görər, nə də məşgi xali yaralını

Nə qədər ki, səslir əxa, əxa, eşidə dübarə sədasını
Kömək istir aləmi-qeybidən, çağırır haraya anasını
Anacan Hüseyninə əl yetir, gülünün pozublar səfasını
Əyilib belim baxıram yerə, tapam ol vəfalı yaralını

Kömək etdi Fatimə nagəhan, tapıb inkisarilə qardaşın
İki qol, yol üstə görüb əvvəl, ələyib üzarına göz yaşən
Dalısıyca hey dolanıb tapa, kəsik əllərin yaralı başın
Nə görüb o qollarillən bir az , yıxılıb aralı yaralını

Götürübdü başdan əmaməsin, dedi ey hümayi şərəf danış
Görürəm bir az rəməqin qalır, eyləmə bu vəqti tələf, danış
Bilirəm dalınca anam gəlib, aparır behiştə tərəf, danış
Çağırar cinanə cihadidən, bəli zülcəlalı yaralını

Bu da fəzl həqdi ki, istədi, çıxa yaddan Əkbərimin qəmi
Elə yanmadım qəmi-Əkbərə, bu qəm ilə dağladı sinəmi
Dur ayağa xeyməyə bir gedək, gözü yolda qoyma Səkinəmi

Görə bəlkə gözləməyə qızım, daxi mahi, sali yaralını

Xətərati-cəng budur ki, ox dəyə bəndi qəlbə, qılınc başa
Yara Əkbərinkidi bir qılınc, başına dəyib oturub qaşa
Başına sənin baxan az qalır deyə şişədir toxunub daşa
Belə hala kim salıb ey Xuda, bu başı bəlalı yaralını

Dönə daşa toxme-vəfa əgər, hər ürəkdə hasilə gəlməsə
Qızılın əyarını kim bilər, məhəki müqabilə gəlməsə
Qəmü-qüssə bülbülü lal edər, gül əgər gülüb dilə gəlməsə
Eylə zövqilə gətirib dilə, o şəhin vüsalı yaralını

Dedi ey muradi məsihidəm, nəfəsi müqəddəsi kimiya
Neçə ildi təşnə müridinəm, belə xalisanə və biriya
Əlini çək indi bu gözlərə, sən ey aləmin gözünə ziya
Səni yoxsa görməsə öldürər, bu əsəfli hali yaralını

Niyə indi səndən ürək sözün eyləyim nihan, gedirəm, Hüseyn
Məni öz xəcalətim öldürür, ürəyimdə qan gedirəm, Hüseyn
Ölürəm, vəfalı Rüqəyyədən elə nagiran gedirəm, Hüseyn

Su deyəndə hərdəm utandırır, hərəmin maralı yaralını

Elə yaxşı xidmət edib sənə, qəm odunda yanmadı qardaşın
Özü səslədi gələsən vəli, ayağa duranmadı qardaşın
Xəcil oldu axır ömrüdə, başına dolanmadı qardaşın
Odur inzicarilə öldürür, bu qəmi məlalı yaralını

Bu məsəldi Şimri sitəmgərin işi məhşərin günü səhlidi
Belə hiss olur ki, o zalımın qəmi yoxdu düşmən əhlidi
Vay o şəxsə Münzəvi, düşməni gözü bağlı, aləti cəhlidi
Verə şam Zeynəbin adına, qoya dəstixali yaralını

# Qəməri Bəni Haşimin (ə) qardaşını köməyə çağırması

Yatdı ələmim ey şəhi-sahib kərəmim gəl
Başımda olan sayəni kəsdi ələmim gəl

Qurban olum ol ərşə çatan payüvə qardaş
Rəhm et əli boş nokəri bimarına qardaş
Sal sayeyi rəhmət sıxılım sayənə qardaş

Qoy neçə dəqiqə yaralı sayədə qalsın
Axır yaralı başımın əhdi yerin alsın

Düşmən əlinə düşdü qələm bu qələm əldən
Əmma kəsilən əldi, kəsilməz kərəm əldən
Gər layiq ələmdar ola verməz ələm əldən
Məndən nigaran olma sən ey şahi-xocəstə
Düşdü əlim amma ələmin sinəmin üstə

Meydana yıxıldı yenə məstanələrindən
Gəl yandı kül oldu biri pərvanələrindən
Kim qaldı pərəstar ola dürdanələrindən
Kəşti ümidim sındı sahilə düşdü
Səqqa xəcil oldu sözü dildən dilə düşdü

Qanə qarışıb gözdən axan yaş, suya xatir
Gəl görüncə düşdüm oda qardaş, suya xatir
Qol getdi girov, möhlət alıb baş suya xatir
Baş da tələsir zibh oluna şah qabağında
Ruhum quşu şahın vura cəh-cəh qabağında

Ey kaş bir az məşgidə sovqatım olaydı
Səqqalığıma mədrəki isbatım olaydı
Solmuş gülə bari öz əlimlən su səpəydim
Su camı öpən ləbləri bir də mən öpyədim

Gördün iki ənquştilə əhrimən əlindən
Aldım necə öz nizəsini düşmən əlindən
Qardaşım Həsən mərkəbin aldım mən əlindən
Öldürmə dedi əfv elə bu süflə məramı
Nizə yerinə boynuma vur möhri qulamı

Gör indi necə acizəm əldən məni nalan
Hər aciz atır nizə edir qəlbimi şan-şan
Qadir deyiləm heç gələni qaytaram əlan
Bak eyləmərəm yüz belə bidadgər olsa
Əlbəttə gözüm görsə əlimdə sipər olsa

Meydana gələn vəqtdə mən, ey şahi-mükərrəm
Etmişdi Rübabın halı əhvalımı dərhəm

Hər qiymətə olsa dedim əlan su gətirrəm
Əfsus suyun qiyəməti bəllənmədi qardaş
Bir söz dedi düşmən aşağı enmədi, qardaş

Getdim nəzərə Əsğəri zehnimdə mükərrər
Gördüm ağarıb rəngi, süzür hey qara gözlər
Əzbəski, əmib ləblər olub qonçeyi-əhmər
Ənzarə çıxa göz dəyəcək gözlərə gördüm
Bu sağ gözümü Əsğərə göz muncuğu verdim

# Qəməri Bəni Haşimin (ə) öz qardaşı ilə dərdləşməsi (sənəzən)

Gəlmir yaralı dil-dodağım hər sözə qardaş
Sil gözlərimi qoy danışaq göz-gözə qardaş

Xeyməndəki avarə müsafirlərə xatir
Zeynəb çadırında qara çadırlara xatir
Əxyama aparma məni xatirlərə xatir
Görsə bacılar halıma müşkül dözə qardaş

Düşdüm uzağa yaxşı susuzlar arasından
Həm südəmərindən xəciləm, həm anasından
Əlan ki, süzür Qasıminin qan yarasından
Qoy tazə gəlin zülfünə mərcan düzə qardaş

İmdadə çağırdım səni ey ruhi rəvanım
Qaldın başım üstə sənə qurban ola canım
Yatmazdım Hüseyn durmağa olsaydı təvanım
Bu yatmağımı indi gətirmə üzə qardaş

Əbbasə su dağı ürəyindən çəkilibdi
Zahirdə uzün əlləri təndən kəsilibdi
Batində vəli çarə təvəssüldə bilibdi
Bu əlləri müşkül ətəyindən üzə qardaş

Tar eylədi qan ləxtəsi dünyanı gözümdə
Təng eylədi covlangəhi meydanı gözümdə
Sil, bəlkə görəm surəti cananı gözümdə
Döndər bu qaranlıq gecəmi gündüzə qardaş

Əlan ki, belə həsrət ilən rəşg mənimdir
Qana qarışıb gözdən axan əşg mənimdir
Bir azca əgər gec gələ ox, məşg mənimdir
Bəxtim mənə yar olmadı gəldik sözə qardaş

Mən, mən deyiləm məndəki ünvan elə sənsən
Nə cism və nə can cismidəki can elə sənsən
Şəryanu-üruqumda gəzən qan elə sənsən
Haşa çəkəm öz xidmətim əlan gözə qardaş

# Həzrət Abbasın (ə) su gətirməsi (cuşi)

Su məgər yaquti əhmərdir Hüseyn
Güllərin su üstə pərpərdir Hüseyn
Su içəndə ləblərin yad eylərəm
Şiəyəm çün dərsim əzbərdir Hüseyn

Su görəndə ləblərin bir ahilə
Yadıma salam salamullahilə
Rabitəm var çünki bu dərgahilə

Ağlaram hicrində illərdir Hüseyn

Əsğərə su istədin ey məhliqa
Vurdu bir dil yarası Şimri dəğa
Səslədi su istəmə ey müqtəda
Öz atan saqiyi-Kosərdi, Hüseyn

Həm su verməz bir nəfər ətşanlara
Həm olar mane səxi insanlara
Fərqi yox söz qanmayan nadanlara
Nurilən zülmət bərabərdir, Hüseyn

Olmadı su soldu rəna güllərin
Zövqünə dəydi ətəş bülbüllərin
Yandırıb Səqqanı şirin dillərin
Gördü ölmək feyzi-əkbərdir, Hüseyn

Götürüb məşgin düşdü Əbbasın yola
Şərzə getdi baxmadı bir sağ-sola
Qiymətin kəsdi suyun bir cüt qola

Çün dəvayi dərdi Əsğərdi, Hüseyn

Tutdu şahid Xaliqi Yektasını
Sağ qoluylan çəkdi sorx imzasını
Kufiyan fəsx etdi öz sevdasını
Yəni qol su üstə kəmtərdir, Hüseyn

İstəmirdi ləğv ola Səqqa adı
Üstünə bir göz də qoydu olmadı
Nagəhan səflər yerindən oynadı
Sən özün gördün nə məhşərdir, Hüseyn

Bir yaralı qanilən gözlər dolu
Nə görər göz, nə sipər saxlar qolu
Mərkəbi huşyarı teyy elər yolu
Çünki müştaqi bəradərdir, Hüseyn

Səslənir getmə vəfalı mərkəbim
Axdı su getdi əlimdən mənsəbim
Görməsin barı bu halı Zeynəbim

Gəlsə meydana müxəyyərdir, Hüseyn

Sən bilirsən əhdimin pabəndiyəm
Sorxruyam, nə siyahru bəndəyəm
Xeymədən bain həme şərməndəyəm
Harda düşsəm zərrəpərvərdir, Hüseyn

Bir qapını bağlasa şayəd qəza
On qapı birdə açar dəsti Xuda
Çeşmi-dil gördü gəlir Xeyrun-Nisa
Səslədi gəl ruzi madərdir, Hüseyn

Gör nə lütf etmiş Həqqi Yekta mənə
Can deyir insiyyeyi-hura mənə
Qolların açmış anam Zəhra mənə
Bəxt yar, iqbal yavərdir, Hüseyn

Başım üstə ey şəh payəndə gəl
Eləmə qardaşını şərməndə gəl
Lütf elə Zəhraya xatir sən də gəl

Vəslin əlan ki, müyəssərdir, Hüseyn

Lütf elə can üstə bu göz yaşıma
Var niyazım şahıma, qardaşıma
Sil gözüm, qiymət ver əlan başıma
Xaki-payın zinəti sərdir, Hüseyn

Mən Əlinin gər ələmdar oğluyam
Həqq deyib, həqqə tərəfdar oğluyam
Qeyri-fərrarın o kərrar oğluyam
Fikr qıllam cəngi-Xeybərdir, Hüseyn

Gər babam aldı o gündə Xeybəri
Mən də aldım nəhri qovdum ləşgəri
Qollarım düşdü ədu oldu cəri
Yoxsa şirin puri-Səfdərdir, Hüseyn

Niskil oldu məşgimin oxlanmağı
Şəmilər dərs aldı məndən yanmağı
Nuş bildim oxlanıb, doğranmağı

Qardaşın mərdanə nokərdir, Hüseyn

# İnqilabdan qabaq bir inqilab

Aşiqə atəşi cansuz nihan lazımdı
Kəfi ixlasidə nəqdiyyeyi-can lazımdı

Arif-o-sariq-o-sufi gecə müştaqidilər
Çün xilaf işdə günüz vəhşəti can lazımdı
Aşiqə xəlvətu-cəlvət gecə gündüz birdi
Hər zaman səyu-təlaş və həyəcan lazımdı
Eşq bir kəlmədi çoxlar eləyib dəstaviz
Fikr edir aşiqə bir cəli nişan lazımdı
Eşq iman ilə mərbutidi, islamiyə yox
Quşi-biganəyə bu yerdə azan lazımdı
Eşq bir gohəri kəmyab və müqəddəsdi fəqət
Kəbeyi dil kimi xoş cayi əmanət lazımdı
Hara gör çəkdi Əli eşqin Əliyyu Əla
Laməkan sevgili çün tutsa məkan lazımdı
Getdi məhbuba dili-Kəbədə məva verdi

Yardı divarı ki, bu qalibə can lazımdı
Pak movlud hərəmi-qibleyi-afaq oldu
Kəmtərin aşiqinə huru-cinan lazımdı
Məktəbi dərsi səadət verir insanlar üçün
Heyf ola qüdrəti təşrihu-bəyan lazımdı
Tuqi-zillət olur ərabə həmin cəhlu-inad
Qarəti həqqə qəramati geran lazımdı
Bir ərəb ki, hələ də anlamayıb həqq kimdi
Xaru-sərxordə ola xurdu-kəlan lazımdı
Bir yəhudi uşaq zəncirə çəkə yüz ərəbi
Rəhni əmalidədir nəfsi həman lazımdı
Nə qədər gəlməyələr məktəbi-movlaya tərəf
Olara pənceyi-qəhru-xəfəqan lazımdı
Sünni qardaşlarıma kaş yetə peyğamım
Müttəfiq olmağa çün hüsnü-güman lazımdı
Ey müsəlman qoyursan adını Quran əhli
Əhli Qurana böyük izzətu-şən lazımdı
Əyməyin boynuzu çox zillətu-istemara
Köhnə zəncir olur pusidə təkan lazımdı
Mürtəza məktəbi tohidilə birlik yaradar

Səfi sındırma müxaliflərə san lazımdı
Vaiza, səslə o məsciddə yatan şəxsləri
Oyadıb sal yola səngərdə yatan lazımdı
Qoymayın işğal edə yorğun qocalar
Dinə ba hökmu-zaman nəsli-cavan lazımdı
Rəhbəriz səy eləyin tabeyi-Quran olsun
Gəlleyi-dinə şərafətli şəban lazımdı
Hər o millət ki, Yezidi yetirə səltənətə
Millətə, məmləkətə fatihəxan lazımdı
Axtarın Qandi Hindutək Hüseynin hədəfin
Hər yatan milləti axər oyadan lazımdı
Sizin iddəz ki, Hüseyn ibni Əlidən çoxdur
Bir görün neylədi, qıl dərsi rəvan lazımdı
Gördü Quran yaralanmış, yıxılıb qanı axır
Dedi bu nimənəfəs heykələ qan lazımdı
Axtarıb diqqətlən tapdı guruhi-xunin
Gördü ki, xuni-rəgi-haşimiyan lazımdı
Əkbərin qanını bəzl etdi vəli olmadı bəs
Səs gəlibdi hələ yetmiş iki can lazımdı
Yolladı sürətilən bir-bir Əqil ovladın

Bildi övladi-Həsən qana batan lazımdı
Pozulub ləşgəri, Quran hələ can sinədədi
Dəmbədəm qan yetirir şahi-cahan lazımdı
Verdi axər ələmi-dini ələmdar əlinə
Dedi qəddim ola hicrində kaman lazımdı
Bunu bil biz bu çölə gəlməmişik səltənətə
Bizə nə səltənət və nə təxt-rəvan lazımdı
Gəlmişik zində edək səltənəti-Quranı
Cərəyan xətm ola xuni-şəryan lazımdı
Çox da Şam əhlini öldürmə bacın çox döyülə
Qabağından qaçanı qovma, aman lazımdı
Əlqərəz qanını verdi o da qoldan-başdan
Çatmadı qan yenə oldu nigəran lazımdı
Qaçdı sürətilən xiyamə, dedi qıl çarə bacı
Axtarın xeyməni gör vardı qalan lazımdı
Qan bir az da ola Quranı gətirrəm nəfəsə
Hədəfim roşən ola teyyi-zaman lazımdı
Zeynəbi mat görüb tez ayağa durdu Rübab
Dedi bəs bu quzu qurbanım haçan lazımdı
Gəl apar mən çəkərəm döşlərimin zəhmətini

Gülşəni-dinə əgər qönçə dəhan lazımdı
Balanı bağrına basdı gətirib meydana
Dedi, ləşgər buna bir qəlbi yanan lazımdı
Verən olsa buna bir şürbə su Allaha görə
Holi-məhşərdən ona xətti-aman lazımdı
Hərmələ qorxdu o da dil aça həqq söz danışa
Lacərm həqq deyənə tiri-kaman lazımdı
Qanı dərman kimi öz ovcuna doldurdu imam
Dedi bəh-bəh bu gözəl qan nə yaman lazımdı
Nəbzi-Quranı o qan qaytarıb əvvəlki hala
Tapdı Quran nə qədər tabu-təvan lazımdı
Bildi ecazilə Qurana verib tazə həyat
Dedi bu möcüzə gər olsa əyan lazımdı
Axtarıb bir uca yer aləmə elan eləyə
Gördü hər yerdən uca nuki-sinan lazımdı
Yetirib forən özün nizəyə təkbir dedi
Rəsmidir möcüzə görsənsə əzan lazımdı
Nizədə qanlı dodaqlar verib hər əsrə pəyam
Yəni hər əsridə fəryadu-fəğan lazımdı
Hamı yer Kərbübəladır, hamı gün Aşura

Qarışıb həqqilə batil ayıran lazımdı
Evdə əyləşmə xəmud olma müsəlmansan əgər
Oxşamaq vəqti keçib mərdi-bəyan lazımdı
Sən hüseynisən əgər tiği-əməl vacibdi
Zeynəbisən yenə şəmşiri-zəban lazımdı
Ya gedin Kufədə sərnizədə Quran oxuyun
Ya baxın Zeynəbə həqq söz danışan lazımdı
Gər desən məsləhətən bitərəfəm, bihədəfəm
Bəs yezidisən, o sevdada ziyan lazımdı
Zahida, zikru-namazi şəbə çoxdur hələ vəqt
Qoyma göz yaşın axa, qanı axan lazımdı
Bir namazi-şəb onun sübhü şəhadətsiz ola
Var nə bir həzzi, nə bir əcri kalan lazımdı
Ömrün axır gecəsi zikri həqqin ləzzəti var
Sübhü ləblər yaralı zikr oxuyan lazımdı
Münzəvi yazmağa əşari xirədməndanə
Lütfü Ruhul-qüds feyzrəsan lazımdı
Höccət ibnil-Həsən əhsən deyər inşallah

Çünki həqq sözləri bipərdə yazan lazımdı[1]

# Əli Əsğərin (ə) anasının sözləri (sinəzən və cuşi)

Mən özüm xəcalətəm sən eləmə işarə Əsğər
Ölüm istərəm edəndə üzünə nəzarə Əsğər

Sına gər gülabdanın calana yerə gülabı
Quru şişədən kəsilməz bərəkati ətri nabı
Quruyan dodağın əzbəs ətəş eləyib Rübabı
Ürəyim şərarı sönmür öpürəm dubarə Əsğər

Qətərati-paki-şəbnəm düzülər necə gül üstə
Axınar gül onda istər edə təkyə sünbül üstə
Pozular görəndə bülbül onu səbt edər dil üstə

---

[1] "أُفَوِّضُ أَمْری إِلَی اللَّهِ إِنَّ اللَّهَ بَصيرٌ بِالْعِبادِ".

Bu müqəddəs zikri ("Ğafir" surəsi, ayə 44) əlyazma nüsxəsinin sonunda gördüm və o böhranlı günlər yadıma düşdü ki, bu müqəddəs zikr mən həqiri tağut rejiminin şərindən qurtardı.

Qanadın çalar o şəbnəm düzülər üzarə Əsğər

Görürəm bu gül üzündə düzülüb sənin də şəbnəm
Qarışır o şəbnəm ilən gözünün sireşgi nəm-nəm
Haçana kimi zəbanə çəkəcək alovlu sinəm
Nə bu döşlərimdə süd var, nə əlimdə çarə Əsğər

Necə ki, xəlilin oğlu yerə vurdu öz ayağın
Yədi-qüdrət etdi cari ona Zəmzəmin bulağın
Əl-ayaq çal indi Zəmzəm görə teşnələb qonağın
Gələ cuşə döşlərimdən axa aşkara Əsğər

Neçə ay dedi bu dağı-daşı dərbədər dolannam
Dil açınca ilki oğlum hələ çöldə daldalannam
Nə biləydim altı ayda yuxudan həras oyanam
Əməyim hədər, əlim boş, ürəyimdə yarə Əsğər

Demə bu fələk Rübabın gələcək günün bilirmiş
Ananın hamı ümidi bala öyrənən dili imiş
Kimə dərdimi desəm mən deyəcək yazın beləymiş

Nə qəzayə güc çatarmış, nə də ruzigarə Əsğər

Sənə xidmətim bu evdə mənə ali mənsəb oldu
Bu səliqə məndən əhli dilə dərsi-məktəb oldu
Bələyin açıb bükəndə bala oxşamaq dəb oldu
Edəcək sənə təvəssül hamı bəxti qarə Əsğər

Məni xilqətin bu sirri gətirir oğul xüruşə
Uşaq olmamış gəlir süd ananın döşündə cuşə
Nə gözəldi ölcəyin də qayıdıb gedə bu tuşə
Daxi salmaya daşan süd ananı fişarə Əsğər

Elə nagiranəm indi bu günə görə səhərdən
Çalışam vəli vücudun qutaranmayam xətərdən
O zaman dola südilən düşə döşlərim nəzərdən
O dəva ki, dərdə dəyməz axa rigzarə Əsğər

Necə Münzəvi təcəlla gəl edər gülab adından
Necə nuri-feyzi-rəhmət yağar aftab adından
Nə əza ki, bəzmi-işrət pozular Rübab adından

Göz əgər qutarsa əşgin gətirər dubarə Əsğər

# Rübabın (s.ə) Əli Əsğər (ə) qəmində sözləri (sinəzən)

Allah gülüm oxlandı, gülabım hədər oldu
Ruhum quşu avarə qalıb dərbədər oldu

Vəchi nədi on dörd gecəlik aypara getdi
Cəng etmədi amma boğazında yara getdi
Heç bilməm əmlik quzum Allah hara getdi
Süd gəldi oğul getdi bir az da betər oldu

Şükr Allaha çün gördü Rübabın əli boşdu
Lütf etdi mənim də quzumu qoçlara qoşdu
Bilməm ayaq açdı, ya qanad bağladı uçdu
Şeş mahə, çehel saləlrə həmsəfər oldu

Baxdım şühədayə gülü ağ yaprağa bükdüm
Açdım o yaşıl döşlüyü soldan-sağa bükdüm
Gətdim südəmər seyyidi forən ağa bükdüm

Ağ camə ona çox yaraşırdı nəzər oldu

Gördüm ağam ağlır ürəyim başı soyuldu
Biçarə gülab istədi tutsun, gül ovuldu
Qanlı bələy ilən o bala qəbrə qoyuldu
Haqqa ki, şəhadət sənədə mötəbər oldu

Ya Rəbb bu nə bərnamədi Şəddadın əlində
Məzlum əsə vəhşətzədə cəlladın əlində
Şəhpər çala quş çırpına səyyadın əlində
Axər görə yalvarmağı da bisəmər oldu

Çəkməz analar əl gecə-gündüz balasından
Əl çəksə də müşkül götürə göz balasından
Al bu qanı sən Hərmələnin öz balasından
Görsün necə qan ürəyim şöləvər oldu

Bihudə gərək olmaya məsrur ox atanlar
Axər oxilən məhv olur məşhur ox atanlar
Əlbəttə gərək məhv ola muzdur ox atanlar

İbrət edə hər zalım əlində kəsər oldu

Ey Hərmələ, məzlumları eylə muraat
Qol bağlaya ox atmağa çox etmə mubahat
Axər keçəcək boynuna zənciri mükafat
Bir gün görərsən zülm evi ziru-zəbər oldu

Ey zinəti-ağuşim, ənisi-şəbi-tarım
Ömrüm səməri, qönçə dəhanım, gül üzarım
Qasim baxış, Əkbər gülüş, Əbbas şüarım
Həqdən elə sənlən əminə bir nəzər oldu

Bəxtin yata gər min qapı olsa olur bağlı
Oldu bizə də çarət yolu, su yolu bağlı
Meydanda o qolsuz, sən özün də qolu bağlı
Əfsus nə onda, nə səndə sipər oldu

Əmdin quruyan döşlərimi qəlbim alışdı
Sən mənlə küsəndən sora süd gəldi barışdı
Nirfin elədim rəngi dönüb qana qarışdı

Süd olmadı bu döndü od oldu, şərər oldu

# İmam Hüseynin (ə) Əli Əsğəri (ə) meydana aparması

O gün ki, aldı fələk hökmü inqilab əlinə

Bəni Üməyyə qoyub şoqilən xizab əlinə

Kəbutəri-hərəm olmuş əsiri zağu-zəğən

Düşübdü gülşənu-gülzari din ğürab əlinə

Olubdu düşməni kəmfürsət əhli-təqvayə

Veribdi fürsəti mustocibi əzab əlinə

Məgər o Hindi cigərxara kim verib fürsət

Ki, Həmzənin cigərin eyləyə kabab əlinə

Əmirzadə Yezid olsa, Hində nəslindən

Xəraci-dini tökər saqi şərab əlinə

Namazi sübhü qılar məst vali dörd rəkət

Bu nöktədən üqəlanın gələr hesab əlinə

Mükəlləf etdi Hüseyni vəzifeyi-şəri

Alıbdı südəmərin mərdi-inqilab əlinə

Dayandı mərkəzi meydanda ayati-kübra

Baxıb o qovma alıb rişteyi-xitab əlinə

Buyurdu rəhm edin ey milləti nəmək nəşünas

Mənəm o kimsə ki, cəddim alıb Kitab əlinə

Qutardı gərdəni ərabi toqi-zillətdən

Veribdi nəqşeyi-küfru-nifaqı ab əlinə

Məni qonaq çağıranlar durub bu səflərdə

Baxılla seyd ola simurği-din zübab əlinə

Əgər olar kişidi əhdinə vəfa eləsin

Və gərnə alsın hamı məcəru-niqab əlinə

Qonaqlıq adı əgər olmasaydı namuzda

Susuz balam belə düşməzdi iltihab əlinə

Yetəndə söz bu yerə tez əbanı rədd elədi

Sitareyi-səhəri aldı günəş əlinə

Görüncə kaş gözü kor olaydı Hərmələnin

Düşəydi dizlərinə rəşe iltihab əlinə

Nə ox dönüb, nə kaman sındı, nə şil oldu əli

Nə zeh qırıldı, nə bir düşdü piçu-tab əlinə

Gülab güldən olar, qönçəni ovub töküb ox

Cahanda kimdi tuta qönçədən gülab əlinə

Oxu çəkəndə qoyub Fatimə əlin gözünə

Yarasın öpdü saçın aldı ol cənab əlinə

Tutubdu ovcuna sarəllah inbi sarəllah

Səpib səmayə verib ləli ərziyab əlinə

Dedi ilahi, bu məzlum qana qiymət ver

O qan bəhanı əta eylə cəddu-bab əlinə

Bunun qanın yuva bilməz əgər verilsə əvəz

Günahi aləmi məhv eyləyən savab əlinə

Bu qan, o Hərmələ, Sən müntəqim, balam məzlum

Qisası tapşırıram malikur-riqab əlinə

Bu qan tökülsə yerə Kərbəlada gül bitməz

Düşər bəhaneyi-şərmu-həya səhab əlinə

Bu qan tökülsə Fəratə qurur qiyamətədək

Düçar edər bu biyabanı qəhət ab əlinə

Bu qan axır anamın sinəsindəki yaradan

Oğul onundu əmanət verib Rübab əlinə

Gərək açam bələyin qol-qanad çalan balamın

Qanad çalıb verə can tapşıram turab əlinə

Ana bilə bala can üstə əl-ayaq çalacaq

Əlin-qolun bələyib bağlamaz tənab əlinə

Bu halı görsə əgər bacıları, əmmələri

Böyük bəhanə düşər Ali-Bu Turab əlinə

Rüqəyyə Şama yetişməz, Səkinə sağ qalmaz

Yıxılla səbr evini seyli əşki-nab əlinə

Rübabı mən tanıram, gizlənər həyasından

Bu qanlı qundağı almaz o dilkabab əlinə

Vəli ana dili çox bənzər aşina dilinə

Yaralı olsa oğul, can deyər ana dilinə

Ana dili hamı dillərdə aşina dilidi

Oğul yarasına məlhəm qoyan ana dilidi

# Rübab (s.ə) Əli Əsğər (ə) qəmində (sinəzən)

İlahi getdi Əsğərim, şəfəq qaraldı gəlmədi

Ürəkdə qaldı əllərim, şəfəq qaraldı gəlmədi

Gileyli getdi ey Xuda, susuz mələr qalan quzum

Bu evdəki xanımlığım, adım, sanım, dadım, duzum

Batırdı matəmə məni, səhər batan dan ulduzum

O getdi sındı şəhpərim, şəfəq qaraldı gəlmədi

Oğul nişanəsin qoyar göz üstə binəva nənə

Mənə qalan nişanə də yetişdi dəsti-düşmənə
Yananda xeymə qalmadı, əqəlli boş beşik mənə
Ucaldı başdan əllərim, şəfəq qaraldı gəlmədi

Salıb Fəratə əksini bu göydəki sitarələr
Ayın tutuq qiyafəsi yaralı qəlbi yarələr
Bu kəhkəşanın ağ yolu verir mənə işarələr
O yol gedib kəbutərim, şəfəq qaraldı gəlmədi

Yavaş-yavaş bülənd olur, vühuşun ərzə zuzəsi
Qəbilənin gəlir suya gəlinləri, əcuzəsi
Çoxu dalında südəmər, əlində bir su kuzəsi
Mənim qəzalə bənzərim şəfəq qaraldı gəlmədi

Bu sinəmin sızıltısı ki, niskil oldu dillərə
Əziyyəti qalan deyil nə aylara, nə illərə
Döşümdə həbs olan südüm adımı saldı dillərə
Dilimdə oldu əzbərim, şəfəq qaraldı gəlmədi

Keçən gecə yatanmadı sinəmdə mahi mənzərim

Süd olmadı fəqət quru hərarət əmdi Əsğərim
O getdi, indi bu gecə dolub süd ilə döşlərim
Yanır bu qəlbi-müztərim, şəfəq qaraldı gəlmədi

Baxanmıram Fəratə mən zibəs çətindi göz dağı
Gərək gedib Mədinədə yuyam bu qanlı qundağı
Ad oldu dillər əzbəri, söz oldu sinə dustağı
Büküldü sinə dəftərim, şəfəq qaraldı gəlmədi

Dedim balam iməkləsə dolaşmaz əl-ayağıma
Ərusi Əkbəri qonaq çağıram öz otağıma
Dil açsa xoş səfa edər gəlib-gedən qonağımı
Dil açmadı dilavərim, şəfəq qaraldı gəlmədi

Gərək Səkinə bu gecə mənə təbabət eyləyə
Qəbilədən bir ac yatan uşağı dəvət eyləyə
Damarlanan döşün əmib Rübabı rahət eyləyə
Mənim ki, sinə pərvərim şəfəq qaraldı gəlmədi

# Həzrət Səkinə (ə) (sinəzən)

Durub Səkinə ağladı, qucaqladı anasını
Dedi az ağla dərdinin gəzim tapım dəvasını

Çıxıb oturdu xeymənin dəriçəsində didə tər
Gözün silirdi dəmbədəm edirdi yollara nəzər
Qaraltıdan zühur edib başında xonça bir nəfər
Əşayiri salam ilən nişan verib vəfasını

Qoyubdu xonçanı yerə öpübdü Zeynəbin əlin
Dedi oyat ğəza yesin bənati-Xətmi Mürsəli
Danışdı macarasının həm axərin, həm əvvəlin
Edibdi vəsf o gördüyü yaralının naməsını

Verib güzarişin çıxıb gedəndə xeyməgahidən
Görüb ki, bir çadır qurub Səkinə dudi-ahidən
Yol üstə əyləşib axır sireşgi ruyu-mahidən
Əyildi öz balasıtək öpüb Hüseyn balasını

Dedi ğəza gətirmişəm gər olsa meylu-rəğbətin
Cavab verdi moridi-qəbuldur bu xidmətin

Varımdı bircə xahişim yetişsə dəsti-himmətin
Anam Rübab qəlbinin sağaldasan yarasını

Dedi kiminə külfətin gərək nə xidmət eyləyə
Buyurdu sürətilə sən özün yetir qəbiləyə
Qəbilədə bir ac yatan uşaq gətir bu xeyməyə
Anam Rübab əmizdirə öz oğlunun ğəzasını

Dedi xanım xəcalətəm, xəcil gedən gələnməyib
Xəyal etmə külfətin sifarişin bəyənməyib
Günortadan qəbilənin uşaqları süd əmməyib
Süd ilə şirixarələr kəsibdi etinasını

Nə vardı bilmirəm göyün tutub əza ay-ulduzu
Nə var bu gün donub suyun dadı, ğəzaların duzu
Uşaq ki, səhlidir, hələ süd əmməyib qoyun-quzu
Quzuları mələr qoyan, mələr qoyub anasını

İkinci müşgülüm budur əgər tapılsa südəmər
Rübaba baxma, hər ana baladan əl çəkər məgər

İməkləyən balanı gör gecəylə kim qonar verər
Ki, sinəpərvər eləyib hərə öz aşinasını

# Əli Əsğər (ə) anası

Dəqiqə eyləməyin qəflət ey müsəlmanlar
Bizə çətin kəs ola, nakəsani tağuti
Məgər olar ki, ürəkdən dolandı həqqə tərəf
Olubdu hafizi din, pasibani tağuti
Eşit bu sözləri ey pasiban məqamını bil
Həmişə nafei-din ol, ziyani tağuti
Olar ki, qətl eləyib, gizlənib, şəhadət ver
Gərək səzaya yetişsin sərani tağuti
Kitabi həqdə "la təktumuş-şəhadə"yə bax
De bəlkə kəşf olar sirri nihan tağuti
Hər il olub ürəyim qan gələndə bazarə
Hanı o xəlqi vuran əfsərani tağuti
Denən hüseynçiyə, ey pəstzarə az təpik at
Bir ahilən dağılar aşiyani tağuti
Bəşər ki, bir dərəcə üstə belə qan tökməz
Nə qədər məstidi bu nokərani tağuti

Əgər bunlar tanıya bilsə ahi-məzlumu
Mahaldır öpələr asitani tağuti
Kəzayi bir dərəcə çoxların fənaya verib
Olubdu tuqi-məzəllət nişani tağuti
Nə iftixar var acizlərə ox atmaqda
Məgər nə xeyir aparıb rəhrəvani tağuti
Bir ox ki, illər buyunca ağladacaq
Sınaydı kaş əzəldə kamani tağuti
Bir ox ki, dərbədər etdi Rübabtək xanımı
Nə xeyir apardı səgi-binişani tağuti
Ölüncə bir oxa hey ax dedi, hey ah çəkdi
O ah yıxdı vəli dudumani tağuti
Nə Kərbəlada yoruldu, nə Şam və Yəsribdə
Açıb deyib hamıya dasitani tağuti
Kənizə oxşasa da eşqi şaha sadiqdi
Başı ağarsa da vallah Hüseynə layiqdi
Nənədi dəsti xəzan gülşənə səfa qoymaz
Xəzan da qoysa əgər pənceyi-cəfa qoymaz
Ayaqlayıb gülü hey, bülbülü salır qəfəsə
Ğürabi şumilə heç xarə etina qoymaz

Tanır yəqindi ki, ahu görəndə səyyadı
Vəli nə çarə qədər səy edər, qəza qoymaz
Necə ki, saldı kəməndə Rübabın ahusun
Çalışdı can qutara gördü dəstu-pa qoymaz
Kəməndə ahu ayaqdan düşər və ya əldən
Təlaş edər nə qədər olmağa rəha qoymaz
Əli-ayağı o tiflin bələkdə bağlıydı
Çalışmağa bələyin bəndi bərməla qoymaz
Bu yerdə var bir ibarət İmam Sadiqdən
Çəkilsə pərdə ürək dərdinə dəva qoymaz
Buyurdu zibh olunan quş görün nə hala qalar
O halıilan çalışar can verə, yara qoymaz
Boğazda ox, tutulub rəng, ağız dolub qanilən
Özün atır yerə can sahibi, ata qoymaz
Basıbdı bağrına cantək o can şərarəsini
Vüqaru-şən vəli ərsəgah ara qoymaz
Qalıb dudil iki yol arasında qərqi-xiyal
Gedim-qalımda ürək çırpınır liza qoymaz
Deyir Xuda gedirəm xeymələrə özün kömək ol
Rübab görməsə dəfn etməyə vəfa qoymaz

Vəli onu tanıram hər nədən müqəyyəddi
Min oğlu ölsə, oğul vay deyə həya qoymaz
Elə ədəbli, vəfalı, həyalıdır bu xanım
Onun fəzilətinə düşmən olsa, la qoymaz
Vəfasın həzrəti Səccad eləyib tərif
Onun sözün əqlən vəhydən cüda qoymaz
Beləki bir günü Minhal tapdı izzu-şərəf
O məhzərə ki, qədəm ğeyri-ətqiya qoymaz
Zi bəəd rəsmi-təarif buyurdu ey Minhal
Nə vardı Kufədə həqq zülmidə bəqa qoymaz
Cavab ərz edib: əlhəmdulillah ey movla
O yer ki, zülm evi bərpadı həqq bepa qoymaz
Çıxıbdı dəsti-mükafat öz astinindən
Sizin ki, qanızı həqq yerdə mütləqən qoymaz
Qiyam olub qətlə, qətlə yetdi xiffətilən
Tanıdığın hələ Muxtar bicəza qoymaz
O vəqtə bilməm İmamın hara sataşdı gözü
Buyurdu qəlbimi bir qüssə ram ola qoymaz
Bəyan eylə mənə tez sərgüzəşti Hərmələni
Görüm yenə ox atır xəlqə, ya Xuda qoymaz?

Yetəndə söz bu yerə bahəm ağladıq ikimiz
Dedim ki, həqq onuda Şimridən cüda qoymaz
Nədir səbəb ki, qalıb ayrılar soruşdun onu
Buyurdu heç kim elə nütfeyi-zina qoymaz
Ürəkləri ki, o yandırdı həşrəcək yanacaq
Onun kimi bizi heç kim yana-yana qoymaz
O səhnidə oturan orətə nəzarə elə
Bəla yağır başına zərrə etina qoymaz
Mənim anamdı ki, çoxlar onu kəniz bilər
Xanımlara qoşular haləti əza qoymaz
Kənizi-Fatimədir aləmin əzizəsidir
Ərus xar ola hörmətli qaynana qoymaz
Rübab adını babam çox sevir hər evdə ola
Düz aşiq eşqinin imzasını xəta qoymaz
Əzaya əyləşib illərdi gün qabağında
Qədəm bu səqfə o binəva qoymaz
Rübab anamın o qədər eşqinə yəqinim var
Hüseynçidir ki, Hüseynsiz behiştə pa qoymaz
Cəfayi-Hərmələ az ömrüdə qocaltdı onu
Nə qədri sağdı anam başına həna qoymaz

Olanda bayram ona yalvarılla bacılarım
Hamı həna qoyar amma o məhliqa qoymaz
Sızıltısı gecə-gündüz bizi kabab elər
Ürək yanar su səpər əşgi biriya qoymaz
Həmişə fikrə gedər söz tapanda baş qozar
Sözün deyəndə göz yaşı cabeca qoymaz
Elə deyər fəlkə atdı oxu mənim balama
Bəşər kamana belə tiri-cangüza qoymaz
Əgər fələk mənə yansaydı ox əyərdi yolun
Vəli bunu bilirəm çərxi-çəpgəra qoymaz
Fələk, nəyin kəm olardı balam dil açsaydı
Danışıb ölsə uşaq qəlbidə yara qoymaz
Edim nə çarə bu badi-xəzanın adətidir
Əsəndə gülşənə bir qönçə cabeca qoymaz

# Qitə

Çəməndə bülbülə gül gülməsə əda olmaz
Gülün saralmağına bülbül heç riza verməz
Dağıtsa pənceyi-səyyad hər quşun yuvasın
Əlacı olsa ana can verər, bala verməz

# Qitə

Görəndə səhnidə Zeynəb Rübabı əşgin ələr

Deyərdi ahın oxu qəlbi-dağidarı dələr

Anamı yada salır gün evində ağlamağın

Bu doğru sözdü deyəllər gəlin ocağa gələr

# Ananı halal elə Əsğərim (sinəzən və cuşi)

Yetirənmədim səni həddinə

Ananı halal elə Əsğərim

Gedisən şikayətə cəddinə

Ananı halal elə Əsğərim

Həvəs eylərəm ürəyim başın

Yara xəncər, ox demərəm oğlu

Otura sənə dəyən ox əgər

Gözüm üstə yox demərəm oğul

Bir ox ki, xəncər işin görüb

Ona mən ki, ox demərəm oğul

Yanıram bu dərdi-əşəddinə
Ananı halal elə Əsğərim

Qədəğən buyurdu Rəsuli-Həqq
Özü səmmi-xəncəri mahiyə
Nə qədər zəif pərəndə var
Tapşırdı xəlqi ilahiyə
Şil ola o əl ki, cəfa ilən
Ox ata göyərçinə, ahuya
De o zəhərli oxu cəddinə
Ananı halal elə Əsğərim

Neçə yüz kəbutər əgər uçub
Qona harda bami-məsacidə
Verər abu-danə tərəhhümən
Hamı ehtirami-məsacidə
Vəli Hərmələ səni görcəyin
Ox atıb imami-məsacidə
Yetişib yara mütəsəddinə
Ananı halal elə Əsğərim

Hamı intizaridi müntəqim
Qura dadiqahi-ədaləti
Çəkə qeydu-bəndi üqubətə
Hamı amilani-cinayəti
Qanını səmayə səpib baban
Görə qan alan o əlaməti
Yetişə o qanilə rəddinə
Ananı halal elə Əsğərim

Necə qəbrin olmadı daşına
Bu zəbanhalı yazam qala
Hamı lənət eyləyə qatilə
Deyə neyləyib südəmər bala
Kimə zülm edibsən oğul məgər
Əvəzində Hərmələ qan ala
Verəsən qisasi təəddünə
Ananı halal elə Əsğərim

Səni ağ bələkdə görən dedi

Gözələ yaraşıqlı var ağın
Pozulubdu Fatimə gülşəni
Budu tazə qüssəsi bu bağın
Vəli mən libasını ağ görüb
Sinəmə dedim çəkilər dağın
Biçilib kəfən kimidi qəddinə
Ananı halal elə Əsğərim

Əcəli mahal idi qaytara
Biri fənni sehru-tilsimə
Nə qədər ürək daş olar yanar
Əl-ayaq çalan kimi bismilə
Boğazın yarası nişan verir
Ki ox istəyib yaza bismilə
Dağıdıb mürəkkəbi xəddinə
Ananı halal elə Əsğərim

Bu fəna cahan bu siyaq ilən
Neçə yol əgər boşalıb-dola
Hamı qəsdi feyzi-şəhadətə

Tələsib qədəm qoya bu yola

Şühədayi-aləm ölub yenə

Dirilib dubarə şəhid ola

Yetişə çətin biri həddinə

Ananı halal elə Əsğərim

Elə ki, müsibətini yazar

İtirir bu Münzəvi öz-özün

Sənə vəqf edibdi əlin-dilin

Qələmin kitaba tikib gözün

Bilirəm böyük nənələr Əli

Yerə salmaz heç uşağın sözün

Ver ərizə dərdini cəddinə

Ananı halal elə Əsğərim

# Əli Əsğərin anasının sözü (ə) (sinəzən)

Dedim yat xəstədir canın

Balam laylay gülüm laylay

Suya  getmə axar qanın

Balam laylay gülüm laylay

O gün ki, sinəmə bəxtim vəfa reyhanəsin əkdi
Sağ əlin başıma deyibən, görənlər həsrətin çəkdi
Alardı hər kim ağuşə deyərdi bu bala təkdi
Pir olsun ilki aslanın balam laylay gülüm laylay

Qızıl güllər açıb-soldu vərəqləndi xəzan oldu
Ayazın bağiban çəkdi ayaqlandı talan oldu
Rüqəyyədən naz öyrəndin dil açmağın yalan oldu
Üzü döndü bu dünyanın balam laylay gülüm laylay

Fələk heç bilmirəm məndən dönübdü hansı vəqtidən
Məni əvvəl göyə çəkdi soradan saldı təxdimdən
Oğul getdi, adım batdı qədəmdəndi, ya bəxdimdən
Nə sən qaldın, nə nişanın balam laylay gülüm laylay

O arzular ilən gül əkmişdim nə fayda indi vay dərdim
Əli qoynunda qaldım tək ürəkdə dağ kimi dərdim
Nə süd oldu, nə əlacım, quzumu suya göndərdim
Yolu bağlıdı dəryanın balam laylay gülüm laylay

Fələk mənilən sözə gəldi cəfasında başa çıxdı
Əvvəl dünya mənim oldu, əlim axər boşa çıxdı
Qara bəxtim elə döndü bir içim su daşa çıxdı
Sudan ərzan axıb qanın balam laylay gülüm laylay

Ərəbdə kim oğul doğsa, çox ellərdə budur qayda
Nəzir-niyaz edər daim əməyindən görə fayda
Onu gözdən qorur hər gün, ona qurban kəsər ayda
Mən olam gündə qurbanın balam laylay gülüm laylay

Gecələr yatmaram, yatmaz necə ki, göydə ulduzlar
Məni tək qoydular sənsiz atasızlar, oğulsuzlar
Dolanmır dovrəmə indi sənə laylay deyən qızlar
Özüm olam nəvaxanın balam laylay gülüm laylay

# Vida növhəsi (sinəzən)

Xudahafiz ey anam bacı ağlama yana-yana
Rüqəyyəmi saxla mən gedim cilvəqahi canana

Mən gərək batam qanə, qan axa bu meydana
Yol çəkəm qızıl qandan xətti seyri-Qurana

Gərək deyəm xəncər altda mən ya Ğəfuru ya Allah
Şəhid olam qətli səbrilən teşnə fi səbilillah
Kəsik boğazilə səslənəm la ilahə illəllah
Cahanda nabud ola büt -o- bütpərəst -o- bütxana
Mən gərək batam qana, qan axa bu meydana

Yeziddən biz alaq gərək həqqi xəlqi-məhrumu
Xilas edək qeydi-zülmidən bigünah -o- məzlumu
Həmişə leyk batil eləyək şayiati məsmumu
Cahanı bu inqilab ilən döndərək gülüstana
Mən gərək batam qanə, qan axa bu meydana

Yezid əgər söhbət eyləsə taci-zərnişanından
Şəmatətu-tənə başlasa fəthi dasitanından
Vurarsan öz moşti-möhkəmin hərzəqu dəhanından
Kifayət eylər o moşt özü məğzi puçi-məstanə
Mən gərək batam qanə, qan axa bu meydana

Gözəl bacım, şirizən bacım, yavərim, həvadarım
Ölüb Əbbasım, ələm yatıb, sənsən indi sərdarım
Bu qanları qoyma məhv ola qəhrəman ələmdarım
Mübəlliğ ol Şam və Kufədə məktəbi şəhidana
Mən gərək batam qanə, qan axa bu meydana

Şəhadətə mayiləm bacı mən bir imtiyaz üstə
Dua edə qanlı ləblərim şiəmi niyaz üstə
Namazı payəndə etməyə baş verəm namaz üstə
Mənazili səcdəgah edəm, məscidi əzaxana
Mən gərək batam qanə, qan axa bu meydana

Bu yollarda can sənin bacı, can yətimə qızların
Müvazib ol məqsədə yetir naxoşilə bimarın
Dəməşqdə səngər eyləyin siz xərabə divarın
Mübarək olsun Rüqəyyəmə paytəxti-biganə
Mən gərək batam qanə, qan axa bu meydana

Fələk demir Ali-Haşimin evlərində kim qaldı

Bizi vətəndən ayırmağa bilmirəm nə kam aldı

Bu nazpərvərdə qızları gətdi çöllərə saldı

Bir iddəsin Kərbəlaya, bir iddə Şami-virana

Mən gərək batam qanə, qan axa bu meydana

Xətərlidir bu səfər bacı, himmət eylə yollarda

Yətimlərə Həqq rizasına xidmət eylə yollarda

Rübabidən çox xəcalətəm hörmət eylə yollarda

Məbad, oğul dağı səxt ola üz qoya biyabana

Mən gərək batam qanə, qan axa bu meydana

# İmam Hüseyn (ə) höccəti tamamlayır (sinəzən və cuşi)

Ey üzü qara kufiyan aləmə müqtəda mənəm

Mehvəri-afərineşə nöqteyi-ibtida mənəm

Kufəlilər nədən belə zülmidə şiddət eylisiz

Dövrələyib qonaqızı qəsdi cəsarət eylisiz

Cəddimə moqeyi əzan ərzi-iradət eylisiz

Bir ayılın həya edin, varisi Mustafa mənəm

Cani-Məsihi qurtaran qeydi tənabi daridən
Səs yaradan Kəlim üçün şöleyi-nur və naridən
Müjdə verib Hüseynə də feyzi-hüzur yaradan
Qorxma deyib Hüseyni Mən, qanına xunbaha mənəm

Xilqət olanda ibtida mən hələ nuri-nabidən
Pərdəneşini-aləmi xəlvətu-ehticabidən
Adəm olanda ab -o- gil mən gül idim, gülab idim
İndi də küllü aləmə sərvəru-müqtəda mənəm

Şimri görün haralıdı, mən gülü-bağı-Heydərəm
Xarici Sədin oğludu, mən nəveyi-Peyəmbərəm
Əbtəhiyəm, Hicaziyəm, Haşimiyəm, dilavərəm
Şəhpəri-Cəbrəyilidə ərşə gedən bala mənəm

Fikr edisiz bu bikəsin yoxdu əlində çarəsi
Abi-həyatə hökm edər qızlarımın nəzarəsi
Nəhri-Fəratı qaytarar Əsğərimin işarəsi
Qayideyi-təsərrüfün rəmzinə aşina mənəm

Vardı Yezidilən əgər sizlərin əhdu-beyətiz
Dinizi satmısız hanı bəs ərəbi həmiyyətiz
Yüngülümüş diyanətiz üstə gedibdi qeyrətiz
Qeyrət elə bizimkidir, məzhəri-Mürtəza mənəm

Mənki bu ləhni-nərmilən moizə eylərəm sizə
İstərəm eyliyə dua tahireyi-hərəm sizə
Qəddimi qardaşım büküb, yoxsa baş əymərəm sizə
Məntəqeyi-Hicazidə indi fəqət ağa mənəm

Rəhmə gətirmədi sizi əllərim üstəki bala
Əllərim üstən oğlumu bir nəfər olmadı ala
Sizdə yox idi mərifət mən də ki, baxmadım dala
Gəldi həbibimin səsi bu balaya cəza mənəm

Ləblərinə dua mənəm, mətləbinə əda mənəm
Qanına xunbaha mənəm, canına aşina mənəm
Yarasına dəva mənəm, sinəsinə şəfa mənəm
Bu balanın anasına səbri edən əta mənəm

Seyli-sireşki ya Hüseyn qanlı camala bağlama
Təlli enincə xeyməyə səbr elə sinə dağlama
Hərmələni sevindirib düşmən içində ağlama
Səbru-səbatı artırıb ruha verən səfa mənəm

Əsğərin məqamının ərşə dayandı payəsi
Müjdə verib Rübaba de yox daxı süd gilayəsi
Minnətini çəkə-çəkə hurilər oldu dayəsi
Hər biri süd verib deyər bu balaya ana mənəm

Mərəkeyi-ələstudə dəsti-girehqoşa mənəm
Zibhi əzimi teşnələb cənnətə rahnüma mənəm
Hökmi-zəruri əcəl, şərti qəbulu mənəm
Əhli-yəqinə mahəsəl qiblə mənəm, dua mənəm

Kəbeyi-qürbu-mənzələt məşəri-lütfu-mərhəmət
Zəmzəmi-əhli-mərifət, Mərvə mənəm, Səfa mənəm
Gohəri-taci-innəma, məzhəri-şahi-qul kəfa
Məfxəri-miri-Həl-Əta, məşəli-ihtəda mənəm

İlləti-ibtida mənəm, xilqətə müntəha mənəm
Salisi ovsiya mənəm, varisi-ənbiya mənəm
Nur mənəm, şəcər mənəm, nəxl mənəm, səmər mənəm
Fəth mənəm, zəfər mənəm, nitq mənəm, səda mənəm

Miri-şəbabi-cənnətəm, baği-behiştə zinətəm
Mən səməri-nübüvvətəm, meyveyi-istəfa mənəm
Qüssələrə, bəlalara, möhnətu-ibtilalara
Yüz belə Kərbəlalara dildən olan riza mənəm

## Əba Əbdillah Hüseynin (ə) şücaəti

Verdin ey çərx nədən fürsəti əşrar əlinə
Rişteyi-kar keçib mərdi-təbəhkar əlinə

Nə rəva bülbül o zövqilə qəfəsdə yaşaya
Gül o əndazə lətafətlə düşə xar əlinə
Hökmi-zindan verilə Yusifə təqvayə görə
Misir qəbzə ola bir hakimi cəbbar əlinə
Sən məgər sahir idin rəmzi-tilsimatilə

Qorxudan tapşıarsan gənci siyəh mar əlinə
Nə səlahidi əmir etdin Übeydullahı
Verər aqil necə qəddarəni ğəzzar əlinə
Vurula sikkeyi-İslam Yezidin adına
Verilə səngəri-din şaribu-xummar əlinə
İxtiyarat alına sahibi-təqvadan əgər
Tapşırallar səri-Yəhyanı zinakar əlinə
Beyət etməz Əbi Əbdullah, Übeydullaha
Sariban zülmünü hərçənd edə təkrar əlinə
Yetişib cahu-məqama hamı qəddarə keşan
Bəndələr bənd çəkib zübdeyi-əhrar əlinə
Hikmət ilən bir işin oldu pəsəndidə fəqət
Zülfüqar irs yetişdi şəhi-əbrar əlinə
Gərçi dörd oğlu ölüb altı cavan qardaşı
Az qalır itrəti-məqhur ola əğyar əlinə
Özü tək, dövrəsi düşmən, ürəyi, dağlı, susuz
Bir nəfər yox verə əl həqqi təfərdar əlinə
Başının üstə hərarət, ayağı altda qübar
Dörd tərəf düşmən alıb nizeyi-xunxar əlinə
Sevinərlər o qədər ərsədə yalqızlığına

Sanki dərrəndə salıb tömeyi-pərvar əlinə

Bəli fikr eylədilər zəf tutub əndamın

Zində təslim olacaq ləşgəri cərrar əlinə

Zülcənah üstə düzəltdi bükülən qəddin imam

Səflərə baxdı gələ nəqşeyi-peykar əlinə

Dedi ləşgər sizi üç əmrə müxəyyər edirəm

Bu üçündən birini tapşırın iqrar əlinə

Ya qoyun baş götürüm, qorxulu qızlarım ilən

Üz qoyum çöllərə baş verməyim əşrar əlinə

Ya bir az su verin əvvəl mənə yandı cigərim

Anadan irsdi su itrəti-əthar əlinə

Ya əgər yoxdu sizin cəngdən ayrı hədəfiz

Köməyim yoxdu mənim göz tikəm ənsar əlinə

Mən təkəm cəngimə tək-tək gəlin ey qomi-şərir

Ta verim hər nəfərin batilə tumar əlinə

Tənbetən cəngi qəbul etdi fəqət Səd oğlu

Özüdə qıldı tamaşa gələ meyar əlinə

Bir Yezid adlı kişi Əbtəhi şöhrət məlun

Çıxdı səfdən alıb öz canını murdar əlinə

Açdı ağzın diyəsən ki, açılıb qəbri Yezid

Sibqət etdi nəcis ağzındakı qoftar əlinə
Nasəza başladı mərdani-səzavar həqqə
Naqeyi-əskəri şeytan verib əfsar əlinə
Mərkəbi-küfrə edib Ayişeyi-nəfsi səvar
Tapşırıb əhdi Rəsulullahı inkar əlinə
Sağ rikabından ayağın çıxardıb bikəs imam
Sol rikab üstə salıb ləngəri-besyar əlinə
Özü bir fənnidi bu kim sola ləngər salsa
Sağ tərəfdən yığışar qüdrəti-sərşar əlinə
Bir qılınc vurdu o namərdə bu keyfiyyətilən
Oldu Cəbrəili-əmin sidqilə zəvvar əlinə
Dedi zalım məni sən olma adamsız gördün
Verməræm ləhzə aman yüz belə küffar əlinə
Zori-bazuyi-vilayət hələ sərbəstə qalıb
Zülfüqar almamışam xaliqi-qəhhar əlinə
Astinimdən əgər dəsti-vilayət çıxaram
Yetməz öz peykərimin zəhmətu-azar əlinə
Bir nəfər zində qutarmaz apara şəhrə xəbər
Kufədən ibn Ziyadın verə amar əlinə
Əlqərəz bir belə ixtaru-nəsihətlə yenə

Oldu bir ayrı mübarizdə giriftar əlinə

Ona da vurdu solundan üfüqi bir şəmşir

Başı lənət oxudu göydə təməkar əlinə

Gəldi bir-bir var idi kimdə bir az badi-dəmağ

Dəymədi qanları da höccəti dadar əlinə

Zülfüqar etdi əcəb qabizul-ərvahə kömək

Başları yolladı pişvaz edə həmkar əlinə

Keçdi səflər dalına farisu-şəcani-ərəb

Şimr alıb rişi-Ömər Sədi bərəsdar əlinə

Dedi bu cəngi qəbul eylədin axər niyə sən

Zübdə sərkərdələrim yandı şərərbar əlinə

Dedi mən fikr elədim oğlu ölənlən tərəfəm

Şiri-ğəzban qocalan vəqtə, nə zinhar əlinə

Qoymadız Kəbədə etsin onu rəmyi-cəmərə

İndi başları yığır daş kimi fəxxar əlinə

Vurar əda başını daş yerinə iblisə

Həcci təkmil olacan tapşıra dildar əlinə

Həmlə fərmanı verim indi bu saysız qoşuna

Fitnədən bənd çəkim Heydəri Kərrar əlinə

Nəhri-Əlqəm tərəfin xali edin mərəkəyə

Bağlayım hiylə tənabın bu fədakar əlinə
Bu qəribin yolu düşsə su kənarından əgər
Qolları süst olacaq baxsa ələmdar əlinə
Şimr səslədi bu roşəndi ki, Zil-coşən atam
Məkridə baş gələr iblisin o məkkar əlinə
Bu şahın qollarını bağlasa, Zeynəb bağlar
Zeynəbin naləsi forən edər ixtar əlinə
Mən özüm xeymələrin dorələyim, siz də özün
Verməyək möhlət onun saiqə rəftar əlinə
Vurdular təbli-yürüş yüz min əduvullahə
Aldı hər kəs yenə bir zəhrili əbzar əlinə
Baş açıb Fatimə, sidqilə edib razu-niyaz
Bu qərib oğlumun Allah özün ol yar əlinə
Zülcənah oldu fəqət yalqız imamın köməyi
Əllərin qozadı sibqət edə salar əlinə
Qulağın şəhlədi bir şihə çəkib qızdı gözü
Rakib və mərkəb edib həmlə kamandar əlinə
Səfi-əvvəldə tələf etdilər yetmiş nəfəri
Səfi-dovvomda olub qorxu giriftar əlinə
Qaçaqaç düşdü səfi-çəharomi sevvom yıxdı

Səfi-pəncomda şikəst oldu səzavar əlinə
Bu həyahuda yetib xeyməyə Şimrin qoşunu
Saçların aldı yenə xeymədə qızlar əlinə
Qolu süst oldu imamın çəkib əl dəvadan
Zeynəbin aldı səsin oldu nigəhdar əlinə
Dedi ey ləşgəri-napaki-Əbu Sufyani
Dinizi verdiz əcəb dirhəmu-dinar əlinə
Din yoxuz barı cavanmərd olun ey qovmi şərir
Əyməyin boynuzu biqeyrət -o- biar əlinə
Mən ilən cəng edisiz ta nə qədər var nəfəsim
Dəyməsin qəmçi gərək Zeynəbi-biyar əlinə
Şimr bir bang verib ləşgər əqəbgərd elədi
Etdi tətil cəfa hökmünü həmvar əlinə
Dedi bu kufvi-kərimin sözün icra eləyin
Alsın əmmaməsini Əhmədi-Muxtar əlinə
O şahı dorələdi muru-mələxtək ox atan
Səngpərranlar əyildi alıb əhcar əlinə
Səcdəgahından axıb gül üzünə sarəllah
Köynəyinin ətəyin aldı gohərbar əlinə
Qozanıb koynək olub daği-Əli Əkbər əyan

İş düşüb Hərməleyi-şumu-təbəhkar əlinə

Dedi üçpər oxun üçüncüsüdü şahid olun

İndi qızları alar zülfi-səmənbar əlinə

O şəqinin də oxun çərx yetirdi hədəfə

Etdi sarəllahı isari-nigunsar əlinə

Sındı sənduq, olub əsrari-şəhadət cari

Cənnəti-təcri min təhtihəl-ənhar əlinə

Dedi la hovla vəla quvvətə illa billah

Yaralı başı düşüb Şimrin o xunxar əlinə

# İnqilab duası

Barəkəllah ərteşi-İranı Allah saxlasın

Cəngcuyani bəlagərdanı Allah saxlasın

Bundan artıq ərteşi-Səddama fürsət verməsin

Fitnədən zərxiz olan ostani Allah saxlasın

Payidar olsun bizim fərmandehi küllü-qüva

Ömrü batofiq ola tolani Allah saxlasın

Düşmənin etsin hidayət ya ki, məhvu-müzməhil

Etsə gər təyid hər ruhani Allah saxlasın

Xamenei yəni rəisi küllü cümhuri-vətən

Seyyidi məhbub və baimanı Allah saxlasın
Rəhbərə düşməndi kim, düşmən tutar bu seyyidi
Xəlq üçün bu neməti-ərzani Allah saxlasın
Peyrovi xətti Xomeynidir bəradər Xamenei
Ləkədən pakizədir damanı Allah saxlasın
İntixab eylib onu bir xəlqi hifdəh milyoni
Məmləkətdə ərzişi aranı Allah saxlasın
Kim ona düşmən ola, düşməndi hifdəh milyona
Rəyilən təyid olun peymanı Allah saxlasın
Bəzilər xəsmanə hər məclisdə eylər qeybətin
Millətə məhbub olan cananı Allah saxlasın
Cəbhələrdə, səhnələrdə ruzu-şəb amadədir
Eylir çün Nuh kəştibani Allah saxlasın
Kəlmeyi ya ləytəna əlan deyil minbər sözü
Cəbhədə ya ləytəna quyanı Allah saxlasın
Düz Fəratın guşəsindən həqqu-batil cəng edir
Peyrəvani-məktəbi-Quranı Allah saxlasın
Gəlməsə Əbbas ağam dadə gilayə eylərik
Çün yaxındır Kərbəla meydanı Allah saxlasın
Hizbi-şeytan bu əvamunnası forən aldadır

Şərru-məkrindən zəif imanı Allah saxlasın
Meytəxaran bir donuztək şərqdən etmiş hücum
Fitnəsindən kəsir afanı Allah saxlasın
Qərbidən də göz tikib kaftari-şumu-nəftxar
Reyqanın çıxsın gözü, İranı Allah saxlasın
Yer üzündə hisseyi-İran Əlinin mülküdür
Şeş cəhətdən keşvəri movlanı Allah saxlasın
İndi varımdır İmami-Əsr Əlinin mülkünə
Şiə mərzin hifz edən sultanı Allah saxlasın
Həzrəti Höccət gəzir indi Fəratın sahilin
Yad edib ağlır ləbi-ətşanı Allah saxlasın
Ləşgəri-İslama baxdıqca edir sidqən dua
Səsləni bəh-bəh bizim İranı Allah saxlasın
Şuri-Aşura düşüb bu nocəvanlar başına
Başlarında şuri-Aşuranı Allah saxlasın
Cəddimin həl min muini naləsi etmiş əsər
Cuş edir hər başda əlan qanı Allah saxlasın
Ey Xomeyni bir belə sərbazilən xoş halına
Bir fəqihin bir belə əvanı Allah saxlasın
Niskil olsun cəddimə bu ərteşi bist milyoni

Səndən eylər cümlə poştebanı Allah saxlasın
İnqilabından sənin qan verdi yetmiş min şəhid
Var onun yetmiş iki qurbanı Allah saxlasın
Allah Allah onda bəs hardaydı bu iranlılar
Hifz edillər qanilən Quranı Allah saxlasın
Onda olsaydı bular səslərdilər ləbbeyk Hüseyn
Qıllıq icra sən verən fərmanı Allah saxlasın
Əmməmi qoymazdılar Şimrilə olsun rubəru
Sahibani-himməti-valanı Allah saxlasın
Qırx nəfər qara ləçək üz qoydu birdən məqtələ
Peyrəvani-Zeynəbi-Kübranı Allah saxlasın
Şimr fikr etdi yəqin Zeynəb gəlir yalvarmağa
Şərri-istikbardan insanı Allah saxlasın
Səhlidir yalvaramadı, səsləndi yəbnəz-zaniyə
Covru-zülmündən sənin dünyanı Allah saxlasın
Bu sınıq minbərdə durma düş yerə ey bihəya
Titrir ərşin payə və imkanı Allah saxlasın
Şimri çəkdi saldı hasil ərşi-minbərdən yerə
Roşən etdi dideyi-Zəhranı Allah saxlasın
Səslədi ya Fatimə gəl Zeynəbin fəryadına

Şiddəti-qəmdən məni-nalanı Allah saxlasın
Gəl edər rəngin Hüseyn qanilə bu ağ saçları
Zülfümüzdə həşrcək bu qanı Allah saxlasın
Ya Hüseyn əşarımız bieyb -o- binöqsan deyil
Təbi-şeri bisəru-samani Allah saxlasın
Ey Süleyman Münzəvidən kəsmə bir an lütfünü
Div əlindən bu gözəl divanı Allah saxlasın

# İmam Hüseynin (ə) münacatı

Mən payibəndi əhdu-peymanam Allah Allah
Hökmün nədir mütiyi-fərmanam Allah Allah
Sən şahid ol ətəşdən suzanam Allah Allah
Mən hər kiməm bu qovma mehmanam Allah Allah

Ayati möhkəmatın çün Ha və Mimiyəm mən
Sinayi-Kərbəlanın ətşan Kəlimiyəm mən
Qurban kəsən Xəlilin zibhi-əzimiyəm mən
Öz qatilimlə hətta çox-çox səmimiyəm mən
Amma o rəhmə gəlmir heyranam Allah Allah

Bizdən uzaqdı  vallah bu xari və məzəllət
Beyət edək Yezidə olsun məzidi-qüdrət
Zillətə əymərik baş, biz Haşimi cəmaət
Dünya Yezidin olsun, bəsdir bizə şəhadət
Quran yolunda mərdi-meydanam Allah Allah

Bir gün ki, zülmi-Osman xəlqi gətirdi zarə
Əfradi-inqilabi saldı onu hisarə
Çiynimdə su daşırdım ətfali-biqərara
Su vermədi bu millət bir tifli-şirixarə
Məbhuti-kinu-xəşmi-insanam Allah Allah

Bəhri-bəlada oldu kəştiyi-can şikəstə
Həmbadələr töküldü qərq oldu dəstə-dəstə
Versin nə qədri badə yox, yoxdu meypərəstə
Göndər nə ibtila var söz vermişəm ələstə
Mən Nuhi-sərberahi-tufanam Allah Allah

Yol saldım aşiqanə çün şahrahi-eşqə
Hər yeddi şəhri keçdim ta pərtigahi eşqə

Gəldi bəla sıxıldım forən pənahi-eşqə
Qoydum susuz, yaralı baş səcdəgahi eşqə
Möhtaci əfvu-rəhməmu-ehsanam Allah Allah

Yunus kimin düşəm gər zindani bətni hutə
Şəkvaya açmaram dil, eşqim yetər sübutə
Min il idamə verrəm hey səcdə və qünutə
Canım əgər əritsə min cangüzari butə
Rüxsareyi-möhkəmdə yeksanam Allah Allah

Mən xeymədən çıxanda gəldi bacım nəvayə
Va qürbəta sədası ovc etdi nöh səmayə
Oldum sənin yolunda biganə aşinayə
Gördün necə hərəmlər aldı məni arayə
Mən şəm idim, Rüqəyyə pərvanəm Allah Allah

Dildə edib tərəktul-xəlqi iadə gəldim
Didari-yarı etdim qəsdu-iradə gəldim
Nazlı qızım Rüqəyyə qaldı aradə gəldim
Əkbər cənazəsin mən qoydum əbadə gəldim

Əlanda söhbətindən giryanam Allah Allah

## Rəbbul-ərbabın İmam Hüseynə (ə) təsəlli verməsi və təşəkkür etməsi

Cismində çoxdu yarə, əhsən həbibim əhsən

Tez gəl hüzuri-yarə, əhsən həbibim əhsən

Cənnət sənin Hüseynim, qismət sənin Hüseynim

Bəsdir bu bir işarə, əhsən həbibim əhsən

Verdin fürui-dinə qandan səfa həbibi

Etdin namazı qaim səd mərhəba həbibi

Bu qanlı ləblərinlə eylə dua həbibi

Əlan dua qayıtmaz fürsətdi ya həbibi

Qıl ərşə bir nəzarə əhsən həbibim əhsən

Cənnətdə var nə qədri zibu-səfa sənindir

Nəhri-ləbən sərasər abu-həva sənindir

Əfvu-qəzəb sənindir, əcru-cəza sənindir

Meydanda imtahanda dərdu-bəla sənindir

Səntək vəfa şüarə əhsən həbibim əhsən

Əsil xəlil sənsən, ali mina sənindir
Əkbər kimi zibhi-gülgün qəba sənindir
Xeyməndə pəhn olunmuş qanlı əba sənindir
Biçarəyə nə çarə əhsən həbibim əhsən

Fərzəndi bavəfayi-şiri-Xuda sənindir
Qolsuz yatan su üstə sahib liva sənindir
Bir cüt qol ki, oldu təndən cüda sənindir
Ol məşgi-əşg rizan ey bavəfa sənindir
Ox dəydi oldu parə əhsən həbibim əhsən

Pərbəstə əndəlib, dastansəra sənindir
Qumruyi-sorxruyu-kakil təla sənindir
Qol bağlı altı aylıq dilsiz bala sənindir
Nazik boğazda hətta möhlik yara sənindir
Dəfn oldu rigzarə əhsən həbibim əhsən

Toy bəzminə salınmış şali-əza sənindir
Şəmi qəra boyanmış no kədxuda sənindir

Xeyməndəki ərusi-bəxti qara sənindir
Damadının əlnidə qanlı həna sənindir
Zinətdi bəzmi yarə əhsən həbibim əhsən

Məqtəldə səcdəgahi zikru-dua sənindir
Təbliği-dini-həqqə noki-cida sənindir
Küncü tənuri-Xuli mətbəx səra sənindir
Viranə Zeynəbindi, Kərbübəla sənindir
Xəlvətdi razidarə əhsən həbibim əhsən

Bəzmi-şərabə zinət təşti təla sənindir
Ləblərdə Allah Allah tazə yara sənindir
Sən məşəli-hidayət fulki-nəca sənindir
Möhrü-nəmazi-ümmət, xaki-şəfa sənindir
Bu rəmzi inhisarə əhsən həbibim əhsən

Hər yerdə olsa bərpa bəzmi-əza sənindir
Göz yaşına yazılmış xeyrul-cəza sənindir
Dünyada, axirətdə dərdə dəva sənindir
Bimara, qərzdara əhsən həbibim əhsən

# Xeymələrin qarət olunması (cuşi)

Toz yatdı, qopdu Allah qoğa Hüseynə xatir
Düşdü bəlayə Ali-Taha Hüseynə xatir

Od vurdular xiyamə çarə fərarə qaldı
Ətrafı aldı düşmən əldə nə çarə qaldı
Qaçdı qaçan, qalanlar qəlbində yarə qaldı
Zeynəb dedi əlacım Pərvərdigarə qaldı
Kimdir pənahi Zeynəb, aya Hüseynə xatir

Ravi deyir ki, gördüm bir xırda qız uşağın
Pirahəni yanırdı ol qəmkeşi fəraqın
At saldım eyləyim ta xamuş ehtiraqın
Durdu salam verdi görsətdi tez qulaqın
Yəni məni soyublar vurma Hüseynə xatir

Ərz etdim istəmirdim mən guşivarə səndən
Çün düşmüşəm dalınca od camənə döşəndi
Fərmayiş etdi ya şeyx, qəlbim yanır dünəndən

Vacibdi dil-dodağım bu odlu pirəhəndən
Əhvalıma nəzər qıl ağla Hüseynə xatir

Bir cam doldurub su verdim o məhliqaya
Gizlətdi məcər altda qaçdı hərəmsəraya
Səsləndim ay xanım qız salma başın bəlaya
Əyləş suyu özün iç nifrin qıl əşqiyaya
Amin desin anası Zəhra Hüseynə xatir

Nəqş oldu xatirində bu mehru, bu məhəbbət
Alnında səcdə dağın bildi gözəl əlamət
Zəcri görəndə düşdü yada həmin şəbahət
Fikr etdi səcdə rəddin sərmayeyi-mürüvvət
Bilmirdi Zəcr qoymaz bica Hüseynə xatir

Səsləndi bir həya qıl zalım bu göz yaşımdan
Bəxtimdən ayrı düşdüm öz yaru-yoldaşımdan
Yoxdur xəbər əmimdən, qeyrətli qardaşımdan
Öldürməyə gəlibsən vur qəmçini başımdan
Ya zində tut əsiri saxla Hüseynə xatir

Mən bir nəfər yətiməm, Allah rizası vurma

Olmuş qabar ayağım, ağrır yarası vurma

Forən çatar yətimin ərşə duası vurma

Ölləm əgər açılsa başım qarası vurma

Kəşf olmasın hicabım hətta Hüseynə xatir

Kim inciyibdi bilməm ahu-fəğanımızdan

Düşdüm uzaq gecəylə öz karivanımızdan

Avarə xanəmizdən həm xanimanımızdan

Heç bilmirəm nə istir Şam əhli canımızdan

Eylir bizə bu qədri iza Hüseynə xatir

# Qəmə vuranların rəcəzi

Mərhum Münzəvi bu rəcəzi 1320 şəmsi ilində (m.1961) mərhum Hacı Ənvər ilə birlikdə yazmışdır və yadigar ünvanı ilə təqdim edirik.

Kim aşiq olsa qan qaynar başında

Yazar ya ləytəna xəncər başında

Qərəz ya ləytəna kunna məəkdən
Hüseynə ərzi eşq elər ürəkdən
Bilinməz eşq əyarı heç məhəkdən
Məhək xəncərdi aşiqlər başında

Vəfadar aşiq eşqinin həddindən
Fəna olsa dolanmaz niyyətindən
Dəlilim vardı eşqin qüdrətindən
Vurar pərvanə şamın pər başında

Münəzzəh qəlbdir eşqin əmini
Həmişə dərk edər həqqul-yəqini
Yəqin və həqq bilər sultani dini
Varıdı eşq canpərvər başında

Keçirtdi məşəli dilbəndi Zəhra
Dedi getsin həvəsbazani dünya
O yetmiş bir nəfərdən qeyri onda
Hüseynin qalmadı yavər başında

Hüseynin teşnə zibh olmuş boğazı
Onun məqtəldəki qan dəstəmazı
O halətdə iki rəkət namazı
Bizə bəsdir səfi məhşər başında

Görəndə xəncər altda şahı Zeynəb
Şəhamət göstərib vəllahi Zeynəb
Xəcalət etdi mehru-mahı Zeynəb
Qaçanda baş açıq əllər başında

Yatıb gün oldu tufan müfəssəl
Sınıq gəhvarətək tərpəndi məqtəl
Gəlibdir qəflətən qodalə Bəcdəl
Varidi eşqi ənquştər başında

Məsihə can verib ruhu lətifi
Məqami eşqidə yoxdur hərifi
Gəzəndə Kufədə rəsi şərifi
Göründü taci xakistər başında

Atıb məlunə orət ğürfədən daş

Yaralandı cidada ol kəsik baş

Yarıb başın bacı səsləndi qardaş

Batıb qana qara məcər başında

## Şami-qəriban (sinəzən və cuşi)

O bülbüləm xəzan olan çəməndə qorxuram baba

Günortadan o qarə yel əsəndə qorxuram baba

Çıxanda indi xeymədən gözüm baxardı sağ-sola

Bələdçi olmasa çətin gecə yol aşikar ola

Dedim çıxım o təllidən baxım babam gedən yola

Nə gördüm onda təllidən enəndə qorxuram baba

Görəndən Zülcənahının ayağının əlamətin

Yəqinin oldu tapmışam yolun bu bəzmi xəlvətin

Yıxıldım onda səcdəsin edəm bu şükrü nemətin

Gözüm qaraldı kölgəmi görəndə qorxuram baba

Çıxıbdı ay parıldadır şikəstə nizə, xəncəri

O ağ qanadlı quşların düşüb yol üstə şəhpəri
Qaraltıdan, sızıltıdan gəlir mənə əcəl təri
Ayağıma tikan batır çəkəndə qorxuram baba

Gəlir mənim xəyalıma nə qədri qorxulu nüma
Ayın da nuru kölgəmi kəzayi nəqş edib quma
Bu saçlarım o kölgədə vurubdu həlqə boynuma
Ki, bənzər öz hörüklərim kəməndə qorxuram baba

Əyilləm istərəm baxam ayağım altda yaraya
Çox oxşar onda könlümün misalı gahivarəyə
Xəyali gahivarədə baxanda şirixarəyə
Təxəyyülü dodaqların əməndə qorxuram baba

Xəyal aləmində də bəhanə salmışam ələ
Özüm beşik düzəldirəm ki, bəlkə ruhu dincələ
Kəmanədən xəyalıma düşür kəmani Hərmələ
Bu mənzərə xəyalıma gələndə qorxuram baba

Bu mənzərə, bu Hərmələ vərayi vəhmu-zənnidi

Şil olsun ox atan əli nə qədri əhli fənnidi
O üçpər ox ki, ruyihəm susuz boğazdan ennidi
Minəl-uzun iləl-uzun kəsəndə qorxuram baba

Bu qəmli xatiratımın özün sil indi nəqşəsin
Məni çağır yavaş-yavaş səsini Şimr eşitməsin
O kimdi qətligahına salıb həyuli kölgəsin
Əlində hərbə sağ-sola keçəndə qorxuram baba

O kimdi qanlı xəncəri töbükdü tazə qan yerə
Bu qədri qalxır, əyləşir, baxır o sən yatan yerə
O getdi kimdi bu xanım döşəndi bağrı qan yerə
Gözüm qalıbdı hər gəlib gedəndə qorxuram baba

Verib səs ol xanım dedi: çox eyləmə fəğan qızım
Qabağa gəl bu mən yanan od içrə sən də yan qızım
Mənəm bəlalı Fatimə, o kölgə sariban qızım
Özümdə qanlı əlləri öpəndə qorxuram baba

Götür bu qara məcəri sən oxşa qoy mən ağlayım

Bu parə-parə peykəri sən oxşa qoy mən ağlayım

Öpək bu qanlı əlləri sən oxşa qoy mən ağlayım

Denən bu yarə tazə qan verəndə qorxuram baba

Bu Münzəvidi şairi həqir əhli Ərdəbil

Hər il Hüseyn əzasına gəlir dilində əd-dəxil

Hayanda ölsəm, ölmüşəm cənazəm olmasın zəlil

Həmişə mülki qürbəti gəzəndə qorxuram baba

# Həzrət Zeynəbin (s.ə) inqilabı

**Həzrət Zeynəbin (s.ə) Kufə valisinə sərt xitabı**

Ey ibn Ziyad pəst fitrət

Alullahın izzu-cahı vardı

Sizlərdə də fisqu-kizbu-böhtan

Bizdə nəzəri ilahi vardı

Azadlıq əgər verilsə xəlqə

İbrazi əqidə və mərama

Sorğu-sualsız həmin bu millət

Beyət əlini verər imamə

Səslər hamı şovqu-rəğbətilən
Qurandı bizə məramnamə
Onda görərsən siyasətində
Ərbabının iştibahı vardı

Billah ki, bizimkidir xilafət
Qəsd etdi bu xanədani-mənfur
İmanı zəif əhli Kufə
Eylibdi babam Əlini məcbur
Məkrilə fəqət müsəllət oldu
Xəlqə bu əmiri qeyri məmur
Nə müntəxəb və nə müntəsəbdir
Sərnizə ilən rifahı vardı

Hərçənd Yezid Müaviyyə ilən
Zahirdə hələ pedər-pesərdi
Batində vəli o səg, bu tulə
Həqqən hər ikisi bipedərdi
İslamın evində küfrü mütləq
Naxande qonaq kimin göyərdi

Məlunədi saq və rişəsindən
İslamnəma giyahı vardı

Təxt üstə oturdu qasibanə
Əmr etdi bir iddə nabikarə
Aqq oldu Əliyyi Mürtəzayə
Qan qalmadı tökdü ruzigarə
Hücr ibn Ədilər öldürənlər
Zülmilə yetişdi iqtidarə
Axırda aşar daşar bu qanlar
Məlum olur dadxahi vardı

Ey moqeyi biyət and içəndə
Qurana cəsarət eyləyənlər
Bir gün çəkillə dadiqahə
İslama xəyanət eyləyənlər
Ey kaş, Yezidi bir tanıydı
Bu ərzi iradət eyləyənlər
Yox zərrə başında əqli amma
Yaqut nişan kulahı vardı

Nabud ola bir belə əmiri
İbda edə məmləkətdə bidət
Təşviq edə fitneyi-zənani
Tətil ola nəhveyi-şəriət
Mənusi zanani pəsti rumi
Məşğuli şərab -o- şer-o-şöhrət
Məhv olsun elə əmir və məmur
Səngin dil və rusiyahı vardı

Beyət edə sahibani vəhyə
Əlbəttə gələr Yezidin arı
Çün sahibi vəhy mən edibdir
Ənvayi şərabilən qumarı
Amil elə şəxsə sən olarsan
Sərcun məsihi müstəşarı
Fürsət tapa bir gün oyanar amma
Hər möhreyi-dil bexahı vardı

Cəddim ki, zamani cahiliyyət

Gətdi sizə bu gözəl mətanı
Divarlarız təla etdi
Xorşidi nübüvvətin şüası
Əfkarıza sayə saldı əfsus
Kabusi siyahi irticai
Təsdiq eləsən atan gedən yol
Piçu-xəmu-pərtgahı vardı

Fəxr eləmə çox bu dövrü-bərdə
Rəqqsə və saqi və şərabə
Tərif elə xəlqə öz anandan
Nahaq demə Ali-Bu Turabə
Ağzın ki, şərab ilən nəcisdir
Nə həqqilə başlıbsan xitabə
Allah və Muhəmməd adı tutmaq
Bu ləblərin günahı vardı

Sən ver mənə əvvəl yaralı başı
Əşgilə yuyum, silim dodağın
Xakistəri pak edim üzündən

Mahın dağıdım kədər məhaqın
Sən lal ol, o başlasın bir ayə
Quran oxusun gör iştiyaqın
Mən həzz eləyim tilavətindən
Bax gör nə gözəl şifahı vardı

Sən hər nə bizə şəmatət etsən
Ey mürtədi şum, pəst namərd
Başım gedə dönmərəm hədəfdən
Nəmrud odu olsa eylərəm sərd
Xəncər tökələr ayağım altda
Bu yolda mən etmərəm əqəbgərd
Vacibdi dözəm hədəf yolunda
Hər möhnət və rənci rahı vardı

Ətrafını alıb əcamir, obaş
Bir iddə kəsif və bitəməddün
Beyət eyləyənlər sərapa
Aşğalu-zubalə və təəffün
Vazehdi xəmirədən ləcəndir

Şaludə və payeyi-təsənnün
Həqq şiələrindi siz də tənha
Bir dəvayi-puç və vahi vardı

Sizlərdə kəmənd, bənd və nizə
Bizlərədə şikəstə bəstə əllər
Siz teşneyi-xun və eyşu-işrət
Bir qara libas və qara məcər
Sizdəndi Üməyyə və Süməyyə
Bizdəndi Xədicə və Peyəmbər
Quran bizə behtərin müərrif
Təthir kimin güvahı vardı

Sizdən tüləqayi-fəthi Məkkə
Bizdəndi əmiri Bədr və Xeybər
Siz hasileyi-zənani bədkar
Biz tahireyi-Bətuli əthar
Sizlərdədi nəngi Ütbə və Şeybə
Bizlərdədi fəxri Həmzə və Cəfər
Alnında nişan fəzlullah

Cənnətdə bülənd cahı vardı

Tutaq, səni qoydu bu zəmanə
Öz başına hər nə bildin etdin
Verdin bizə hökmü qətl və zindan
Sən qalib olub məramə yetdin
Neylərsən o gün ki, zindəgidən
Cəbrən çəkib əl məzarə getdin
Bir zülmət evi ki, fərşi topraq
Daş balışı, təkyəgahı vardı

Nəngin dərəcəndən ötəri zalım
Qanlar töküb ellər öldürübsən
Beş günlük olan məqama xatir
Dilbəndi Peyəmbər öldürübsən
Yetmiş iki bigünah şəxsi
Bir gündə sərasər öldürübsən
Tarix vərəqlənər görərsən
Həqqin nə qəvi sipahı vardı
Axər tutacaq sizi bu qanlar

Məxsusən o şirixarə qanı
Əllər bələyində dərd ürəkdə
Axdı saralan üzarə qanı
Ölmüşdü əlizdə din və Quran
Can verdi onun dubarə qanı
Əlbəttə o qanı sən tökübsən
Məhşər günü dadiqahı vardı

Bu xırda qıza baxanda hərdəm
Nili üzün eylərəm ziyarət
Yadıma düşər anam Bətulun
Rüxsarına nəqş olan əlamət
Şimrin ki, əli həvayə qalxır
Bərpa olur Zeyəbə qiyamət
Zalımlar əlində taziyanə
Məzlumlarında ahı vardı

Mən bəndeyi-asiyəm Hüseyncan
Can məmələkətində şah sənsən
Mən şəmi məhafili əzayam

Afaqi əzada mah sənsən

Bu şairi bipənaha axər

Hər yerdə yenə pənah sənsən

Sənsiz üzü qarə Münzəvinin

Dünyada məgər pənahı vardı

# Şam yolunun əhvalatı

**Mərhum Kafi Tehran məhdiyyəsindən oxumuşdur**

Ey nəfs, nəsfi dəni ləzzəti dünyanı gəzir

Ah çəkib rəhməti həqq qəlbi pərişanı gəzir

Qətreyi-əşgi bəsər nameyi-əmalı yuyar

Atəşi ahi səhər xərməni üsyanı gəzir

Beş günün ləzzətinə salma özün dərdi-sərə

Arizu dəftəri axər xətti bütlanı gəzir

Qəbr evin yadə salar arif olan, aqil olan

Bu qaranlıq evə bir məşəli nurani gəzir

Heç çıraq yanmaz o evdə qalıb iş pənc tənə

Şiənin gözləri əvvəl gecə movlanı gəzir

Fatimə bəzmi əzada sənə xatir dolanar

Şişəsi əldə xanım dedeyi-giryanı gəzir

Bu əza məclisi vəllahi böyük nemətdi
Şühədanın gözü bu neməti üzmanı gəzir
Gördü bir şəxs Həbib ibni Məzahiri yuxuda
Ağ libasa geyinib cənnəti əlanı gəzir
Dedi xoş halına aya nə qəmin vardı sənin
Morği ruhun pər açıb şaxeyi-Tubanı gəzir
Dedi dərdim budu cənnətdə ki, əlan da gəzirəm
Məclisi təziyeyi-şahi şəhidanı gəzir
Bir doyunca ağama oxşamadım, ağlamadım
İndi də ruhum odur bəzmi əhibbanı gəzir
Biri mümkündü bu mətləbdə düşə tərdidə
Deyə göz yaşı nədir rütbeyi-şayanı gəzir
Hədəfin bilsə Hüseynin özü də qan ağlar
Din və Qurana baxan illəti əbqanı gəzir
Getməyib zuru-sitəm altına mərdani-Xuda
Kəbəni tərk eləyib dövləti Quranı gəzir
Hacılar fidyeyi-şayanı Minaya aparır
Məniyi-zibhən əzima vəli səhranı gəzir
Baxsa tarixə görər ab və təamilə Hüseyn
Nisfi şəb xaneyi-tariki yətimanı gəzir

Bivə orətlərə xatir çəkib əl dünyadan
Nizə başında başı deyri nəsarani gəzir
Sayeyi-səqfidə aram oturub ali-Yezid
Üsərayi-ələvi dəşti qəməfzanı gəzir
Hərəm ahuları, səhni şühəda cucələri
Qol-qanad bağlı o vəhşətli biyabanı gəzir
Yenə azad ola insan qoyalar öz başına
Özü təsmim tuta ac-susuz hər yanı gəzir
Nə qoyullar birini oxşamağa, ağlamağa
Qəmçi əldə başının üstə nigəhbanı gəzir
Gündə bir mənzil o yoldan olunur teyyi təriq
Qoşun əhli gecə asudə tən asani gəzir
Nizədə səri şahi şühədadandı xəbər
Özü nadan, sözü amma dili dananı gəzir
Olmadı mənzili əvvəldə deyir abu-ələf
Bir-birə düşsə qoşun neməti ərzanı gəzir
O günü teyy elədik biz iki mənzil birdən
Hamı gördüm yorulub yatmağa fərmanı gəzir
Dəvələr yorğun olanda gərək ölsün balalar
Ayaq üstə yumulub gözləri röyanı gəzir

Naqələr həlqə vurub ortada yatdı üsəra
İsmət ulduzları bipərdədi pünhanı gəzir
Bəstəri ləli bədəxşan qum ilən topraq olub
Nə biri bəstəri rahət, nə mütəkkanı gəzir
Birinin sərvəru-saları kül üstündə yata
Məgər aləmdə onun itrəti dibanı gəzir
Var idi bir qız o qızlarda vəli sinni uşaq
Kərbəladan gözüm ondaydı ki, cananı gəzir
O başı fürsətim olmadı qoyam sənduqə
Yaralı başı dedim kim şəbi zülmanı gəzir
Nizə üstə başı qoydum yerə yan-yana yataq
Gördüm ol xırdaca qız durdu qəzayanı gəzir
Boylanır hey mənə diqqətlə baxır, hey çəkilir
Görə mən yatmışam öz dərdinə dərman gəzir
Yuxu halında yalandan üzümü döndərdim
Görəm axər nədən ötrü o ləb ətşanı gəzir
Pəncəsi üstə gəlib eylədi təzim o başa
Cürət etmir götürə həlli müəmmanı gəzir
Dizlərin qoydu yerə, əllərini sağ, soluna
Dedi müddətdi gözüm bu məhi tabanı gəzir

Üz-üzə qoydu öpüb iylədi tapdı dodağın
Elə bil südəmərin ləbləri pistanı gəzir
Öpdü ərz etdi Xuda əmməmə də qismət elə
O da bu qana bələşmiş ləbu-dəndanı gəzir
Qoy onun da əvəzindən öpüm ətşan dodağın
Ləblərindən o da bu şəhdi müsəffanı gəzir
Nizədarın ola insafı mənə rəhm eləyə
Dindirib bir görə könlüm nə təmənnanı gəzir
Bağlaya nizəsinə rəsmi zəmanətlə məni
Görə başın necə ağuşi əsiranı gəzir
Məni qolbağlı tutub saxlaya, səndən çəkə əl
Məndən ərzişli məgər hansı girovqanı gəzir
Bu xəyal aləmidir nəqşə çəkib fikr edirəm
Çarəsiz dərdə düşən aləmi mənanı gəzir
Billəm ölsəm də bu başı mənə verməzlə baba
Hədiyyə rəsmilə başın məclisi əyanı gəzir
Mən fəqiranə özüm xakneşin xanə beduş
Yox məzəmmət bu başın mənzili dunanı gəzir
Söz versən mənə sən, Şamda mənzil tutaram
Ev cədid olsa əgər sahibi mehmanı gəzir

Evim olsa səni mən qoymaram özgə evinə
Yox evim yaralı başın gəzir hər yanı gəzir

# Şam yolunun əhvalatı (sinəzən və cuşi)

Əl vurma ey zalım mənə ahımla yandırram səni
Nifrin edəm qəlbin kimi daşa dolandırram səni

Yaxşı tanı ey bihəya Siddiqeyi-Kübra qızın
Qorxutma ölməkdən belə insiyyeyi-hura qızın
Allah məgər aciz edər naməhrəmə Zəhra qızın
Qarun kimi təhtüs-səra dusdaqa saldırram səni

Allah biz Ali-Heydərə verdi məqamu-mənzələt
Quran və din təbliğinə biz layiqik əz hər cəhət
Bizdə vardı mərifət olduq əsiri məsləhət
Yoxsa ölüncə çölləri heyran dolandırram səni

Baxsa göyə həsrətlə bir Zəhraya bənzər gözlərim
Fəryadıma cəddəm gələr ya inki cəddi əthərim

Eylər bəla nazil sənə göydən Xudayi-davərim
Allah əlilən kuhtək olsanda sındırram səni

Çox tünd acıqlanma mənə sən əhli Quransan əgər
Axər ayağım yarədir möhlət ver insansan əgər
Dünya dolanır başıma vurma müsəlmansan əgər
Ölsəm də mən aciz etmərəm, yalvarmaram yorram səni

Vəhşiləricə atifə xəlq etməyib Allah zalıma
Sən yanmısan, amma olar əlan yanıllar halıma
Almışdılar ətrafımı, ağlırdılar əhvalıma
Gər əmr edəm vəhşilərə mən parçalandırram səni

Məhbubi Peyğəmbərdi kim sadata hörmət eyləsə
Düşməndi alullaha da hər kim əziyyət eyləsə
Olsa müsəlman beş nəfər burda qəzavət eyləsə
Versəm nişan rüxsarımı vallah utandırram səni

Söz yox ki, sərsəxt düşməni şahi-Nəcəfsən ey dəni
Sən gör nə qədri faqidi şənu-şərəfsən ey dəni

Bir bax mənə diqqətilə gör kimlən tərəfsən ey dəni
Hey mən dedim rəhm et, dedin qana boyandırram səni

Çox da əsirəm mən sənə ehsasi qüdrət eyləmə
Sili vurub rüxsarıma təzifi ismət eyləmə
Bu taziyanənlə məni öldür ehanət eyləmə
Mən bu əməldən keyfəri kəffarə andırram səni

Fikr etmə tifləm, yalquzam, sanma gücüm çatmır sənə
Sən nizənə məğrursan, mən də Xudayi-zulmənə
Əlan çağırsam səs gələr Babul-həvaicdən mənə
Aləm pənahı həzrəti Əbbasa tapşırram səni

Məlundu Peyğəmbər qızın hər kəs vurub, hər kəs döyüb
Etməzsən azar ey dəni, bilsən məni kim bəsləyib
Kimlər çəkibdir nazımı, kim can deyib, can səsləyib
Sən xabi qəflətdə əgər olsan oyandırram səni

Əkbər atardı hey göyə, Qasım çəkərdi bir yana
Əmməm görərdi qorxuram, tez-tez deyərdi ay cana

Əbbas əmim görcək məni oğluyla bahəm yan-yana

Səslərdi ağlatsan onu, oğlum gəlib vurram səni

# Həzrət Rüqəyyənin (s.ə) qafilədən uzaq düşməsi (sinəzən)

Qoyublar çöldə ay baba, anam bacım mələr məni

Salıblar özgələr kimin gözündən əmmələr məni

Necə özün vurar suda sağa-sola sınıq gəmi

O hala qalmışam baba gözüm görəndə kölgəmi

Nə ay çıxır, nə kəhkəşan, itirmişəm düşərgəmi

Əcəl bəhanə axtarır sorağ edib gəzər məni

Qoyub gör indi bu gecə fələk kiminlə baş-başa

Bir üç yaşında qorxulu qızı salıbdı dağ-daşa

Ayaq yaralı çatmır əl nə bacıya, nə qardaşa

Mən ölməsəm də öldürər məşəqqəti səfər məni

Bu ay da çıxmır əzqəza bir az işıqda ağlayam

Ayağımın tikanların çəkib cahanı dağlayam

Açıb bu köhnə məcəri bulub yaranı bağlayam
Ürəkdə çoxdu taqətim, ayağım incidir məni

Özünə məsnəd etmisən ucada noki nizəni
Ayağın altda görmüsən ayaqlanan zəifəni
Gözündən əşgtək düşən balan yenə gəzir səni
Yetiş haraya boşlamır siyahıyi xətər məni

Qərəz qəza ilən qədər salıb ələ bəhanəni
Gecəylə Zəcri bihəya tapıb o nazidanəni
Salam verdi, titrədi görəndə taziyanəni
Dedi gözətlə vurma ey ləini fitnəgər məni

Qələm əlimdə istəmir sözü sözə hədər qata
Rüqəyyətək həvəslənir o karivana tez yetə
Gedir ki, tiri qəmzəsin gözüylə nizəyə ata
Deyə düşəndə naqədən gözətlə müxtəsər məni

Dinmərəm nələr çəkib bu karivana gəlmişəm
Bu daşlığı, tikanlığı gəlincə canə gəlmişəm

Fəqət yaralı başını edib bəhanə gəlmişəm
Dedim cidadə seyr edən yaralı çox sevir məni

Özümü moci möhnət -o- qəm -o- bəlaya vurmuşam
Gəzib tanınmayan yolu bu xəstə canı yormuşam
Qovulmuşam, yıxılmışam yenə dubarə durmuşam
Bu fikrilən ki, Zəcri dun yubansam öldürər məni

Buyur Dəməşqə bu yolun nə qədər var məsafəti
Əgər yaxındı verməyim bu karivana zəhməti
Uzaqdı tapşır əmməmə dubarə bu əmanəti
De köç edəndə eyləsin əqəlli baxəbər məni

Tikan batıb ayağıma, gül açdı, bülbül ağladı
Dözənmədi fəraqına yanıb şirin dil ağladı
Olubdu Fatimə anam düçari müşkül ağladı
Yetişdi basdı bağrına o zari didə tər məni

Düşür mənim xəyalıma vətəndəki mənazirim
Qəbilə, qonşu, tay-tuşum müqabilim, mücavirim

O izzətim, bu zillətim, o əvvəlim, bu axırım
Mədinəli öpər məni, bu kufəli döyər məni

Mədinədə dayılarım edəndə xahiş əczilə
Özünü razı etmədin gecə gedəm dayımgilə
Necə dözərsən indi sən qızın baba düşə çölə
Hüseynə sevgili bilən ayaqlayıb keçər məni

Anam deyərdi hey mənə uzağa getmə göz dəyər
Gözilən oxlar ay bala gözəl camalı bəd nəzər
Gözəlliyin, təravətin xəzanə verdi qəmçilər
Bu nili surətim daxı yetimə bənzədər məni

Rüqqəyyəcan zərihinə, rəvaqına fəda olum
Səpənmədim məzarına gözüm yaşın dolum-dolum
Deyər həmişə Münzəvi o qəbrə düşmədi yolum
Əqəlli can verən zaman sən eylə müftəxər məni

# Həzrət Rüqəyyə (ə) Şam yolunda (sinəzən)

Baba hicrində qəlbim döndü qanə ölmədim gəldim
Yıxıldım, durdum axər karivanə ölmədim gəldim

Xoş üz göstərmədi axər biz Ali-Haşimə dünya
Nə pozğun halıma baxdı, nə bir göz yaşıma dünya
Yıxıldım naqədən amma dolandı başıma dünya
Peşiman oldu dorindən zəmanə ölmədim gəldim

Deyillər vardı min cəzbə yətimin hər niqahında
Yətimə qız hara getsə gəzər Allah pənahında
Yıxan yıxdı və lakin saxlayan da saxladı zində
Yamanlıq qaldı axər saribanə ölmədim gəldim

Çuxur yerlər keçib vəhşətzədə çox təllidən aşdım
Tikanlıq gəldi daşlıq Allah Allah səslədim qaçdım
Çıxanda ay bulud altdan deyərdim bəs yoxunlaşdım
Bu Əkbər başıdır keçmiş sinana ölmədim gəldim

Gözüm qorxubdu gəzdikcə qaranlıq dəşti-səhranı
Gərək bir ləhzə gözdən qoymasınlar bu pərişanı

Mənim adım arada olmasın dər hali pünhan
Məni tapşır dubarə əmmə canə ölmədim gəldim

Sənə mən nazidanə idim görən cantək qucaqlardı
Vücudi bağibanilən kim aya gül ayaqlardı
Məni öz sağlığındaydı hamı göz üstə saxlardı
Daxi gözdən düşüb bu nəzidanə ölmədim gəldim

Qaranlıqda görüb Zəcri əvvəldə qaçmadım qaldım
Müsəlman fərz edib öz şənimi göydən yerə saldım
O namərdə salam etdim, cavabı da özüm aldım
Əsir gördüm əlində taziyanə ölmədim gəldim

Mənə Zəcr eylədi həmlə, dedim rəhm eylə ey zalım
Məni öldürmə çöllərdə apar öz əmməmə salim
Qolumdan vurdu bir qəmçi pozuldu pozğun əhvalım
Qanadım sındı amma aşiyanə ölmədim gəldim

Mənə bir bang vurdu rəşə tutdu bəndidən bəndim
O atlı, mən piyada pəstu-baladan çıxıb endim

Yanımda bağbanım olmadı soldum vərəqləndim
Saraldım gül kimi döndüm xəzanə ölmədim gəldim

Mənə rüxsət ver əlan ibn Sədi eyləyim rüsva
Deyim ey zalım mürtəd nədir bu covru-zülm aya
Necə məmurdir bu namüsəlman Zəcri bipərva
Ürək daş, əl ağır, söz amiranə, ölmədim gəldim

Evi bərbad, rəhm eylə məhəbbət qönçəsin dərmə
Cida başında bu başın sireşgin qana döndərmə
Qalanda hər uşaq çöldə dalıyca Zəcri göndərmə
Mənə baxma bu pozğun karivanə ölmədim gəldim

# Şamın Əməvi məscidində İmam Səccadın (ə) xütbəsi

Bizə dəsti Həqq taci izzət verib
Gül və abi xilqətdə diqqət verib
Əvvəldən kilidi-dəri-Kəbəni
Bəni Haşimə çün əmanət verib
Olub beyti Həqq movludi Mürtəza

Ona iftixari viladət verib

Sizə hirsu-cuş, şikəmxarəgi

Bizə səbrilə istiqamət verib

Sizə hiylə, kizb, fisq və riya

Bizə vəhyilən mənəviyyət verib

Sizin şənu-heysiyyətiz ləkkədar

Bizə irzu-namus və ismət verib

Xəbasət sizdəndi, biz təyyibat

Bizə nəssi Quran təharət verib

Ümməyyəylə Haşimdə çox fərq var

Xuda gərçi şikli üxüvvət verib

Özü intixabi yaratmış bizi

Hamı xəlqdən əfzəliyyət verib

Beünvani lütfu-əta bizlərə

Pəsənd eyləyib altı xislət verib

Bizə elm və helmi əta edib

İşıq qəlblərdə məhəbbət verib

Bəni Haşimi nəsli mümtaz edib

Səmahət, fəsahət, şücaət verib

Yenə yeddi şəxssiyyət ilən Xuda

Bizim xanədanə fəzilət verib

Muhəmməddi, Zəhradı, həm Mürtəza

Əbu Cəfər ki, Təyyar şöhrət verib

Cavanani cənnət Hüseyn və Həsən

Ki, Həqq adların ərşə zinət verib

Və bir də o Qaim ki, cəddim deyib

Ona Həqq livayi ədalət verib

Cahanın əgər ömrü bir gün qala

Gərək Məhdi Müntəqim qan ala

Cəmaət şəhi qul kəfa oğluyam

Bilin Məkkə və həm Mina oğluyam

Həmana ki, pərvərdeyi Zəmzəm

Həmin Zəmzəmilən Səfa oğluyam

Ridasında həml etdi rüknü babam

Şəhənşəhi sahib rida oğluyam

Sükut eyləyin ta sübut eləyim

Ki, mən Xatəmul-ənbiya oğluyam

O həccə piyadə gedən Mustəfa

Onun mən qəzaya riza oğluyam
Həman Həqqə ləbbeyki sidqən deyən
Olan ümmətə rəhnüma oğluyam
Büraqilə merac edən beytdən
Əli sidrətul-muntəha oğluyam
Mələklər namazında şirkət edən
Olan ərşidə müqtəda oğluyam
Əsasi şəriət qoyan vəhyilən
Həman nəsli qul innəma oğluyam
İki nizə ilən, iki tiğ ilən
Cihad eləyən Mürtəza oğluyam
Xəratimi küffarı məxduş edən
Du sər tiğlən la fəta oğluyam
İki dəfə hicrət edən ömrüdə
İki biyətə bavəfa oğluyam
Qapısı yanan, Möhsini siqt olan
Üzü nili Xeyrun-nisa oğluyam
Qəfadan başı teşnələb zibh olan
Hüseyn fatehi Kərbəla oğluyam
O baş ki, görürsüz qızıl təştidə

Onun naxoş və mübtəla oğluyam

Bizi siz nə qədər eyləsəz xaru-zar
Girami edər lütfü Pərvərdigar

Nübüvvət bizimdir, imamət bizim
Səyadət bizimdir, şərafət bizim
Şəhadət bizimdir, əsarət bizim
Dəlalət bizimdir, vilayət bizim
Təharət bizimdir, həm ismət bizim
Fəzilət bizim, əfzəliyyət bizim
Qəzavət bizim, ələmiyyət bizim
Tilavət bizim, elm və himət bizim
Sədaqət bizimdir, həqiqət bizim
İtaət bizimdir, ibadət bizim
Risalət bizimdir, rəvayət bizim
Kitabət bizimdir, vərasət bizim
Aya şamiyan, zülmu-vəhşət sizin
Fəsahət bizimdir, şücaət bizim
Ədavət sizindir, şəqavət sizin

Məhəbbət bizimdir, inayət bizim

Qonağa daş atmaq, şəmatət sizin

Mürüvvət bizm, rəhmu-rəfət bizim

O mömin ürkələrdə məknun olan

Məhəbbət bizimdir, məvəddət bizim

Cavanmərdlik və rəmzi mərdanəgi

Mürüvvət bizimdir, səlabət bizim

Xudadır Özü maliki yəvmiddin

Qiyamət bizimdir, şəfaət bizim

Anam Fatimə fəxri Ali-Əba

O dürdaneyi-kənzi iffət bizim

Kimə baxsa Zəhra anam lütfilən

Deyər qorxma rizvanu-cənnət bizim

Gözün oğluma ağlayıb, ağlama

Rəyasət bizim, əfvu-rəhmət bizim

Açıb qanlı bir köynəyi ağlaram

Rəhi-duzəxi şiəmə bağlaram

# Pəlid Yezidin qızının həzrət Rüqəyyəyə (s.ə) şəmatətli sözləri

Sən ey bixanə -o- kaşanə kimsən
Sən ey şəmi qəmə pərvanə kimsən
Yetimə bənzərin var gözlərindən
Çəkirsən ahi məzlumanə kimsən

Əgərçi söhbətində riqqətin var
Danış şirin sözün, xoş söhbətin  var
Bu şəhrə gəlmisən nə niyyətin var
Atan kimdir, kim ilə nisbətin var
Nədən əşgin dönüb alqanə kimsən

Başında bir bölük var qəm sipahi
Bu cəmə sən edirsən padişahi
Vəli zülfün belə eylir güvahi
Yuyan yox tellərindən gərdi rahi
Vuran yox zülfünə bir şanə kimsən

Mənəm doxti Yezidi impratur
Varım gəncineyi-zər, pənceyi-zor
Sərir səltənətdə məstu-məğrur

Gecə-gündüz ənisim tar və tənbur
Rəfiqəm saqi -o- peymanə kimsən

Səni mən agəh etdim keyfu-kəmmə
Nijadu-nisbətimdə mədhu-zəmmə
De sən də nisbətindən bircə şəmmə
Nə tez-tez səslənirsən əmmə, əmmə
Verir səs can deyir cananə kimsən

Fələk salmış səni viransəraya
Bu sinnində düşüb başın bəlayə
Gedək mənlən bizim dolətsərayə
Büründürrəm səni ətlas qəbayə
Geyərsən cameyi-şahanə kimsən

Başında belə şuri inqilabın
Gözündə çeşmə-çeşmə əşgi nabın
Kəbab etdi məni suzi xitabın
Verim dəstur Şimr açsın tənabın
Dolan bu şəhri azadanə kimsən

# Həzrət Rüqəyyənin (s.ə) Yezidin qızına cavabı

Yezidin doxtəri binəng -o- nami
Bilirsən heç, kimə arami canəm
Üzüm nili, özüm Zəhra nişani
Hüseynə bir şirindil nohəxanəm

Başında var sənin işrət havası
Geyibsən əyninə əlvan libası
Sənin olsun cahanda eyş əsası
Mənə bəsdir Əli Əkbər qarası
Çıxartsam xahəri namehrəbanəm

Düşən min möhnətə bir tək başımdı
Əzadaram, ənisim göz yaşımdı
Ölüncə qarə köynək yoldaşımdı
O ki, Əkbər deyəllər, qardaşımdı
Belə fikr etmə binam -o- nişanəm

Əgər sizdə qüruri səltənət var
Beş-on günlük kəzayi mərtəbət var
Vəli bizdə ədəb var, mərifət var
Həya, din və təqva, muhibət var
Bürumәndәm, mәlaik pasibanım

Şəmatət eyləmə şəhzadəyəm mən
Libasımtək ürəkdən sadəyəm mən
Qəribəm, bikəsəm, oftadəyəm mən
Xəcalət çək, peyəmbərzadəyəm mən
Əgərçi zahirən bixanimanəm

Sipahım qəm, silahım dudi ahım
Bu zülfüm pərçəm, əmməm sər sipahım
Xərabə səngərim, Səccad şahım
Atandır düşmənim, Həqq dadixahım
Özümdə bir sesalə qəhrəmanəm

Xəcalət çək bu tərzi söhbətindən
Xoşum gəlmir bu naxoş tinətindən

Demə çox qəsr o malu-muknətindən

Ki, mütləq biniyazam xidmətindən

Fəqət möhtaci həyyi laməkanəm

Bu viranə mənə daim vətəndir

Anam Zəhra sevən beytul-həzəndir

Libasım geydiyim bu pirəhəndir

Gəlincə Əkbərim ölsəm kəfəndir

Qara köynək şəhidəm, şadimanəm

# Hindənin əhvalatı

Hində bidar ol, fələk xar eyləyən Zeynəb mənəm

Hindələr hicrində bimar eyləyən Zeynəb mənəm

Sil gözün diqqətlə bir bax bu ağarmış saçlara

Sən əziz günlərdə didar eyləyən Zeynəb mənəm

Düşmüşəm mən ovci izzətdən həziz zillətə

Allah Allah şükrü dadar eyləyən Zeynəb mənəm

Beş yaşımdan yağdırıb gərdun bəlalar başıma

Möhnəti Zəhranı təkrar eyləyən Zeynəb mənəm

Sineyi-Zəhranın əsrarı mənim sinəmdədir
Əlli ildir hifzi əsrar eyləyən Zeynəb mənəm
Həmleyi əşrardan qəlbimdə bir qan bağlanıb
Qan olan qəlbin əzadar eyləyən Zeynəb mənəm
Ləhzeyi-böhranda mabeyni dəru-divarda
Bazdidi nəqşi divar eyləyən Zeynəb mənəm
Düzdü ki, məndən qabaq Fizzə yetişdi dadına
Lakin əvvəl didə xunbar eyləyən Zeynəb mənəm
Görməmişdim yarə ömrümdə yarasın bağlardım
Xoşkbəndi zəxmi mismar eyləyən Zeynəb mənəm
Yummadım göz, başının üstündə yetmiş beş gecə
Fikri sübhu-şam birmar eyləyən Zeynəb mənəm
Qəsrə getsən ver Yezidə bir elani xətər
Əgər olsan əvvəl ixtar eyləyən Zeynəb mənəm
Sən denən məğrursan aləmdə təxti-tacına
Aqibət təxtin nigunsar eyləyən Zeynəb mənəm
Kuçə-bazar içrə gəzdirdin məni hər şəhərdə
Kuçələrdə nəşri əxbar eyləyən Zeynəb mənəm
Hər məta Şamə həml olsa tənaba bağlanar
Dəst bəstə seyri bazar eyləyən Zeynəb mənəm

İctimaat içrə görsənmək şikəst olmaz bizə
Nitqim ilən xəlqi bidar eyləyən Zeynəb mənəm
İl başa dəyməz həmin Şamatı qıllam ziru-ru
Həqqi çün bipərdə izhar eyləyən Zeynəb mənəm
Hey təqiyyəylən bir iddə yıxdı İslamın evin
Ta varam tənvir əfkar eyləyən Zeynəb mənəm
Toprağımda səslər ölsəm, ya nəsaratul-Hüseyn
Cəmi foci yaru-ənsar eyləyən Zeynəb mənəm
Oldu bu hürriyyətə çün Ali-Haşim pişmərg
Həşrəcək təşviqi əhrar eyləyən Zeynəb mənəm
Ey cəvanmərdani aləm can sizin, can dinizin
İrzu-namus üstə isar eyləyən Zeynəb mənəm
Ey zənani bavəqar, ey madərani xanədar
Xanədari fərzi dindar eyləyən Zeynəb mənəm
Oğluna əgər pak süd versən mənim xəttimdəsən
Orətə təyini meyar eyləyən Zeynəb mənəm
Bisəbəb müstəxdimi mərdani namərd olmayın
Bu pəyamı gündə təkrar eyləyən Zeynəb mənəm
Əlli dörd ildə məni gün görməmişdi baş açıq
Çərxi naməhrəm bilib ar eyləyən Zeynəb mənəm

Sən görübsən mən gedəndə rozeyi-Peyğəmbərə
Nisfi şəbdə sətri rüxsar eyləyən Zeynəb mənəm
Bir fəqət rüxsarımı gün gördü Aşura günü
Məğribə getmirdi vadar eyləyən Zeynəb mənəm
Hində huşyar ol qulaq ver gör çəkib başım nələr
Cəddimi qodalə ehzar eyləyən Zeynəb mənəm
Bilmirəm nə halda görmüşdü anam Zəhra məni
Mərhəba şənində təkrar eyləyən Zeynəb mənəm
Sərgüzəştim öz kəfi dəstimdə xana nəqş olub
Şimrilən məqtəldə peykar eyləyən Zeynəb mənəm
Xəncərə israr qıldıqca o yeddi mərtəbə
Şimrə də qeyzilə israr eyləyən Zeynəb mənəm
İndi də üstümdədir həştad əsirin möhnəti
Canımı hər dərdə həmvar eyləyən Zeynəb mənəm
Əl götürsəm qardaşım qızları güldən tez solar
Bağbantək hifzi gülzar eyləyən Zeynəb mənəm
Bir də var bir xahişim ey Hindeyi-ali seyr
Bir bu möhnət qəlbini zar eyləyən Zeynəb mənəm
Ver nəsihət bu qızın xəlqə şəmatət etməsin
Hər nə nisbət versə inkar eyləyən Zeynəb mənəm

Sən ona tapşır daxi viransərayə gəlməsin

Gəlsə sübhün çün şəbi tar eyləyən Zeynəb mənəm

Tay-tuşun tapsın Rüqəyyəmdən nə istir dəmbədəm

Hər sözü var meyli qoftar eyləyən Zeynəb mənəm

Pəstzarə hey danışdıqca vurur dil yarəsi

Tənəsindən çöhrə gülnar eyləyən Zeynəb mənəm

Yox ləyaqət onda dindirsin Peyğəmbər qızların

İntixabi yaru-ağyar eyləyən Zeynəb mənəm

Münzəvi fikr etmə şah qaçsa nə təbliğ eylərik

Dilləri məmlüvvi-qoftar eyləyən Zeynəb mənəm

Həşrəcək həqq söz qutarmaz sən də məntək həqq danış

Həşridə təsdiqi əşar eyləyən Zeynəb mənəm

# Həzrət Rüqəyyənin (s.ə) müsibətlərinin nənəsi həzrət Zəhranın (s.ə) müsibətlərinə bənzərliyi

Bəzmi eşq uydurur hər aşiqi bir səhbadan

Biri saqidən alar nəşə, biri minadan

Birini cürə yıxar, ayrısı xəmdən doymaz

Biri Salman olur zərfiyyəti mafihadan

Çəksə Məcnunu məcaz eşqi həqiqət yoluna
Kəbənin feyzin alar Leyli keçən səhradan
Hərəmə məhrəm olub gör necə Salmani əcəm
Əhli-beytə qarışdı şəfəri mənnadan
İbni Abbas görüb bir gecə röyada onu
Taci yaqut qoyub, hillə geyib dibadan
Soruşub hansı əməldən yetişibsən bu yerə
Dedi dəsturi nəbi, dustiyi-mövladan
Bəli hər kimdə ola Buzər və Salman əməli
Olur bieşqi əla silsileyi-ədnadan
Mən ki, layiq deyiləm daməni mövlanı tutam
Tutmuşam xırda ətəkdən qutaram bəlvadan
Mən Rüqəyyə adının aşiqiyəm əvvəldən
Çün gəlir Fatimə ətri o gülü rənadan
Olmuşam çox gecə dildən mütəvəssil o qıza
Qurtarıb başımı Həqq dərd -o-qəm -o-qoğadan
Kim ona ağlasa əlbəttə gülər can üstə
Hurilən həmdəm olar canı çıxan əsnadan
Adına süfrə salan süfreyi-xali görməz
Sail olmaz keçinər süfreyi-istiğnadan

Qaytrıb hansı mərizi qapısından məyus
Xəbər al mərdi əqimilən zəni nazadan
Şama gör kim gedib ümidilə, naümid gəlib
Nə deyib Həqdən alır hacət istişfadan
Uşaq istəyirsən apar qəbrinə bir xırda beşik
Həqq yanında nə dua etsə keçər imzadan
On səkkiz yaşlı ananın bu üç yaşlı balası
Zahirən ayrı düşüb qətrə kimi dəryadan
Ona Zəhrayi-sesalə deməyin illəti var
Münzəvi sabit edər lütfü-Həqqi Yektadan
Buyurub Xətmi Rüsul düşməni düşməndi mənə
Tapşırıb Fatiməni ümmətə bu imadan
Balasından nəvəsin çox sevir insan əlhəqq
Necə bu hökm olur saqit nəveyi-Tahadan
O cigər olsa Rəsula, bu cigərguşəsidir
Bala ayrılmaz bu xatuni behiştaradan
Bir dəlil istəsə sünni də əgər Qurandan
Ona da roşən olar ayeyi-əvrəsnadan
Həqq bu ayəylə verib cümleyi-sadata şərəf
Küllü sadat müşərrəfdi həmin mənadan

Ey Rüqəyyə adının aşiqi öz qədrini bil
Rütbəni kamil elə mərifət və təqvadan
Sən Rüqəyyə adın öp, hurilər öpsün dodağın
Qorxma var sudi fəravan bu gözəl sevdadan
Demə məhbubəmin əfsus kiçikdir sinni
Zərrə hakidir özü mehri cahanaradan
Çün yaraşmazdı bizə aşiq olaq Zəhraya
Odur Allah yaradıb məzhər o mah simadan
Bizdə yoxdur zərfiyyət və mərifəti şəni Bətul
Ləfzi süğra bizə təfhim olunub kübradan
Bir ağac rişəsi yüz metridə yerdən göyərə
Sibdən sib olur, xurma göyərər xurmadan
Vəchi var səbru-ədəb, hücbu-həyada o bala
İrsi kamil aparıb Fatimeyi Əzradan
Neçə yerdə oların vəchi təşabehləri var
İki məzlumə müəzzəbdilər bir izadan
Qapısı yandı onun, xeyməsi odlandı bunun
Ona da sili dəyibdi, buna da ədadan
Ona mismar, buna xari muğilan toxanıb
Anası sinə yaralı, bala ziri padan

Onun üçün qüsl edəndə əgər ağlardı Əli

Bunu ğəssalə soyundurdu gedib yaradan

Köynəyin üstünə çəkdi dayanıb divara

Dedilər qüslünü ver qurtaraq ahu-vadan

Dedi qüsl eləmək olmaz götürün dəfn eləyin

Bu qız əllərdə ölüb bu göyərən əzadan

Bir də can üstə çox oxşardı olar bir-birinə

Öpdülər hər ikisi bir ləbi ləlasadan

Fatimə öpdü Hüseynin dodağın can üstə

O da viranədə məst oldu həmin səhbadan

Yaralı ləbləri öpdükcə o Zeynəb dedi nuş

Yaxşı dincəldin əzizim bu fəna dünyadan

Bu şəbahətlə vəli vardı təfavütləri də

Faş edim indi bu məclis dola vaveyladan

O gedib ağ kəfən ilən, bu geyib qara kəfən

O nihandır, bu əyan məqbəreyi-zibadan

Bir də bir məsələ var Zeynəbi çox yandırdı

Özün öldürdü xanım naleyi-va ümmadan

Nə qədər istədilər Zeynəbi aram edələr

Dedi bu gün çəkin əl ağlamaram fərdadan

Yenə də gün əvəz oldu, xanım olmadı əvəz

Yığışıb etdilər əvvəldəki istidadan

Dedi fərdayi-qiyamətdi mənim mənzurum

Ağlaram həşrə kimi bu mühəni üzmadan

Anamın dağının üstə bu da bir dağ oldu

Ömrümün sübhünü tar etdi şəbi yəldadan

Olar öldü, mənə göz dağı qalıb əllərdə

İki güşvarə o qızdan, biri də Zəhradan

Güşvarə olur bir cüt anamınkı təkidi

İllətin tez xəbər aldım o gecə Əsmadan

Dedi güşvarəsinin kuçədə düşmüşdü biri

O da sındı sitəmi saniyi-bipərvadan

# Həzrət Rüqəyyənin (s.ə) həzrət Zeynəblə (s.ə) dərdləşməsi (sinəzən)

### İnqilabdan öncə inqilab

Gözümü bağlaya yox mənə bir ayrı çarə əmməcan

Görənmirəm qonağımı dodağı yara əmməcan

Yerimi ru beqiblə sal, bu başı gəl sinəmdən al

Yoruldu qollarım, düşüb nəfəs şümarə əmməcan

Sinəmdə saxladım bir az əqəlli zəhmət olmasın
Gələn təbəqdə görməsin ona ehanət olmasın
Gəl al sən indi sinənə qızın xəcalət olmasın
Vəfalı miziban olaq bu tacidarə əmməcan

Üzünü qoyma torpağa ki, qorxuram xoş olmaya
Misali mətbəx -o- tənur, o şaha naxoş olmaya
Təvazö eyləyib gəlib gərək yolu boş olmaya
Bu nəqdi canımı qoyam kəfi nisarə əmməcan

Ucadan ağlayanmıram ürəyi qüssələnməyə
Başıma kül səpənmirəm cəmalına ələnməyə
Tənurda külə batıb, xərabədə bilinməyə
Ki, heyfidir bu ayinə bata qübarə əmməcan

Xərabə Şama aridir bu şahın aşinası var
Sənin kimi yanan bacı, mənim kimi balası var
Dodağı aldı canımı öpənmədim yarası var
Cəfayi-xeyzəranidən verir işarə əmməcan

Gərək Yezidi təxtidən sala yanıqlı qarğışım
Nə şəhrinə, nə əhlinə əvvəldə qonmadı quşum
Bu başı kaş görməyə səhər bu halda tay-tuşum
Olar şəmatət əhli, mən ürəyi yarə əmməcan

Demişdim əhli Şamə mən babam cahana şahidir
Necə mən indi görsədim sözüm ki, bigüvahidir
Deyillər şahın ərzişi başındakı kulahıdır
Olar Yezidi şah bilir, edim nə çarə əmməcan

Belə bilillər şahlığın nişanı bac və tacıdır
Kəmənd, bənd, nizə və kəmərşikən xəracıdır
Gərəkdi şahlar ac yata nə qədri millət acdır
Nə inki xəlq xar ola şərabxara əmməcan

Yaraşmadı bu millətə yetimə baş çəkən Əli
Zəmini şurəzaridə nəhal və nəxl əkən Əli
Qabar əlində, tişeyi-ümidi çahkən Əli
Nə təkyə etdi nizəyə, nə zülfəqarə əmməcan

Hanı yətim və bivələr pənahı Mürtəza babam

Gecəylə qırx evə verən qəzayi-iqtiza babam

Öz əhli-beyti ac yata necə olur riza babam

Gəlib bu vərtədən bizi çəkə kənara əmməcan

# Zeynəbi-Ülya (s.ə) həzrət Rüqəyyənin (s.ə) şəhadətində

Aç gözlərin ey şahi şəhidan balam öldü

Dindirmədin oldu ürəyi qan balam öldü

Bir ləhzə dayan Zəcrin əlində dayanantək

Qal burda tutaq şami qəriban balam öldü

Qoyma bu qızın xar ola tərhimi əzası

Mən nohə deyim, sən də de can-can balam öldü

Əsğər sinən üstündə yatıb qoy əvəzində

Başın da Rübaba verim əlan balam öldü

Alsın səni ağuşə balanın başı üstə

Xoş ləhnilə bir an oxu Quran balam öldü

Ey məscidi viranə mücavir olan əşxas

Səbri evini eylədi viran balam öldü

Dincəltdi özünü də sizi də nalə səsindən
Amma məni yandırdı kəmakan balam öldü
Axtardığı gəncinəni viranədə tapdı
Öpdü yaralanmış dodağından balam öldü
Ruhu pər açıb kəsrəti zoqu-həvəsindən
Canın edib öz eşqinə qurban balam öldü
Qalmışdı o qız bir gecə bir qorxulu çöldə
Zəcri görüb olmuşdu hərasan balam öldü
Bir şal və qətifə verin örtüm bunun üstün
Sübhə kimi olsun hələ pünhan balam öldü
Bir köhnə həsirim var, o da meyitin altda
Ey dorədəki xəlqi müsəlman balam öldü
Bu xırda uşaqlar da özün öldürər indi
Bir çarə qıl ey Xaliqi Subhan balam öldü
Ey qüsl verən həzrəti Zəhraya gecəylə
Gəl qüslünü ver qəlbim olub qan balam öldü
Zəhra kimi can verdi bu üç yaşlı Zəhra
Rüsva elədi düşməni ondan balam öldü
Dərbarə xəbər verdi nigəhbani xərabə
Can verdi gəlin bülbülü xoşxani xərabə

Zeynəb özün öldürdü qalıb yerdə cənazə
Yeksər pozulub cəmi pərişani xərabə
Qəssalə əgər gec gələ qalmaz biri salim
Vəhşətdən həlak oldu bu tiflani xərabə
Əlqissə, Yezidi o gecə eylədi bədxab
Ahi dili məzlumeyi-zindani xərabə
Gördü ki, əgər sübh açıla zülmü olar faş
Əmr etdi gecə dəfn ola sultani xərabə
Qəssalə gəlincə vəli sübhi qəm açıldı
Təng oldu tamaşaçıya meydani xərabə
Zeynəb götürüb əlləri üstə o balanı
Qəssaləyə verdi məhi eyvani xərabə
Bir söz dedi amma hamı əl başına atdı
İslandı nəmi əşgilə damani xərabə
Qəssalə sən Allah bunu ahəstə soyundur
Gər incisə lərzan olar ərkani xərabə
Pirahəni ahəstə çıxartdı bədənindən
Bildi düşəcək dillərə dastani xərabə
Çəkdi yenə köynəyini cisminin üstə
Ta görməyə gül cismini tiflani xərabə

Birdən əyilib öpdü üzün durdu yol aldı
Kəsdi qabağın qəmzədə nisvani xərabə
Səsləndilər olma bizi fəqr içrə görürsən
Məyus eləməz sahibi ehsani xərabə
Toprağa nəzər salsa əgər Seyyidi Səccad
Sərtasər olar ləli bədəxşan xərabə
Baxma ona yox fərş, oturmuş quru yerdə
Dünyaya Süleymandı, Süleymani xərabə
Qəssalə açıb öz yaxasın gəldi fəğanə
Bir qara əza pirəhəni verdi nişanə
Ərz etdi xanımlar mən özüm yari Hüseynəm
Gizlincə nə müddətdi əzadari Hüseynəm
Hərçənd Yezidə belə bir söz demək olmaz
Əllərdə ölüb bu bala qüsl eyləmək olmaz
Zeynəb baxıb əzasına nili yerin öpdü
Üzdən ayırıb zülfünü sili yerin öpdü
Qəbrin qazıb öz köynəyinə bükdü balanı
Qəbrə qoyub ahəstə, bülənd oldu fəğanı
Səy eylədi hərçənd ki, təslim ola səbrə
Amma ürəyi gəlmədi topraq tökə qəbrə

Foci üsəra bir-birinə etdi işarə
Heç kim bir ovuc tökmədi topraq o məzarə
Səsləndi qara yellər edin dərdimə çarə
Topraq sovurum başa tökün siz bu məzarə

# Yezidin yalvarması

Zeynəb məni bağışla, ibni Ziyada lənət
Qətli Hüseynə hər kim etdi iradə lənət
Qurana and içim mən, keç sən də bu günahı
Vicdanım olsa qıllam cübran bu iştibahı
Xəlq istəmir edəndə sən şahlıq iddiası
Əlan vəli edirsən allahlıq iddiası
Cübrani iştibahə çox eyləsən işarə
Sən doğrayan cavanlar gəlməz bu ruzigarə
Ey bihəya bilirsən sən kimlər öldürübsən
Əkbər kimi şəbihi Peyğəmbər öldürübsən
Kim xəlq edər dubarə Qasim kimi cavanı
Dilbəndi Müctəbanı, ey kafər öldürübsən
Ümmül-Bənin dovrani Əbbası bir də doğmaz
Namərdilər əlilən namavər öldürübsən

Bir il hökumətində ev qalmayıb yıxıbsan
Məzlum qanı batmaz, sən Əsğər öldürübsən
Biz va Hüseyn vuranda, siz xeymə yandıranda
Quranı yandırıbsan, peyğəmbər öldürübsən

## Həzrət Zeynəb (ə) Yezidə cavabı (cuşi)

Mən Zeynəbəm yaralı sultanı səndən allam
Canım qəbaləsilə cananı səndən allam

Sən şahsan, mənim də dorəmdə yavərim var
Bir iddə qarə məcər qolbağlı ləşgərim var
Həştad pəri şikəstə veylan kəbutərim var
Aç qolların verim san, bax gör nə məhşərim var
Bu həşru-nəşrilən mən dünyanı səndən allam

Mən Zeynəbəm, varımdı əfkari inqilabı
Rədd elərəm üzündən xəlq aldadan niqabı
İçdin bu gün ki, cəddim yasaqlayan şərabı
Sabah yandırarsan göydən gələn kitabı
Amma mən intiqami Quranı səndən allam

And olsun Əbdi Saleh sərdari bavəqarə
Qolsuz yatan su üstə Əbbasi namidarə
And olsun altı aylıq sərbazi şirixarə
Məzlum qanı axdı gültək solan üzarə
Ömrüm vəfası olsa bu qanı səndən allam

And olsun ol yaralı başda olan məqamə
And olsun Ali-Haşim təbliğ edən məramə
İslami vaqeyini andırram əhli Şamə
Sən təxtidən düşüncə nehzət tapar idamə
Yeksər İraq -o- Şam -o- İranı səndən allam

Ya Fatimə amandır Zeynəb himayət istir
Qəlbində çoxdu yarə səndən təbabət istir
Qatil qızıl-gümüşlə qətlə bəraət istir
Allah qanın tökənlər məndən rizayət istir
Mən nehzət afərinəm fərmanı səndən allam

Ey Hindeyi-xəbisin biabiru balası

Aya qızıl-gümüşdü sarəllahın bəhası

Dünya malıyla toxtar hansı ürək yarası

Qaytar bizə sipahın qarət edən libası

Mən bəzi yadigari Zəhranı səndən allam

Qarət əsasın əlan eylə işarə gəlsin

Yox fərqi salim olsun, ya parə-parə gəlsin

Əmr et Rübabə xatir bir gəhvarə gəlsin

Güşvarə qaytaranlar pozğun məzarə gəlsin

Bir-bir sayıb əsası yəğmanı səndən allam

Əmr et qara çəkilsin hər timçə və səraya

On gün əza tutulsun məzlumi Kərbəlaya

Gəlsin bizimlə hər kim müştaqdır nəvaya

Amma əli hənalı bir qız gəlməsin əzaya

Mərd olmasan da qoli-mərdanı səndən allam

Dəstur verdi forən ümmali nabikarə

Viranədən yığıldı yeksər həsiri parə

Yer fərşilən döşəndi divar geydi qarə

Zeynəb dedi Rüqəyyə, ey tez batan sitarə
Hər dərdim olsa indi dərmanı səndən allam

Saldı özün o qəbrə Zeynəb gəlib fəğanə
Əldə əsasi qarət göz yaşı döndü qanə
Bir boxça açdı tökdü səsləndi yanə-yanə
Güşvarəni gətirdim naz etmə əmməcanə
Mən buyi canfəzayi cananı səndən allam

Kam almadın gecəndən, qoğalı gündüzündən
Can üstə doymadım heç can yandıran sözündən
Ayinə qoy qabağa həzz eylə öz-özündən
Zəhra gülüş üzündən, Əkbər baxış gözündən
Gəlləm dubarə ətri cananı səndən allam

# Əhli-beytin (ə) Mədinəyə daxil olması

Salari hərəm, miri üməm, sərvəri übbad
Misbahi subul, kəbeyi-dil, qibleyi-ovtad
Sərsilsileyi-qafileyi xane beduşan
Sərxeyli əsirani bəla Seyyidi Səccad

Şamatı gəzib qara geyən əmmələr ilən
Qurtardı sərəncam əsarət olub azad
Sərmənzili məqsudə edib teyyi mərahil
Görsəndi Mədinə gözünə, başladı fəryad
Əmr eylədi Nömanə gəlir cəddimin ətri
Yetdik vətənə saxla qətarı evin abad
Endir bizi sən indi bu şəhrin yaxınında
Şəhrə xəbər eylə ki, gəlir rəhbəri irşad
Axər vətənimdir bura sən Kufəyə baxma
Nə tənə vurarlar xəlqi, nə eylər bizə bidad
Bu əmrə görə getmədilər daxili şəhrə
Durdu o gedən qafilə, endi yerə əfrad
Nəsb oldu Hüseyn xeyməsi, pəhn oldu fəraşı
Eylibdi o məsnəddə cülus ərşədi ovlad
Üz tutdu Bəşirə dedi get şəhrə dayanma
Qarə ələmin əldə, neçə şer elə inşad
Tez rozeyi-Peyğəmbərə əlan güzər eylə
Şəhr əhlinə ovzanı kəmakan xəbər eylə
Sürətlə gəlib qasidi xoşxani Mədinə
Guya qutarıb müddəti hicrani Mədinə

Qarə ələmin açdı Bəşir eylədi nalə
Forən qaçışıb kuçədə tiflani Mədinə
Qaçdı hər uşaq öz anasın etdi xəbərdar
Çıxdı qapıya hovlilə nisvani Mədinə
Bu mənzərədən matəmə batdı dəru-divar
Yeksər pozulubdur səru-samani Mədinə
Qasid hələ bir söz deməmiş mətləb olub faş
Əvvəldə qara geydi cavanani Mədinə
Bir-birlərini rəmzilə andırdılar guya
Səyyada düçar oldu qəzalani Mədinə
Şəhr əhli o dəm doru-bərin aldı Bəşirin
Sədd oldu bütün kuçə və meydani Mədinə
Səsləndilə tez kəşf eylə əsli cərəyanı
Qan oldu dili xəlqi hərasani Mədinə
Bəd fal verir xəlqə bu qara ələmullah
Əsdikcə əsir qəlbi pərişani Mədinə
Bu fali bədi Əkbər başına düşməyə ey kaş
Toy eyləməyib sərvi xuramani Mədinə
Gözlər nigəran itrəti Peyğəmbəri gözlər
Toy eyləməyənlər hamısı Əkbəri gözlər

Söz gəldi qəmi Əkbəri fərxündə liqadan
Göz camələri doldu o dəm əşki əzadan
Əkbər həvəsindən tələsib əsdi ürəklər
Yapraq necə titrər güzəri badi səbadan
Çox istədilər dindirələr dinmədi qasid
Çün şəhridə məzuridi fəryadi rəsadan
Dəvət eləyib rozeyi-Peyğəmbərə xəlqi
İstirdi gözəl feyz ala əvvəl bəzmi bukadan
Qasid yetişincə ora xəlq edi təhacüm
Doldu dəru-divari hərəm əhli viladan
Baxdı o gözəl qəbrə Bəşirin gözü doldu
Ərzi ədəb etdi salavatilə sənadan
Üz tutdu sonra səslədi: ey əhli Mədinə
Kəşf etməyə sirri dilim acizdi ədadan
Bu şəhridə siz eyləməyin bir də iqamət
Cənnətdə Hüseynsiz ola, xalidi səfadan
Bu şəhridə əyyami sələf bir qapı yandı
Əlan ucalır şölələri Kərbübəladan
Zəhra qızının xeymələri yandı, talandı
Hər nə var idi aldı qoşun Ali-Əbadan

Zeynəb o libası ki, verirdi füqəraya
Mislin bu fələk qoymadı qalsın üsəraya

Vazeh demirəm məndən ürəklər kədər olsun
Aləmdə gərək qarə xəbər müxtəsər olsun
Hər kim özü bu halı gedib görməsə bilməz
Dərd əhlinə lazımdı yaxından nəzər olsun
Kim Zeynəbi istir tanıya səsləsin adın
Səs vermsə mümkündü nəzər bisəmər olsun
Qardaş ölümü bacını beş gündə qocaldar
Halın görən əlbəttə gərək didə tər olsun
Pişvazə gedin hörmət edin dərdi azalsın
Az başa vurub, nalə edib, xuncigər olsun
Üç tayifəni mən eləyin getməsin amma
Bu yolda məbada zəhəmatız hədər olsun
Nə Əkbəri pişvaz eləsin tazə cavanlar
Nə tazə gəlinlər sizilən həmsəfər olsun
Əl sinədə dursunlar Rübabın yolu üstə
Nə süd verən orət, nə də bir südəmər olsun
Fikr eyləməyin südəmər az yandırır qəlbi

Od, oddu əgər biş və ya müxtəsər olsun
Var həqqi Rübabın da ki, yansın bu şərarə
Pərvanə kimin canı fədayi-şərər olsun
Ba cadı nə qədər oxşasa niskilli balanı
Nə qəbri bilindi, nə ələ gəldi nişanı
Xəlqin bu xəbərdən dolanıb zənni, yəqinə
Va səyyidəna sotu çıxıb ərşi bərinə
Cəmiyyəti artdıqca tapıb ronəq o məclis
Dərdi dili üşşaqə dürüst oldu zəminə
Nagah o tamaşaçıların poşti sərindən
Səsləndi bir orət yol açın Ümmü Bəninə
Bu həmhəmədən qaldı Bəşirin sözü naqis
Yol açdı o xatuna xəvatini Mədinə
Tutmuş o xanım bir ələvizadə əlindən
Oxşardı uzun əlləri Əbbasın əlinə
Görcək xanımı fori Bəşir eylədi təzim
Təqdimi salam etdi, durub dəst be sinə
Əvvəldə öz oğlanlarının tutmadı adın
Aldı xəbər aya nə gəlib sərvəri dinə
Ərz etdi xanım cayi təəccübdü sualın

Vurdu şərər ahın bu dili zaru-həzinə

Heç bir demirsən nə oldu Əbülfəzli dilavər

Nə gəldi qəməri tələtu-rəxşəndə cəbinə

Səsləndi nə sözdür bu, Hüseynsiz nə Əbülfəzl

Qurban ola min elə oğul bircə Hüseynə

Gün olmasa ay cilvəsi rüxsarını açmaz

Əbbasım Hüseynsiz belə dünyaya yaraşmaz

# Həzrət Suğranın (ə.s) sözləri

Əli yanan sən idin bir vətədə Suğraya

Gələrdi ruhi-rəvan sən gələndə Suğraya

Anam öləndə başımdan kəm etdi sayəsini

Kəm etmə lütfün Əlin indi sən də Suğraya

Bu doğru sözdü ki, gözdən olan könüldən olar

Bu seri heç demədin sən gedəndə Suğraya

Dolandı aylarım il oldu açmadın qapımı

Nolardı baş çəkəsən bir vətəndə Suğraya

Bir ildi heç demisən bir mərizə bacım var

Əqəlli bir kəfən istər öləndə Suğraya

Vətən qəribi yazallar məzarımın daşına

Əgər gətirməyəsən bir kəfən də Suğraya
Sümüklərim əriyib qüssədən fəraqında
Gərək gəlib baxasan yel əsəndə Suğraya
Görən deyər çəkilib pərdə üstə bir quru nəqş
Diriliyi bilinir əl dəyəndə Suğraya
Adın dilimdə cavanmərg olum yalan demirəm
Ürək döyünmə tutur səs yetəndə Suğraya
Qapı döyən elə bil qəlbimi döyür tez-tez
Demillə, tazə xəbər də biləndə Suğraya
Mənim yanımda hamı evdə rəmz ilən danışır
Kəsillə söhbəti qəm əl verəndə Suğraya
Gözün qadasın alım, gəl bu canımı özün al
Sığışmır iki can bir bədəndə Suğraya
Elə sümüklərimin ney kimi sızıldamağı
Bəsimdi, ağlama sən qüsl edəndə Suğraya
Edib sümüklərimi sürmə ayrılıq acısı
Yaraşmır heç sən alan pirəhən də Suğraya
Toy eyləsən mənə ayrı libas göndərəsən
Xəcalət olmaya toyda gəzəndə Suğraya
Çox istirəm gələsən alnıma əlin qoyasan

Gecə yarı soyuq tər gələndə Suğraya

Deyərsən onda bacım öldü qibləyə çevirin

Kəfən edərsən özün zində-zində Suğraya

## Həzrət Suğranın (s.ə) məktubu

Cəddə ahım daşa eylər əsər inşallah

Göz yaşım olmaya şayəd hədər inşallah

Bir xəbər var ki, bu günlər ürəyim çox göynər

Yetişər namə bu gün, ya səhər inşallah

Quruyan nəhrlərə su yenə mümkündü gələ

Bəxt yar olsa gedənlər gələr inşallah

Nəzr edib, xətm tutub qırx gün oturam qapıda

Var ümidim gələ bir xoş xəbər inşallah

Edərəm təkyə əsaya, tozun allam bu evin

Bacı qardaş toyuna toz tökər inşallah

Süfrənin noğlu-nəbatı mənim öz öhdəmədi

Xonçasın da xanım əmməm bəzər inşallah

Yandıram dudeyi-isfəndilə düşmən ürəyin

Kor ola zillətilən bədnəzər inşallah

Kim mənə xələt alıb, toyda görüb şərm edirəm

Deyirəm Əkbər əvəz göndərər inşallah

Qorxuram baş ağara, mən bu həvəsdə qocalam

Olsun-olsun bu yaman gün keçər inşallah

Hər görəndə yuxuda Əkbəri dərdim azalır

Hər gecə kaş eyləyə bir nəzər inşallah

Cəddə, ölsəm də xəbər verməyəsən Əkbərimə

Bilməyə, olmaya ta didə tər inşallah

Heyifdir gözləri səy eylə mənə ağlamasın

Yetməsin gözlərinə bir xətər inşallah

Vəli Əkbər elə yaddan çıxarıb Suğranı

Özü bilməz deməsə əmmələr inşallah

Sən buyur əmmələrim də deməsin ölməyimi

Bir zaman xoşdu qala bixəbər inşallah

Qorxuram bir mənə xatir toyu beş gün yubana

Səy elə olmaya Leyla kədər inşallah

Ayrılıq dərdi çəkən cəddə, xəyalatı olar

Dərdi hicr ömrü edər müxtəsər inşallah

Məni sən etmə məzəmmət təb odundan yanıram

Təb gedər, tab gələr, can dözər inşallah

Dur ayağa tut əlimdən məni bir səhnə çıxart

Qəm təsəlla ilən dildən gedər inşallah

Al bu dəstbəndilə, güşvarə və gərdənbəndi

Gələr əlbəttə ələ simu-zər inşallah

Ver təsəddüq füqəra Əkbəri etsinlər dua

Sədəqə dərdu-bəla qaytarar inşallah

Bu gecə bir yuxu gördüm sənə tərif eləyim

Yaxşı təbirə ürək dincələr inşallah

Sübh vəqtiydi ayıldım yuxudan vəhşətlən

Düz çıxar çox yuxu vəqti səhər inşallah

Qol-boyun, üz-üzə gördün aylan bir günü mən

Yuxuda xeyridi şəmsu-qəmər inşallah

Aylan gün bir işarətdi atamlan əmimə

Bir-birə can eşidib, can deyər inşallah

Bir də bir olduzu gördüm gün alıb ağuşa

Dedim hətmən dil açıb südəmər inşallah

Odur dil açdığına qırmızı köynək geyinib

Dil ki, açdı, ayaq açsa gəzər inşallah

Açdım ağuşumu dindirdim onu dinmədi heç

Belə bildim dil açıb naz edər inşallah

Mən dedim bülbül ilən gül danışar min dil ilən

Qönçə amma danaşınmaz gülər inşallah
Gərçi naz etdi nə gəldi, nə danışdı mən ilən
Dedim eylər anasın bəxtəvər inşallah
Gördüm həsrət baxır amma əli qoynunda Rübab
Səslənir qoysa qəzavu-qədər inşallah
Dedim axər hanı Qasım, dedilər toy günüdür
Anası xeymədə xələt biçər inşallah
İstədim tazə ərusu, dedilər hiclədədi
Qan ilən zülfünə mərcan düzər inşallah
Onda Leyla anamı gördüm alıb zülfün ələ
Hey deyir zəhmətim olmaz hədər inşallah
Dedim axər nigəranam mənə bir söz de, ana
Dedi tez başa yetər bu səfər inşallah
Dedim Əkbər dalısıyca nə duası oxuyum
Dedi Quran oxu, yetməz zəfər inşallah
Xəbər aldım nə alıbdır? Dedi çox fikr eləmə
Sil-süpür Əkbər otağın gələr inşallah
Dedim axər ürəyim istir özüylən danışam
Dedi məhşərdə cavabın verər inşallah

# Ümmül-Bəninin (s.ə) əhvalatı

Dövləti iqbala çatdı baədəb Ümmül-Bənin
Oldu şəhbanuyi sultani ərəb Ümmül-Bənin

Müxtəsər təftiş ilən ol banuyi ali nəsəb
Oldu forən moridi təyidi nəssabi ərəb
Qabiliyyətdən olub şahə rəiyyət müntəsəb
Olmadı biillət -o- rənc -o- təb Ümmül-Bənin

Dörd oğul ərşə yetirmişdi əgərçi başını
Gəh Hüseyni dindirirdi, gəh Həsən qardaşını
Ağlayanda tez silirdi Zeynəbin göz yaşını
Suzi ahından olardı mültəhib Ümmül-Bənin

Zeynəbə eylərdi hörmət Həyyi Yektaya görə
Köhnə camilən onu qoymazdı həmsayə görə
Öz adın etdi əvəz ovladi Zəhraya görə
Aldı Zəhra dudumanından ləqəb Ümmül-Bənin

Qabil olmaz hər rəiyyətzadə şəh dərbarına
Layiq olmaz təkyə etsin Fatimə divarına
Bağbanlıq etdi Zəhranın solan gülzarına
Güllərin çəkdi əyazın ruzu-şəb Ümmül-Bənin

Eylədi məxsus xidmət zindəgi bərnaməsin
Müctəbanın qoymadı gün soldura əmmaməsin
Zeynəbin zülfün yudu tez-tez Hüseynin caməsin
Aqibət oldu vilayət müntəsəb Ümmül-Bənin

Bu xanım leyli zifafında cahanı dağladı
Durdu babi səhnidə rahi üburu bağladı
Astanə üz qoyub toprağın öpdü ağladı
Oldu pəndamuzi nisvani ərəb Ümmül-Bənin

Etiraz etdi bu rəftara xanımlardan ona
Vəqti var ərzi iradət etməyin ey bavəfa
Götürdü başından gəlinlik tacını etdi nəva
Ağladı bihəd şərifu-müntəcəb Ümmül-Bənin

Etdi fərmayiş nə mən cəlbi məhəbbət eylirəm
Nə riyakaranə bir ərzi iradət eylirəm
Mən xanımlar, Möhsinin qəbrin ziyarət eylirəm
Yoxsa biillət baş açmaz mühtəcəm Ümmül-Bənin

Əlqərəz, varid olub səhnə o banuyi giram
Dor ta dori hücrələr gördü çırağandır tamam
Tək görüb bir hücrəni xamuş, oldu təlxkam
Ol qaranlıqdan soruşdu bir səbəb Ümmül-Bənin

Fizzə ərz etdi xanım var burda bir qəm məktəbi
Orda müddətdir çırağ yanmaz, soruşma mətləbi
Gəlsən əssaə nişan verrəm xanımım Zeynəbi
Orda tək ağlır o banuyi ədəb, Ümmül-Bənin

# Həzrət Əbəlfəzin (ə) oğlu Abdullahın (ə) atasını gözləməsi (sinəzən)

Ana məgər nə istədim, babam utandı gəlmədi
Nədən yubandı bu gecə, çırağ da yandı gəlmədi

Əgər uzaq gedirdi bəs nədəndi könlüm almadı
Nəvaziş ilə boynuma uzun qolunu salmadı
Məgər xarab olub bu ev ki, sərpərəsti qalmadı
Xəbər varındı qıl bəyan mənə nihandı gəlmədi

Səhər gedən gərəkdi gün qürub edən zaman gələ
Namaza şirkət eyliyən eşitcəyin azan gələ
Görüşmədim soruşmadım haçan gedir, haçan gələ
Odur dalıyca göz yaşım belə rəvandı, gəlmədi

Məni ayırma bu gecə yanında saxla, qorxuram
Çırağı xamuş eyləmə, qapını bağla, qorxuram
Yerimi öz yanında sal, məni qucaqla, qorxuram
Gözündən atma bari sən babam yubandı gəlmədi

Bu söhbətimdən olmaya gərək şikəstə xatirin
Ki, oxşamır qəm əhlinə mənim yanımda zahirin
Hara gedib ki, axşama qayıtmayıb müsafirin
Ürək sıxıldı səbrimin evi talandı gəlmədi

Nə qədri yatdı diksinib durub qiyamət eylədi
Qəziyyəni balasına ana hekayət eylədi
Yavaş-yavaş o nazənin fəraqa adət eylədi
Yetişdi günlər aylara ilə dolandı gəlmədi

Qərəz fəraqə xülq tapıb ikisi bahəm ağladı
Müqəyyəd oldu tay-tuşun görəndə kəm-kəm ağladı
Gələndə şəhri-Yəsribə o qanlı pərçəm ağladı
Hezar heyf ki, sahibi qana boyandı gəlmədi

Yetişdi rüşdə bir qədər elə ki, bildi mətləbi
İmami-Zeynül-Abidin verərdi dərsi-məktəbi
Cavanlar ilə kuçədə edərdi bəhsi məzhəbi
Məqami elm və fəzilətin görən dayandı, gəlmədi

Deyərdi Fatimə anam öpən gəlin gülabiyəm
Nejadi-Haşimidənəm, təbari Bu Turabiyəm
Mən inqilabi oğluyam, özüm də inqilabiyəm
Şəhadət arzusunda varam haçandı, gəlmədi

Həmişə arzudayam imam fürsət eyləyə
Mədinə əhli sidq ilə o şaha beyət eyləyə
Əleyhi küfrü-zülmə ta qiyamu-nehzət eyləyə
Əyan ola cahanda kim bu haqqı dandı, gəlmədi

Gərək Bəni-Üməyyəyə bu ruzigarı təng edə
Tamami səngdillərin nişanəyi-xədəng edə
O qanlı pərçəmi verə, məni vəzir cəng edə
Bu arzuda qəlbimin tənuri yandı, gəlmədi

# Ümmül-Bənin (s.ə) həzrət Əbəlfəzin (ə) qəmində (sinəzən)

Oğlun mənə həmnalədi bir ildi Əbülfəzl
Göz yaşıma bais bu şirin dildi Əbülfəzl

Boş qoymadı Allah yerin ey kani kəramət
Var indidən oğlunda sənin eşqi ibadət
Quranın edər gündə fəsahətlə tilavət
Bu sənilə təklifinə amildi Əbülfəzl

Bu müddəti doydum, nə danışmaqda sözündən
Nə götürə bildim o həsrətli gözündən
Evdən ki, çıxar hey deyərəm gözlə özündən
Çün çoxdu həsəd göz-gözə qatildi Əbülfəzl

Amma məni bir dərdi edib qəlbi yaralı
Gültək neçə rəngə dolanır gündə camalı
Axşam ki, batır gün, balamın rəngi saralı
Görəm elə qəlbi dolu niskildi Əbülfəzl

Hər gün qapını sübh açar, axşam özü bağlar
Dindirməsəm hey fikrə gedib qəlbimi dağlar
Gülsəm üzünə fori gülər, ağlasam ağlar
Səntək ədəbində elə qabildi Əbülfəzl

Hər sail olur indi bu dərgahə tüfeyli
Var çoxlarının əllərini öpməyə meyli
Hər kim səni görmür qayıdır qəlbi gileyli
Görrəm çoxu didarına mayildi Əbülfəzl

Başıma əvvəl bayramın oğlum kül oldu
Evdə hamı əşki qəmu-matəmə bələndi
Sail adını səslədi dərdim təzələndi
Mən ağladım oğlun gözümü sildi Əbülfəzl

Qol boynuma saldı mənimçün verdi təsəlli
Qollarını öpdüm, dedim Allah bunu saxla
Evdə kişi xəlqindən ümidim budu tənha
Çün miri hərəm sahibi mənzildi Əbülfəzl

Hər gün sıxılar qüssəli qəlbim qəm əlində
Billəm ki, əgər qəm dağıla həmdəm əlində
Tez səslərəm oğlun dolanar pərçəm əlində
Biçarə anan gör niyə xoşdildi Əbülfəzl

Bir parça ədəbdi hərəkatı hər işində
Eylir səni ehya gəlişində, gedişində
Məbhutəm özüm də rəvişində, yerişində
Guya sənə bir zində şəmayildi Əbülfəzl

Ey kani səxavət məni az didə tər eylə
Axər şəbi barik fəraqı səhər eylə
Gəl bu nəzərə gəlməyənə bir nəzər eylə
Çün Münzəvidə hər nədi saildi Əbülfəzl

# Qitələr

Mən Zeynəbəm, zəmanə mənə sinə dağladı
Gül bəslədim, həvadisi əyyam ayaqladı
Zəhra evində səy elədim bir çıraq yana
Sani açan qapını çəkib Şimr bağladı

Mən Zeynəbm ki, Fatimə naib mənabıyam
Divaru-dər sıxan gülün ərzan gülabıyam
Dünyanı versələr mənə sakit oturmaram
Mən Mürtəza Əli qızıyam, inqilabiyəm

Mən Zeynəbəm bu qan ürəyim şanə-şanədir
Səngi bəlayə şişeyi-qəlbim nişanədir

On gün Yezidin izzəti var, beş günü keçib
Amma mənim adım, hədəfim cavidanədir

Mən Zeynəbəm, gül əkmişəm Allah, xəzan gəlib
Gül qönçədə əsib qara yellər talan gəlib
Etdim gilayə bəxtimə, aldım cavabımı
Bəxti qaraların günü gündən yaman gəlib

Qardaşların ki, bacıya nisbət vəfası var
Qardaş yanında bacı verə can, səfası var
Hər kim əli ürəkdə ölə bisəbəb deyil
Alsan xəbər deyəllər ürəkdə yarası var

Mən Zeynəbəm əlac edərəm səxt müşkülə
Eşq aləmində müctəhidəm çox məsailə
Bildim ki, baş yaranlara eylələr intiqad
Yazdım cavab qanımla çubi məhmilə

# Həzrət Zeynəb (s.ə) (cuşi)

Qoyub can məktəbi-İslama Zeynəb
Alıb fəxrilə danişnamə Zeynəb
Ənisi-məktəbi-Nəhcül-bəlağə
Müəllimsiz olan əllamə Zeynəb

Xədicə xülqidi, Zəhra misalı
Peyəmbər xislət və Heydər xisalı
Çalışdı əlli dörd il mahu-salı
Hüseynin getməsin əldən vüsalı
Yetişsin hər baxanda kama Zeynəb

Əsirani bəlanın sərpərəsti
Qiyami Kərbəlanın pişdəsti
Salan təxtdən Yezidi zərbi şəsti
Vuran tağuta canfərsa şikəsti
Onu məhkum edən edama Zeynəb

O banu ki, hamı ecab edərdi
Həmişə kəsbi feyzi nab edərdi
Mülaqati ulul-əlbab edərdi

Əmini vəhyə fəthi-bab edərdi
Olardı aşina peyğama Zeynəb

Əlinin doxtəri ziba kəlamı
Hüseynin xahəri vala məqamı
Od içrə hifz edən cani imamı
İmama qaytaran “bərdən səlam”ı
Behökmi Xaliq, əllamə Zeynəb

Diyari Kərbəlanın qəhrəmanı
Məqam və rütbədə Zəhrayi-sani
Salıbdır yadına “qalu bəla”nı
Mürəttəb qıldı bəzmi Kərbəlanı
Çəkib nəqşə, töküb bərnamə Zeynəb

O dəm ki, verdi fərman şahi məhşər
Keçirdin məşəlu-şamı sərasər
Gedən getsin, götürdüm qeydi yeksər
Mənəm mənzuri həqqi məqsudi ləşgər
Sizə mən rəhbərəm, əytamə Zeynəb

Əgər sübh olsa ey yarani məşmul
Çox olsa ləşgərim, dəva tapar tul
Deyil canan yanında kari məqbul
Keçər vəqtim mənəm bu əmrə məsul
Boyansam tez yetişməz Şamə Zeynəb

Qərəz məşəl keçib, aləm qaraldı
O az ləşgər yenə bir-bir azaldı
Gedən getdi, yazılmış iddə qaldı
Uşaqlar titrədi rəngi saraldı
Çağırdı qardaşın əxyamə Zeynəb

Dedi ahunla az ətfalı yandır
Bəla çoxdur məni başa dolandır
Dağıtdın ləşgəri sirrin əyandır
Qoşun bilsə edər həmlə amandır
Düşər zülmət gecəylən damə Zeynəb

Nə qədri qardaşım lütfün kəm etməz

Vücudun göz görər, kiprik nəm etməz
Əbülfəzli görən bacı qəm etməz
Fələk Zeynəb tifaqın bərhəm etməz
Xəm olmaz möhnətu-alama Zeynəb

Qərəb mabeyni Şam və Kərbəlada
Təlaş, zəhmət, səy və səfada
Namazi şəbdə, təsbih və duada
Sızıldardı gecə viransərada
Salardı lərzə hər əndamə Zeynəb

Olub axər evi pirayəsiz yer
Həman divarsız yer, payəsiz yer
Özü bifərş -o- səqf -o- sayəsiz yer
Kənari şəhridə həmsayəsiz yer
Tutub üz məsdəri ilhamə Zeynəb

Dil açdı la yənamə Allah Allah
Dedi rəbbül-ənamə Allah Allah
Quşum qonmur bu Şamə Allah Allah

Yetir ömrüm tamama Allah Allah

Dözənmir möhnəti əyyamə Zeynəb

Nə var oğlum pərişan könlüm alsın

Nə bir qardaş əqəllən sayə salısın

Bu gərdişdən fələk avarə qalsın

Məgər insafidi Zeynəb qocalsın

Desinlər xar olub züllamə Zeynəb

Diyari Şam əgərçi məhbəsimdi

Rüqəyyəm burda çox dilvapəsimdi

Mən ondan sınmaram tənha kəsimdi

Çıraq yansın işıq gəlsin bəsimdi

Səfa versin dili nakamə Zeynəb

# Həzrət Zeynəbin (s.ə) inqilabi mədhiyyəsi

Qiyami sorx Hüseynin, kitabı Zeynəbdir

O məktəbi hədəfin baztabı Zeynəbdir

Məcameyi-bəşəriyyəydə səslənir vicdan

Yeganə şiri-zən inqilabi Zeynəbdir

Əlinin aqilə qaim-məqami müntəxəbi

Bətulun aləmə naib mənabı Zeynəbdir

Əsiri atifə, mahi münir, çərxi ifaf

Sipehri mərifətin aftabı Zeynəbdir

Əlidən irs aparan nitqidə, fəsahətdə

Fəhimə doxtəri hazırcavabı Zeynəbdir

Yezidin aləmə mahiyyətin edənələni

Alışdıran şərəri inqilabı Zeynəbdir

Vuran o heynidə möhkəm Yezidin ağzından

Hüseyn kimi elə moşti hesabı Zeynəbdir

Böyük müəllimə danişsərayi ismətdə

Hüseyn qanilə dirildən hicabı Zeynəbdir

Əsir olubdu qutarsın zənan əsarətdən

Açıb, kəsən hamı qeydu-tənabı Zeynəbdir

Dedi odur zəni azadə xanədar olsun

Nişan verən bu təriqi səvabı Zeynəbdir

O Zeynəb heç zəni müstəxdimə deməz azad

Xüsus düşməni hər bihicab Zeynəbdir

Nədir bu rusəri ey banəvani roşənfikr

Hicabi-şərinin hədd-hesabı Zeynəbdir
Gər istəməz edəsiz Zeynəbin yolun təqib
Yalançı əhli hicabın cavabı Zeynəbdir
Hicabı həqq bilisiz, bir baxın Əli qızına
Əba başında, üzündə niqabı Zeynəbdir
Kulahi-şəridi bu rusəri əba yerinə
Edən o çöhrəyə qəhru-itabı Zeynəbdir
Olar ki, peyrovi-xətti Bətuli Fatimədir
Bilillər məzhəri nikuməab Zeynəbdir
Mühibbi Zeynəb olan rozədən ayaq çəkməz
Əzanın aşiqi por iltəhabı Zeynəbdir
Yanan çadırdakı heyətdə əvvəlin bani
Həqiqi göz yaşının ərzyabı Zeynəbdir
Hüseynə nohə deyib dəhomi Məhərrəmdən
Tökən gül arizinə əşgi nabı Zeynəbdir
Verən təsəlla dili bəxti qara Leylaya
Dolandıran gecə-gündüz Rübabı Zeynəbdir
Özün oda-suya qardaş balası üstə vuran
Çəkən o barədə bihədd əzabı Zeynəbdir
Məriz imamı yanan xeymədən kənara çəkən

Yanıqlı ahuların dilkəbabı Zeynəbdir

Gedəndə Şamə tərəf naqədən düşən balanın

Qaranlıq gecədə rəddiyabı Zeynəbdir

Edən xitabəsi Şamı qiyama amadə

O xitabədən oyadan şeyxu-şabı Zeynəbdir

Yezidi şuma o məclisdə zəhrimar eləyən

Əlindəki mütənəccis şərabı Zeynəbdir

Xərabədə neçə saət gecə namazı qılan

Qaranlıq gecənin mahtabı Zeynəbdir

Ürək dolan gecəsi rozeyi-vida oxuyan

Təlatümə gətirən nöh qübabı Zeynəbdir

Bilirdi Münzəvi çün "zeyni-əb"di Zeynəb adı

Dedi müzəyyən edən bu kitabı Zeynəbdir

# Həzrət Zeynəb (s.ə) can verərkən qardaşını çağırması (sinəzən)

Gəl Zeynəbi can üstə mülaqat elə qardaş

Bikəs bacını qərqi-mubahat elə qardaş

Mən bir elə  vəhşətli biyabanda Hüseyncan

Tutdum su kənarında sənə şami qəriban
Hərçənd əvəzin istəmirəm ey şəhi xuban
Qardaşlığı aləmə isbat elə qardaş

Bu illətə can üstə anam çox kədər oldu
Oğlu var idi, qardaşı yox, didə tər oldu
Amma bacının ölməyi ondan bətər oldu
Qardaşsız, oğulsuzdudu, müraat elə qardaş

Sən olma riza xaru-zəlilanə gedim mən
Ayrı qapıya çarə və dərmanə gedim mən
Aləm nə deyər qəbrə qəribanə gedim mən
Bir ləhzə vəlo kəşfu-kəramət elə qardaş

Bəxtim yatıb əlbəttə ki, yatsın nə sözüm var
Gər qüssə büküb qəddimi qəlbimdə dözüm var
Axər silə-ərhama görə səndə gözüm var
Qürbətdə ölən bacına xeyrat elə qardaş

Ey Zeynəbin aramı, oğulsuz bacın ölsün

Gəl seyr elə bir Şamı oğulsuz bacın ölsün
Gör başdakı qoğamı oğulsuz bacın ölsün
Beytül-həzni rozeyi-cənnat elə qardaş

Can xəstədir dərdim keçib əfsus dövran
Bir taqə kəfən al mənə bazari bəladan
Bağla bir ovuc guşəsinə xaki səfadan
Öz türbətini əfzəli soqat elə qardaş

Əbbasə yetir xahişim ey şahi xücəstə
Axər dinin ey sərvi səru-dəst şikəstə
Nəfəsinlə müvasat elədin dini həq üstə
Allaha görə bir də müvasat elə qardaş

Şam əhli deyir heç buna bir əl yetirən yox
El sahibidir, dərdinə dərman gətirən yox
Var yeddi nəfər qardaşı yerdən götürən yox
Düşmən gözünə bari inayət elə qardaş

# Həzrət Zeynəb (s.ə) can üstə (sinəzən)

İlahi yeddi qardaşın biri hərayə gəlmədi
Hüseyn kəfən gətirmədi, Həsən əzayə gəlmədi

Bu illətə Həsən qalıb, Hüseyndən istirəm kəfən
Onun vücudun örtmüşəm, bu saçlarım tüküylə mən
Gərək mənə əvəz verə bu gün o şahi mümtəhən
Yetirdim ömrümü başa, qəm intəhayə gəlmədi

Anam Bətuldan sonra nə çəkdi ey Xuda başım
Atam bu gün şəhid olub, səhər vəfalı qardaşım
Deyəndə təşti hazır et, qarışdı qanə göz yaşım
Ürəkdən istədim öləm, dilim duayə gəlmədi

Nə oğlu oldu əskilə qəmi geranı Zeynəbin
Nə qardaş oldu əl tuta çətin zamanı Zeynəbin
Qalıbdı təkyəgahısız qəddi kəmanı Zeynəbin
Belim büküldü heyf ola, əlim əsayə gəlmədi

Əgər çətindi bülbülə gül -o- çəməndan ayrıla
Vəli mənə çətin deyil bu can bədəndən ayrıla

Məhal əmridir bacın bu pirəhəndən ayrıla
Ki, ayrı bir nişanə çün bu binəvayə gəlmədi

Bu qarət əhli bilməyir Hüseyn kiməm, haralıyam
Bu qədri ki, sızıldaram, nədən bilə yaralıyam
Görən çox istəyir bilə kimim ölüb, əzalıyam
Nə var ki, təsliyət verən bu mübtəlayə gəlmədi

Gözüm həmişə yol çəkir, gözətlir intizarını
Gəl indi intizarıdan qutar nəfəs şümarəni
Şikari can nisar olum, görən zaman üzarını
Anam Bətulə etməyim daxi gilayə gəlmədi

Edər bəhanə əllərin əgər əmiri ləşgərin
Deyir ki, qolsuzam qoyam nə noyi qəbrə peykərin
Nec oldu bəs o Qasimin, hayanda qaldı Əkbərin
Başımın üstə salmağa əqəlli sayə gəlmədi

Nə yolladı anam məni gedəndə bəxt otağına
Nə aldı qardaşım mənim cənazəmi qucağına

Bu iki niskili yazın məzarımın rəvaqına

Mənilə çərxi-kəcrəviş səri səfayə gəlmədi

# Bəqi qəbiristanlığına salam (sinəzən)

Ey qapısı bağlı qəbristan salam olsun sənə

Qorxulu zəvvarı sərgərdan salam olsun sənə

Ey Bəqinin torpağı, vey dörd imamın mədfəni

Arizu eylər hamı qəsdi ziyarətlən səni

Taziyanə əldə qoymaz leyk Zəhra düşməni

Vəslu-hicranın olar yeksan salam olsun sənə

Səndə yatmış cani aləm, dörd imami mümtəhən

Nə hərəm, nə bəqiyə, nə güldəstə, nə səhnu-çəmən

Toz basıb məhzun qəbrin, nə gələn var, nə gedən

Az qalır olsun o da viran, salam olsun sənə

Razquyani hicabati həqayiq səndədir

Pasdarani nəvamisi xəlayiq səndədir

Müctəba, Baqir, Səccad və Sadiq səndədir

Bihisar -o- bidər -o- dərban, salam olsun sənə

Sən vəfadar olmağın həli vəfadan məşqin al
Basəfalıq dərinin əhli səfadan məşqin al
Gül bitirmək istəsən Kərbəladan məşqin al
Qoyma yetsin güllərə nöqsan, salam olsun sənə

Kərbəla xar etməyib ovladi-Taha qəbrini
Saxlayıb iclal ilən hər mahsima qəbrini
Sən vəli gizlətmisən Siddiqə Zəhra qəbrini
Cani aləm sinənə qurban, salam olsun sənə

# Dörd imama (ə) salam

Ey imami Müctəba, məsmumi zəhri qeysəri
Vey edən qəndil nuri roşən ərşi davəri
Oxlanan zülmilə tabut içrə cismi əthəri
Qəlbi sədparə, bədən şan-şan salam olsun sənə

Ey imami Sacid, ey əhli sücudə nuri-eyn
Vey olan bir ömr zəvvaru-əzadari Hüseyn

Ağlayan qırx il Hüseynə bafəğan, şuru-şin

Tuli-ömrü munisi hicran salam olsun sənə

Ey imami Baqir, ey gənci ülumi Mustafa

Sabiq-xeyrat, sultani sərir istəfa

Yay günü bağ belləyib, ruhun edən qərqi səfa

Kargərlərtək ərəq rizan salam olsun sənə

Ey imami Sadiq, ey misdaqi-səqli rəhbəri

Öyrədən dörd min nəfər şagirdə fiqhi Cəfəri

Eyləyən təlim Əbu Həyyanlara şimigəri

Xadimi əllameyi-doran salam olsun sənə

# Ömərin Müaviyyəyə yazdığı məktubun oğlanları tərəfindən ifşa olması

Aləmi zərridə hər zərrə səzavar oldu

Qabili tərbiyət və məhrəmi əsrar oldu

Kim dedi orda “bəla” tapdı vilayətə şərəf

Kim bəlaya dedi “la” düşməni əxyar oldu

Bu siyaqilə zühur etdi səid ilə şəqi
Biri həqqə, biri nahəqqə tərəfdar oldu
Xəlqi ağfal edən iblis özün aldatdı əvvəl
Fikri kəc fikrə düşüb, döndü xətakar oldu
Gər qələmdarı ələmdar edələr bir neçə gün
Bilinər kamil əyarilə kim əyyar oldu
Qıl Əbi Bəkrə tamaşa, gör onun oğlu necə
Cüzvi xüddami dəri Heydəri Kərrar oldu
Kim Əli eşqini əmdi ana pistanından
Ta əbəd həlqə bequş şəhi əbrar oldu
Kim Əli adı yazıb qəbzeyi-şəmşirində
Səfəvi şahlarıtək aləmə salar oldu
Kim tapıb Münzəvitək Ali-Əli eşqinə xülq
Nəfəsi məşgi fişan, nitqi şükrbar oldu
Zikri nemət özü bir şükridi, nə kibru-qürur
Şükrü nemət edənin qisməti sərşar oldu
Fikrim aşiftələnir gündə Fədək fikrindən
Gün kimi həqqi müsəlləm necə inkar oldu
Vardı tarixdə bir nameyi-məxfi guya
Vaqiyeyi-Kərbübəladan sonra izhar oldu

O zaman ki, Yezid elədi zülmün ələni
Öldürüb şahı, xəbər hər yerə əxbar oldu
Yetişibdir bu söz ibn Ömər, Əbdullahə
Zahirən ah çəkib, həqqə tərəfdar oldu
Çün onun da var idi başda xilafət həvəsi
Gördü axtardığı fürsət yolu həmvar oldu
Yazdı bir namə itabilə Yezidi şumə
Əhli təqva niyə bu zülmə giriftar oldu
Nə cəsarətdi bu etdin şərəfi İslamə
Niyə əvvəl hədəfin itrəti əthar oldu
Bir Hüseyni ki, onu cəddi öpüb, iylərdi
Nə səbəbdən nəzərində bu qədər xar oldu
Cəddi qatillərinin küfrünü isbat etdi
“Ləhmukə ləhmi” onun şəninə təkrar oldu
Görmürəm səndə ləyaqət olasan xalqa əmir
Əməlin mayeyi-nəng və səbəbi ar oldu
Əlqərəz etdi həmən namə Yezidin əlinə
Oxudu piçu-xəmə düşdü siyəhmar oldu
Yazmadı namə vəli yolladı sirri məmur
Qəflətən ibn Ömər məhzərə ehzar oldu

Zahirən hörmət edib, yer verib öz təxtində
Soruşub halınını, əhvalına qəmxar oldu
Dedi aya tanısan xətt ilə, möhrün atanın
Dili əlbəttə dedi, baisi iqrar oldu
Açdı sandıqı yavaş eylədi bir namə kənar
Verdi Əbdullahə ta kaşifi əsrar oldu
Dedi bu naməni yazmış atama, nakəs atan
Oxu gör kimdi ki, əvvəldə sitəmkar oldu
Oxudu naməni hey sildi xəcalət tərini
Gah rəngi qızarıb, gah gözü tar oldu
Gördü mafoqi sərahətlə yazıb öz atası
Ey Müaviyyə, əcəb bəxt bizə yar oldu
Öldü Peyğəmbər, olub səltənət amadə bizə
Arizu nəxli nə şirin bər -o- porbar oldu
Yəsrib və Məkkə bizim, Şam quvaradı sənə
İndi vur kisəyə hər dirhəmu-dinar oldu
Kəsdim əvvəldə xilafətdən Əlinin əlini
Fədəki qəsb elədim, fəqrə giriftar oldu
Fitnə bərpa elədim, beyət alam zillətilən
Qapısın döydüm özüm, Fatimə bizar oldu

Mən dedim aç qapını, səslədi əl çək bizdən
Hər tərəfdən bu məqalata çox israr oldu
Dedim əlan qapını açmasalar yandırram
Mənə həmrəy olan üç yüz nəfər əşrar oldu
Qapını hovlilə mən açdım, o örtdü üzümə
Zori bazusi mənə zərbeyi-düşvar oldu
Qonfuzun qəmçisin aldım, əlin üzdüm qapıdan
Hər nə zülm oldu, miyani dəru-divar oldu
Səslədi Fizzə amandır məni tut, öldü balam
İsmətullahın axər belə rəftar oldu
Qanın aldım ölən əcdadımızın Fatimədən
Batinən qatili mən, zahiri mismar oldu
Əlqərəz namədən Əbdullah olub şərməndə
Saldı başın aşağa, qərqi əfkar oldu
Naməni aldı, qoyubdur yenə sandığa Yezid
Dedi gör lənətə kim başda səzavar oldu
Zalıma lənət oxunsa, sizə əvvəl yetişər
Həqqi-Zəhraya atan baisi inkar oldu

# Müvəhhidlər movlasının (ə) Siddiqeyi-Kübraya (s.ə) Səqifə şurasının seçkilərindən şikayəti[2]

Yerdədir Peyğəmbər cənazəsi, aləmə qiyamətdir Fatimə
Cəngdən qaçanlar Səqifədə teşneyi-rəyasətdi Fatimə
İnqilab ilən eylədin bəna etiraz və fəryad məktəbin
Nehzətin əyan qıldı aləmə vəhdətin siyasətlə məzhəbin
Baztabi ovzayi-Kufəyə ruhun etdi amadə Zeynəbin
Kufədə görərsən qızın necə hamili risalətdi Fatimə

Mən bu intixabata mötəriz olmuşam əgər vardır illəti
Aldadır məhasin sefidlər bir bölük siyəhruz milləti
İstəyir kiçik bir əqəlliyyət hər yerə sürə əksəriyyəti
Tudeyi-keşavər və kargər mütləq əksəriyyətdi Fatimə

Əvvələn xilafət mənimkidir nəssi aşkari Kitab ilən
Saniyən çatar əksəriyyətə rəyi salim və intixab ilən
Bir günü əgər həqqin istəsə xəlqi qəhrəman inqilab ilən

---

[2]. Səqifə şurasına qarşı fəryad və etirazlar onun tarixdə etibarını itirməsinə səbəb oldu. Saxta seçkilərə qarşı çıxma şiə məktəbinin xüsusiyyətlərindəndir.

Onda faş olar aləmə bunlar qasibi xilafətdi Fatimə

İftixari vəhy -o- nübüvvət və məktəbi risalət bizimkidir
Cənglərdə möhkəm qılınc vuran pənceyi-şücaət bizimkidir
Həqqi indi həqdarə versələr, ədlilən xilafət bizimkidir
Cəngdən qaçanlar iş üstədir, baisi məlamətdi Fatimə

Həccətul-vidasından Mustafa, yüz iyirmi min rəy alıb mənə
On nəfər şəhadət verənmədi, piri mürtəce təxtidən enə
Başlar üstə sərnizə olmasa, tirə şəb dönər sübhi roşənə
Dil yalan şəhadət verər məgər, bilsə baş səlamətdi Fatimə

Xəlq ara Bəni Haşimi bular, oxşadıblar hizbi müxalifə
Gəldi Əbdi Rəhman Ofilər, məkrilən qarışdı məarifə
Maliki Nüveyra şəhid olub, qatil ilən oldu mualifə
Xalid, Ofə şamil olar məgər, ax bu nə qəzavətdi Fatimə

Mülkünü alıb hakimi sitəm, verdi nabehəq bir ənasirə
Günbəgün salıb Ali-Haşimi, təngə iqtisadi mühasirə
Elə şumi təbliğ ediblə ki, xəlqdən gedib hissi basirə

Zor ilən rəyasət olar vəli aqibət nədamətdi Fatimə

Vay bu millət həməqidədi batinən əcəb rəngi rəngidir
Sahibani həqq dovrədə qalıb, əhli batilə ərsə təngidir
Beyət üstə çün cəngi daxili, rəhbərani İslama nəngidir
Yoxsa mərgidən vəhşət etmərəm, niyyətim sədaqətdi Fatimə

Olma nagiran çox əzizdir, xatiri Həsən, Hüseyn mənə
Mən sənin fəraqında naxoşam, çün olardan ərzəndəsən mənə
Verdin elə mərdanə canını, aləmi sədaqətdə sən mənə
Bir belə səfa bir zəifədə, məzhəri şəhamətdi Fatimə

Yox sözüm Əlidən əl üzmüsən, öz məramına paybəstəsən
Get mənim evimdə çox incidin, qəbr evində dincəl ki, xəstəsən
Ali-Haşimə abirusan ey qəhrəmani pəhlu şikəstə sən
Həqqimin sübutundan siqt olan Möhsinin kifayətdi Fatimə

Nisfi şəbdə ömrüm də nisf olur ahım az qalır canə od sala
Səbr edə yətim saxlayan gərək, qoymaram bu yolda qədəm dala
Sübhəcək gərək neyləsin Əli, bir pozulmuş ev, dörd yətim bala

Bir gecə nəzər qıl bu səhnədə, gör necə qiyamətdi Fatimə

Qız ananı çox arizu edər, bu iki müvəffəq zəmanidə
Bir otaqi bəxtə gedən gecə, bir də əvvəlin zayimanidə
Zeynəbim gəlin getsə əyləşib, ağlaya gərək asitanidə
Çün bilir bizim asitanımız, məsdəri şəhadətdi Fatimə

Sinənin qanı hər yerə dəyib, kim bilir nə ünvan ilən yuya
Bu o qanlara bənzəməz biri əşgi çeşmu-mujqan yuya
Qan gərək qapıdan yuyulmaya, qan alan gəlib qan ilən yuya
Qana qan töküb, intiqam ala, məntiqi ədalətdi Fatimə

# Həzrət Zəhra (s.ə)

Rəhmə gəlsəydi xəzan, gül belə xar olmazdı
Gülə olsaydı yanan həmdəm, xar olmazdı

Bağbanın açıq olsaydı qolu əvvəldən
Gülşənə zaru-zəğən paygüzar olmazdı
Abrını gül olan bülbülün öz göz yaşıdı
Yoxsa şəbnəm bu qədər qayilədar olmazdı

Şam pərvanənin ey kaş biləydi hədəfin

Cani üşşaqə belə suzu-şərar olmazdı

Əqli olsaydı o pərvanəyə divanə deyən

Arizu günlərinə ruzşumar olmazdı

Bəlkə pərvanə görər şölədə Zəhra qapısın

Yoxsa şirin olur can, aşiqi nar olmazdı

Hakəza hörməti Zəhranı da bilsəydi ədu

Xəlq ara cəli hədis şüar olmazdı

Olmasaydı bu cəsarət şərəfi-sadata

Xanədani ələvi fəqrə düçar olmazdı

Vurmasaydı öz evində biri ev sahibini

Ta cahan var belə bir rəsmu-qərar olmazdı

Onda məhkum edən olsaydı təcavüzkarı

Şiri-nər pənceyi-rubhaha şikar olmazdı

Yanmasaydı qapısı zülm oduna Zəhranın

Zeynəbin xeymələri şölə hisar olmazdı

Hörmət olsaydı ona, Zeynəbi getməzdi əsir

Qolu bağlı, baş açıq, naqə səvar olmazdı

Olmasaydı Ömər, etməzdi Ömər Səd cəfa

Şimr dibaçə tarixdə ar olmazdı

O verib xəncər, Şümrilə Şüreyhin qələmin

Yoxsa hökmü sitəmə səhhəgüzar olmazdı

Möhsinin qanı alınsaydı o gün sanidən

Möhsini digər çöllərdə məzar olmazdı

Qolu bağlı ölənin müntəqimi olsaydı

Hərmələ gözdən oxu atmaqda əyar olmazdı

Əli Əsğər dil açıb Möhsinə səslərdi əmu

Həşrəcək xatiri Zəhrada qübar olmazdı

Nə Rübabın gün evində ağarardı başı

Nə Rüqəyyə ayağı çöldə qabar olmazdı

Nə vurardı biri sili atasızlar üzünə

Nə biri zülməti şəbdə Zəcrə düçar olmazdı

Nə qoyardı təzə damad əlinə qanlı həna

Nə gəlin qarə geyib, təziyədar olmazdı

Gər düşəydi üsəra gəbru-nəsara əlinə

Fatimə cucələri bir belə zar olmazdı

Gəbr vurmazdı yəqin qəmçi yətimin başına

Ağlamaq boğzi buğazında məhar olmazdı

Neyləyək Zəcr də, Qonfuzdan alıb təlimat

Yoxsa züllamə belə həmdəmu-yar olmazdı

Münzəvinin sənə ya Fatimə çoxdur giləsi

Kimdən artıq balana təziyədar olmazdı

Gecə-gündüz sənin ovladına fikr eylərdim

Ləhzə qəlbimdə mənim səbru-qərar olmazdı

Heç olub sən də mənim fikrimə bir yol qalasan

Lütfün olsaydı ki, halım belə zar olmazdı

## Siddiqeyi-Kübra (s.ə)

Əmoğlu kuçədə bir rahi çarə axtarıram

Açıq deyənmirəm əhli işarə axtarıram

Qəbalə getdi düşəndim yerə qəbalə kimin

Əlim üzümdə sınıq güşvarə axtarıram

Bunu bilirsən utandırmaram ölüncə səni

Vəli təsəlliyi-dil dağidarə axtarıram

Nə razıyam gələsən Zülfəqar ələ alasan

Nə mən bu xərməni səbrə şərarə axtarıram

Təqiyyə məsləhətindir əgər özün bilsən

Mənim də dərdimə eylə çarə axtarıram

Əlin yetir əlimə, bir qoyum ürək başına

Qəraru-səbri dili biqərara axtarıram

Nə qardaşım var əqəllən deyə cavan bacı vay
Nə var anam sala bir başa qarə axtarıram
Nə qarə günlərə qaldım atam ölən gündən
Mənim ki, bir yananım yox dubarə axtarıram
Qəbalə parələdi ömrümün qəbaləsini
Qapımda zülm odunu aşkarə axtarıram
O gün ki, bu qapıdan kəsdi Cəbrəil ayağın
Şikəstə züruq ömrə kənarə axtarıram
Atam öləndə xamuş oldu ömrümün çırağı
Bəhanə dideyi gohər nisarə axtarıram
Mədinə əhli mənə çox görürlər bu ağlamağı
Evim qalıb gün evin ahu-zarə axtarıram
Gələn deyir ki, az ağla yatanmırıq gecələr
Gözüm deyir gecə daim sitarə axtarıram
Bu gözlərim də yatanda ürək deyər yatma
Yaralıyam, dur əlac eylə çarə axtarıram
Alışmışam yanıram, ağla qoy odum sönsün
Dəvayi-əşgi dil zəxmdarə axtarıram
Babam Rəsul deyən söz yavaş-yavaş göyərir
Nə vəqt nəfəs düşər Allah şümarə axtarıram

Bu gün-sabah yıxacaqdır bu qədər qüssə məni
Bəhanə mərhələyi-ehtizara axtarıram
Qələm yazır bu sözü göz İmami Əsri gəzir
Ana misibətidi ehtizara axtarıram
Qapını yandırıb üz yüz nəfər hücum eylədi
Şərari qəmi dil möhnəti şüarə axtarıram
Ucaldı nalə anandan "xuzni ya Fizzə"
Başım açıqdı, əba istitarə axtarıram
Əbanı sal başıma, bir qətifə hazır elə
Kəfən bu Möhsini məzulumu-zarə axtarıram
Yaralıyam məni tut Fizzə, indi qan aparır
Əlim ürəkdə bu sinəmdə yarə axtarıram
Özümdə ölsəm əgər ölmüşəm bu qoğada
Aman yolu şəhi valatəbara axtarıram
Əlinin həqqinə bu nəqdi can zəmanətdir
Vilayəti o şəhi tacidara axtarıram

# İmam Əli (ə) həzrət Zəhranın (s.ə) qəmində (sinəzən)

Bəhanə şərhi sədr oldu məgər mismarə Zəhracan
Şəhidə eylədin rehlət sinəndə yarə Zəhracan

Qapımı eyləyim təviz, onun divarını neylim
Bənadan ya edim viran, nihan əsrarını neylim
Qapı qalsın həmin halda, onun mismarını neynim
Müvərrix yazmaz əl dəysə qalan asarə Zəhracan

Vətən zindan olub sənsiz, ürəyim qüssədən doldu
Nə bir ərzi təsəllayə, nə tərhimə gələn oldu
Deyim noldu gözüm doldu, yel əsdi güllərim soldu
Əsər yel, bağban ağlar solan gülzarə Zəhracan

Dedim qüslün verən vəqtə mən Əsmayi-diləfkarə
İki güşvarəsin saxla nişanə Zeynbi zarə
Kənarə zülfünü verdim, nə gördüm, təkcə güşvarə
Dedim vay kuçədə qaldı sınıq güşvarə Zəhracan

Adın mismarə yazmışdı, zəmanı Xaliqi Mənnan
Qutardi Nuhu dəsti həqq o mismarilə tufandan

Vəli bilməm nə yazmışdı bu mismarə Həqqi Subhan
Toxandı züruqi cismin belə divarə Zəhracan

Nə tənha sən əsir oldun kəmən məkri züllamə
Mənim də bağlanıb pəncəm tənabi qəhri əyyamə
O əl ki, Zülfəqar ilə edirdi xidmət İslamə
Yəhudi kuçəsin alan gəzir avarə Zəhracan

Yadımdan çıxmaz ömrümdə az ömrün, çox müsibətin
Gecələr sübhəcək Həqqə gözü yaşlı münacatın
Duayi-subhu-şəb “əccil vəfati” ərzi hacətin
Yetirdi tayiri ruhun diyari yarə Zəhracan

Evimdə doqquz il oldun mənə sən qəm günü yoldaş
Bu yetmiş beş günün oldu bəlası doqquz ildən baş
Qəm etmə qaldı sərgərdan iki bacı, iki qardaş
Əgər Möhsin də qalsaydı edərdim çarə Zəhracan

Çəkib ağuşə səslərdim, gül üzlü sevgilim laylay
Ürəkdə niskilim laylay, mənim şirin dilim laylay

Sızıldardım gecə-gündüz gülüm vay, bülbülüm laylay

Qolumu balış eylərdim, sinəm gəhvarə Zəhracan

# Həzrət Zəhranın (s.ə) İmam Əli (ə) ilə dərdləşməsi

Gəl otağı bir xəlvət eyləyək

Təngə gəldi sinəm əmoğlucan

Ağlayaq Hüseyn ilə Zeynəbə

Bir doyunca bahəm əmoğlucan

Doqquz ildi bu evdə lütfün sayəsində mən daldalanmışam

Can deyib sənə, can eşitmişəm, sən yanan müsibətdə yanmışam

Hər gecə Hüseynim su istəyib, Fizzədən qabaq mən oyanmışam

Üz-gözün öpüb, istirahətin etmişəm fərahəm əmoğlucan

Xatiri şərifin bu sözlərin xatirinə narahət olmasın

Zeynəbin özüm zülfünü yudum, Fizzəyə dedim zəhmət olmasın

Öz vəzifəmə etmişəm əməl, xidmətim sənə minnət olmasın

Bu dilə gələn sözlərimdə var, ayrı sirri mübhəm əmoğlucan

Nə bu evdəki xidmətə görə can verən zaman ücrət istərəm
Nə Hüseyn, nə Gülsüm, nə Zeynəbin əmdiyi südə qiymət istərəm
Bu döşümdəki qan olan südün xatirinə hiliyyət istərəm
Sən məni həlal eylə ta edim can nisar müqəddəm əmoğlucan

Dərdimənd uşaqlarımı çağır, şərhi dərdi hicran edim gedim
Səbri tapşırım qəm çəkənlərə dərd əliylə dərman edim gedim
Ver Hüseynimi bir də sinəmə, can Hüseynə qurban edim gedim
Vazeh olsun axər vidayidə, ibtidayi matəm əmoğlucan

Gün batanda səy elə bu evə zülmət deci sayə salmasın
Axşam olcağın bu yetimlər xatirin qübari qəm almasın
Sən özün çırağ yandır hər gecə, Zeynəbim qaranlıqda qalmasın
Zeynəb oxşasa mən də ağlaram qəbr içində hərdəm əmoğlucan

Qəlbi tez sınar ləhzə ülfətin bir nəfər kəsəndə Hüseyn ilən
Qoyma sən də bir ləhzə ayrıla, qardaşı Həsən də Hüseyn ilən
Bir zəman hələ ayrı gəzməyin, Müctəba da, sən də Hüseynilən
Sən yətimlər daxahısan, ey pənahi aləm əmoğlucan

Dəsti çeşmi bəndi qəza ilən, sən ki, yanmalıydın fəraqimə
Kaş o gün öləydim ki, vurdular yarə qəlbi pər iştiyaqıma
Astanədə dəfn edib məni, Möhsini verdin qucaqimə
Qəbr olaydı dilsiz şəhidimə, bu yaralı sinəm əmoğlucan

Yandı zülmü sanidən ey əcəb, astaneyi-vəhyi ləm yəzəl
Bağladı sənin qolların fələk, düşmənin mənə qoymadı məhəl
Qaidi şəriət əyalına, öz evində axər açıldı əl
Busəgahi Cəbrəilə vurdular, poşti payi möhkəm əmoğlucan

Dəfnu-kəfənin qıl tədarükün, nisfi şəbdə ver qüslümü özün
Köynəyim çıxartma yaralıyam, faş olmasın sirri bu sözün
Ay əgər işıq salsa sinəmə, naləni bülənd etmə yum gözün
Bir də bu keçən hadisati sən, eyləmə mücəssəm əmoğlucan

# Həzrət Zəhranın (ə.s) Möhsinə (ə) xitabı

Sənə mən analıq edənmədim
Yetirəm rəşadətə Möhsinim
Anani həlal eylə ceddinə

Gedisən şikayətə Möhsinim

Babam öldü itrətinə vəli
Fədək üstə müddəyi çıxdılar
Qapının dalında kəbutər
Hərəmi fişar ilə sıxdılar
Məni bu əmoğlum Əli yıxan
Bütün intiqamına yıxdılar
Qapımı təlafi Xeybərə
Özümü ədavətə Möhsinim
Nə qədər çalışdım oğul yanar
Odun üstünə su tökənmədim
Ürəyində sani zalımın
Gülü rəhm -o- rəfət əkənmədim
Sənə sinəmi sipər eylədim
Özümü kənarə çəkənmədim
Gəl oğul bu sinəmə üz qoyub
Pey apar cərahətə Möhsinim
Demə daldalandırasan məni
Qanadında himmətin olmadı

Sinən üstə nazımı çəkməyə

Neçə ayda fürsətin olmadı

Yox oğul bu qana dönən südüm

Hədər oldu, qismətin olmadı

Ürəyimdə qaldı süd əmməyin

Həvəsi qiyamətə Möhsinim

Elə yatmadın səni səsləyib

Oyadam dubarə bu xabidən

Ürəyin sərinlədə dəmbədəm

Ana şirdən, bacı abdan

Dodağın o qədər öpə Zeynəbim

Keçə mərzi hədd və hisabidən

Tökələr şəkər, şəkər üstünə

Dönə həlavətə Möhsinim

Bu nə sirridir gülü soldurar

Budağında badi xəzan səsi

Yuxudan həras ayılar anan

Balanın ucalsa fəğan səsi

Gözün aç səni verək əlbəəl

Eşidə qulağım azan səsi

Əməl eyləyək bu gecə babam

Gətirən şəriətə Möhsinim

Get anan Xədicə gözətləyir

Yolun indi qalma oğul gecə

Əl əl üstə süd verə dayələr

Çəkir intizarını bu gecə

Sən özün yetir anama oğul

Gör anan dalınca gəlir necə

Elə hər şikayətin olsa mən

Gəlirəm şəhadətə gəlirəm Möhsinim

Necə sən oğul mənə qalmadın

Mən özüm də heç sənə qalmadım

Analar kimi sənə süd verib

Bələyib qucağıma almadım

Həsəneynimə toy edənmədim

Toy əbası başıma salmadım

Nə də Zeynəbeyni gəlin verib

Oturam ziyafətə Möhsinim

Elə mümkün olmadı baxam

Yeriyəndə qəddinə, nazına

Yetişəm qiraəti Həmdinə

Sevinən azan və namazına

Deyəm eyn və sadı əyan elə

Sal o hayi Həmdi boğazına

Hamı mərhəba deyə ləblərin

Eyləyən tilavətə Möhsinim

Babana sifariş edən zaman

Ürəyimdə sirri nihanımı

Demişəm ki, yazmaya qəbrimi

Daşı üstə namu-nişanımı

Özü axtarıb tapar onda ki

Gələcək balam ala qanımı

Hamı qan tökənlər o gün duçar

Olacaq ədalətə Möhsinim

O gün ki, xəlq gedir çölə

Hamı sizdəh bedər eyləyə

Oturubdu guşadə Münzəvi

Keçən ömrə nəzər eyləyə

Elə bir əsər yaradıb gedə

Daş ürəklərə əsər eyləyə

Qoca şayiqində sifarişin

Yetirə bu millətə Möhsinim

# Həzrət Zəhranın (s.ə) İmam Əli (ə) ilə xudahafizləşməsi

Yavərim xudahafiz, sərvərim xudahafiz

Ağlama sənə qurban gözlərim xudahafiz

Sən vəliyyi bərhəqsən, tibqi valə mən valah

Höccəti müvəssəqsən, küllü aləmə movla

Bu məqama zihəqsən, ey şəhənşəhi lovla

Yerdə, göydə həmküf və həmsərim xudahafiz

Sındı babi əhlullah şiddəti təhacümdən

Saniyə gözüm düşdü, üzdüm əl əlacımdan

Qaldı ayrı əhvalə zərbeyi mühacimdən

Sədmə gördü süst oldu əllərim, xudahafiz

Gül açar, solar daim səhni gülüstanında

Cucədən çıxar bülbül küncü aşiyanında

Vəzi həml edib aya kim öz asitanında
Siqt olub balam, sındı şəhpərim, xudahafiz

Rəsmidir alov dəysə butələr göyərməzlər
Gül nə qədri xar olsa topraq üstə sərməzlər
Meyvəni budağından narəsidə dərməzlər
Sındı kinədən qəlbi müztərim, xudahafiz

Həmlə olsa gər üç yüz bihəya cəmaətdən
Bundan artıq iş gəlməz hamilə bir orətdən
Zeynəb olsun amadə istədim bu saətdə
Kərbəlaya dərs alsın doxtərim, xudahafiz

Pər şikəstə bülbültək zülm əlində məqhuram
Qiflət -o- qüsur olmuş xidmətində məzuram
Sən məni halal eylə ayrılıqda məcburam
Qibləyə de salsınlar bəstərim, xudahafiz

Sən ki, Kufədə varsan, Kərbəlaya həmsayə
Hər məkanda Zeynəblə, mən də sayəbəsayə

Mən deyəndə vaveyla, sən də gəl o səhraya
Su gətir solan vəqtə güllərim, xudahafiz

## Həzrət Əlinin (ə) mədhində

Səfiri kibriya Əli, kəfili masəva Əli
Mələk misalı xilqəti, bu xəlqdən səva Əli

O Kəbeyi ki, daşları Xəlilə yadigaridir
Əli, vəli təvəllüdü o beytə iftixarıdır
Cahanda qibləgah olub, Əlinin etibarıdır
Qulaq verilsə daşlara, gəlir sədayi ya Əli

Nə mədhət -o- səna yazım, əmiri Bədr -o- Xeybərə
Şəriki nəfsi vahidi zəkiyyeyi Peyəmbərə
Fəda olum o saqiyi zülali hovzi Kosərə
Kifayət eyləməz məgər şüari la fəta Əli

Müvərrix -o- müfəssir -o- mühəddisini mötəbər
Rüvati şərqu-qərbilən, siqati Müshəf -o- xəbər

Əli fəzilətində çox veriblə müxtəlif nəzər
Biri yazıb  bəşər, biri firiştə və xuda Əli

Bir iddə küfri məhzilən o həzrəti xuda görür
Təəccübəm oda gedir Xəliltək səfa görür
Məgər evi xarab olan od içrə aşina görür
Özün atır oda səva deyəndə Mürtəza Əli

Şəha, şəha yaranmayıb sənin vücuduna məsəl
Qədiridə Rəsuli-Həqq nişan veribdi əlbəəl
O noyilən ki, vəsf edib səni Kitabi ləm yəzəl
Sənə mədihə yazmağa mən eylirəm həya Əli

Belə əmiri kim görüb, o vəqtidən əsri hazıra
Libas alanda nəfsini hərifitək vura yerə
Özünə köhnəsin seçə, qulama tazəsin verə
Libasi tazə geyməyə, misali əğniya Əli

Bu xilqətiki, illət -o- üsulu ondan ötrüdür
İbadətin şəraiti qəbulu ondan ötrüdür

Əlavə üç yüz ayədən nüzulu ondan ötrüdür
Hisari innəma ilən, misali qul kəfa Əli

Tamami rütəb və yabis, kitabi Həmddə nihan
Tamamı Həmdi, Bismiləh edər öz əhlinə bəyan
Kilidi rəmzi Bismiləh o hərfi Baidən əyan
O Baın altda nöqtədən mürad müqtəda Əli

Əlidi Xeybəri açan, Əlidi Mərhəbi yıxan
Əlidi pəhləvanları əlində mumtək sıxan
Əlidi duşi Əhmədə rəvaqi Kəbədə çıxan
Edən Mənat və Lattək xudaları fəna Əli

Əlidi rəhbəri ərəb, Əlidi sərvəri əcəm
Əlidi miri müntəxəb, Əlidi məlcəyi üməm
Əlidi mənbəyi ədəb, Əlidi mədəni kərəm
Gedaya gör rükuyidə nə eylədi əta, Əli

Əlidi Məkkə -o- Mina, Əlidi Zəmzəm -o- səfa
Əlidi keştiyi nica, Əlidi Bədri fid-düca

Əlidi nuni fi ləna, gər olmasa ləna, fəna
Veribdi pəst düşmənə cəvabi cangüza Əli

Gecəni sübhəcək Əli yetimlərin əsiridi
Nə bəlkə hər yətimə qız o həzrətin əmiridi
Necə yata bilər Əli, vəzifəsi xətiridi
Ona ləqəb verən verib, yetimlərə ata Əli

Dehati Kufədən ona gəlib bu nagəran xəbər
Olub sipahi Şam ağa bizim diyara həmləvər
Yəhudinin ərusini əsir apardı bir nəfər
Səvar olubdu şəhridən çıxıbdı cabeca Əli

Buyurdu vay Əli sənə, dolubdu əşgilən gözü
Öləydi kaş Mürtəza, eşitməyəydi bu sözü
Yəhudinin ərusinə alışdı qəlbimin gözü
Sənin xilafətində çün, olub bu macəra Əli

Görüb uzaqda ləşgəri, vəba dağıtmış el kimi
Əli sipaha yektənə apardı həmlə sel kimi

Apardığın qoyan qaçıb Dəməşqə sarı yel kimi
O əcnəbi ərusini qərəz edib rəha Əli

İcazə ver qan ağlayaq aya Əmiri mominan
Nədən öz gəlin qızın əsir apardı şamiyan
Əsir səhlidir hələ, kəniz dedilər nagəhan
Necə dözüb dayandın, ey məramına fəda Əli

# Həzrət Əli (ə) və şiə

Ey adın şiə qoyan insan, Əli gör neylədi
Xəlqi allatma evi viran, Əli gör neylədi

Əşhədu ənnə deyib, götürdün təşəyyö hərbəsin
Əyrilərdən rüşvə aldın, düzlərin kəsdin səsin
Səslədin movla Əli, gəzdin əli çəp kuçəsin
Nəslini kəssin şəhi mərdan Əli gör neylədi

Altmış ildən artıq ömr etdi o şahi insu-can
Qoymadı bir xişti xişt üstə benami saxtiman
Verdi dünyaya talaq üç dəfə miri möminan

Müaviyə qəsr elədi bünyan, Əli gör neylədi

Malikə yazdı, gedirsən Mİsrə get ey huşyar
Dövrinə yığma vəli əşrafilən sərmayədar
Yaxşı gündə qarnı doymaz, pis günündə tez qaçar
Çox uzaq gəz xan və quldurdan, Əli gör neylədi

Bir günü guya Ömər minbərdə, durdu bir nəfər
Köynəyin nə olmuş dedi uzundur bir nə qədər
Tez cavabında dedi alsınlar oğlumdan xəbər
Qorxudan təslim olub üdvan, Əli gör neylədi

Getdilər forən evin axtardılar biçunu-çənd
Oğlu da verdi şəhadət iş olub mərdümpəsənd
Səhmimi verdim atam, pirahəni olsun bülənd
Ay həman günlər, həman doran Əli gör neylədi

İndi sındır hey təşəyyö əhdini, peymanını
Şişəyə tut binəva müstəzəfinin qanını
Gündə mayəhtaci xəlqin nırxının mizanını

Artırıb qıl din evin viran, Əli gör neylədi

İldə Aşuraya üç gün qalmış, ey şərrən yərəh
Millət ehsani-Əbəlfəzlə gəlir alsın kərə
On tümən nırxı geran eylirsən, axər heç yerə
Səslirsən səbbah qolun qurban, Əli gör neylədi

Gör Əlinin sail ilən etdiyi rəftarını
Verdi üç gün sailə öz mahəzər iftarını
Həl-əta təyid qıldı nəfsinin isarına
Ey əsiri süfreyi əlvan, Əli gör neylədi

İbni Əbbas ərz qıldı, bu nə üsrətdir Əli
Köhnə kəfşin milləti-İslama zillətdir Əli
Bu libasın qıl mürəttəb, ovci qüdrətdir Əli
Nəfsinə ver bir səru-saman, Əli gör neylədi

Etdi fərmayiş əmoğlu, çək qələm bu niyyətə
And ola Allah əlində la yəzali qüdrətə
Mən bu dünyada yaranmış rütəb -o- yabis nemətə

Verməṛəm bu köhnə kəfşi qan, Əli gör neylədi

Ey qəni, ey malik, ey əyan, Əli gör neylədi

Sən əgər əşrafsan, səndə gərək olsun şərəf
Zirdəsti pəncən altda eyləmə xurdu-tələf
Kargərlər rəhbəri bağ belləyən şahi Nəcəf
Həqqi məzluma dadsitan, Əli gör neylədi

Baxmısan tarixdə gər xəttu-məşyi Heydərə
İbrət ilə bax qabar əldən öpən Peyğəmbərə
Neyləyib dəstdas gör, dəsti Bətuli əthərə
Külfət ilən olmuş həmpeyman, Əli gör neylədi

Ey çəpi, ey demokrasi axtaran bimayə gəl
Demokrasi axtarırsan, xaneyi-Zəhraya gəl
Gör kəniz ilən xanım olmuş necə həmpayə gəl
Eylə seyr məktəbi Quran, Əli gör neylədi

Axtarıb gör hansı məktəbdə taparsan bu sözü
Bir xanım ki, ondadır məhşərdə dünyanın gözü
Bir günü Fizzə edir caru evi, bir gün özü

Ev işin təqsim edib yeksan, Əli gör neylədi

Bu xanım bir gün məriz olmuşdu, istirdi ənar
Tapdı minnətilən ənarı Heydəri valatəbar
Gördü bir viranədə bir naxoş piru-nəzar
Oldu tez əhvalpors ondan Əli gör neylədi

Ərz edib movla yanan qəlbimdə çoxdur suzu-saz
Bir kəsim yoxdur gələndə eyləyim ərzi niyaz
Halımı alsan xəbər könlüm ənar istir bir az
Teşnəyəm, qəlbim yanır əlan, Əli gör neylədi

Nisfini kəsdi verib, şad eylədi ol bikəsi
Fikr edib guya olar bir nisfi Zəhranın bəsi
Meyl edib, amma bülənd oldu mərizin nələsi
Doymadım, bir az da qıl ehsan, Əli gör neylədi

Verdi nisfin də dedi rəsmi vəfa pabəndiyəm
Sən belə oftadəsən, mən salimən, yabəndəyəm
İstəməz bir şey əyalım, istəsə şərməndəyəm

Bilsə bu halı yeməz hər an, Əli gör neylədi

Nisfi şəblər qəlbi aləm, qəlbi nəxlistanidə
Nalə eylərdi, sızıldardı şəbi zülmanidə
Qəşş edirdi səcdeyi-Subhanidə, bir anidə
Halına əflakiyan heyran Əli gör neylədi

Ey muradi cidd -o- cəhd -o- əhdi mən, məhudi mən
Məqsədi mən, qəsdi mən, mənzuri mən, məqsudi mən
Rəbbi mən, məhbubi mən, məşuqi mən, məbudi mən
Rəhm elə, ey sirrul-rəhman, Əli gör neylədi

Zikrini acizdi çün bu məntiqi əlkən deyə
Hey sızıltı öyrədir öz bəndi-bəndin bəndəyə
Allah Allah rəhm elə bu bəndeyi-şərməndəyə
Əl yetir ey Xaliqi Subhan, Əli gör neylədi

Nisfi şəb yeksər yatıbdır dost -o- düşmən, ey Xuda
Bir mənəm əlan bu nəxlistanda, bir Sən, ey Xuda
Naümid etmə, qapına gəlmişəm mən, ey Xuda

Ver nicat ey münciyi-tufan, Əli gör neylədi

Şişeyi-ümidimi sındırsan Allah, neylərəm
Dəftərimdə möhrü batil vursan Allah, neylərəm
Həşr olanda sən məni yandırsan Allah, neylərəm
Yanmağımda şad olar şeytan, Əli gör neylədi

Kufədə harda var idi bir yətim qız, saxladı
Ya atasız, ya oğulsuz, ya adamsız, saxladı
Ya cihad etdi və ya əlsiz-ayaqsız, saxladı
Sərpərəsti bisərpərəstan, Əli gör neylədi

Naləni qoş naləmə ey şiyeyi-dərdaşina
Kufədə namərdilər gör nə əvəz verdi ona
Qoydular bu beş ilin axırda muzdun ovcuna
Kufiyan neyləyib, şəhi xuban Əli gör neylədi

Kufəyə varid olan vəqtə qətari Zəynəbin
Baxdı xəlqə, yandı qəlbi dağidari Zeynəbin
Səslədi bəs hardasan ey iftixari Zeynəbin

Zeynəbə bu zülmü bipayan Əli gör neylədi

# Livanda bir alimin müsəlman olması

Elm bir zati əmanətdir bizə Xəllaqdan
Ta olaq agah nizami ənfüsu-afaqdan
Anlayaq Xaliq nə istir bir ovuc topraqdan
Elmdən roşən edib xəlqə çirağı muhibət
Zati Cəbbarə ola əvvəl dəlili mərifət

Bir qəlil elm eylib Öz məxluquna Allah əta
Aşkar olsun o elm ilən siyəhçali xəta
Eylədi iqrə bismi rəbbikə kəşfi ğəta
Qabi-qovsinə bərraq əql olub dana dəlil
Seyrdən düşdü rəfiqi nime-rahi Cəbrəil

Elmi əsli ki, olub əvvəl qələmdən lovha dərc
Hökm odur,  olsun təriqi mərifətdə sərfu-xərc
Cəhlidir, elmi ki, dünyada yaratsa hərcu-mərc
Kəşf edib zərrati riz teyfi meğnatisini
Görməyib heç zərrənin təsbihini, təqdisini

Çeşmeyi fəyyaz Həqdəndir hər elmin qisməti
Qətreyi baran kimi dəryaya vardır nisbəti
Qalsa dəryadan uzaq təbdil olar mahiyyəti
Qətrə dəryadan cüda olsa tapar nəqsi kamal
Tirə gəndabi üfunətbar olar abi zülal

Elm də bir qətrədir dəryası Zati Kirdigar
Qətreyi-baran gəzər dəryanı olsun kamikar
Olsa danişmənd əgər dəryayi-elmə həmcəvar
Vəsl olar dəryaya qətrə feyzi cəzru mədd ilən
Əl tapar dibaçeyi tohidə əla hədd ilən

Alim aləmdə çox ifsa elər, iman olmasa
Elm olar qanunşikən təqva nigəhban olmasa
Günbəgün artar cinayət hökmü Quran olmasa
Hər nə qanun vəz olub məzlumdan şərməndədi
Ta cahan vardır fəqət Nəhcül-bəlağə zindədi

Cümlə danişmənd -o- danişcu -o- danişqahilər

Ümdə roşənfikri vaqebin və dilagahlar
Cəmi yetmiş iki millətdə ədalətxahilər
Dərk edib hər qazi -o- qanungüzar -o- müstəşar
Məktəbi Nəhcül-bəlağəylən bəşər rahət yaşar

Sahibani elm -o- batəqva və iman qəvi
Rəhbərani münsifi hindi, yəhudi, isəvi
Müxtəsər diqqətlə eylər məktəbindən peyrəvi
Səthi danişqahda asari bəhsi ruz olar
Həqqi paymal eyləyən xəlqə hüquqamuz olar

Şahidim bu mətləbə pirmərdi alicahdı
Keşvəri Lobnanidə ustadi danişqahidi
Zülməti şirku-məsihiyyətdə çox gümrah idi
Şöhrəti bulsus-səlamə rusefid nəşətin
Bir kitabı eyləyib təlif Əliyyun və Hüseyn

İllətin dibaçədə bu tərzilən eylir bəyan
Rəxnə etdi guya cismimdə selli ustuxan
Dərd əritdi cismimi əldən gedib tabu-təvan

Oldu dərdim bidəva düşdü fəlkə mənlən ləcə
Qoydu başdan-ayaqa cismi məslulim gecə

Təxti bimaridə qaldım bitəhərrük, bisəmər
Bir fəqət oğlum tutardı gündə halımdan xəbər
Eylədim xahiş mənə xidmətgüzar olsan əgər
Hər gələndə bir kitabilən gəl ey ziba cavan
Sən oxu mən həzz edim, qolbağlıyam, dil natəvan

Bavəfa oğlum gəzərdi hər qiraətxanədən
İntixab eylərdi ziba şerdən, əfsanədən
Bülbüldən, güldən oxurdu, şəmidən pərvanədən
Bir günü gördüm vəlakin dəstxali, bikitab
İllətin aldım xəbər, verdi mənə yaxşı cavab

Ərz qıldı yox baba ləzzət güldə, pərvanədə
Porbəha ömrün keçirtmə şeridə, əfsanədə
Şiə danişcuların gördüm qiraətxanədə
Bir kitab eylirdilər diqqətlə çox seyru-mürur
Qəlbimə gətdi dirəxşan xütbələr vəcdu-sürur

Guya yazmış onu əvvəl imamı şiəyan
Adına Nəhcül-bəlağə edir əhli bəyan
Olmasın dini məsihət də məndən bədgüman
Eylim ondan qiraət ruhumuz məhzuz olar
Lovhi dildə xütbəsi İnciltək məhfuz olar

Oğlumun eşqin görüb feyzində mən oldum səhim
Zikr edib əvvəldə Bismillahir-Rəhmanir-Rəhim
Möcizindən rəqsə gəldi gecədəki əzmi-rəmim
Ta qiraət etdi əvvəl səfhəni ol huşyar
Aşiq oldum mən Əlinin adına divanəvar

Etdiyin etdi dirəxşan xütbə kəlmati cəlil
Günbəgün qəlbimdə artdı şöleyi-eşqi Əli
Hey tapıb ruhum səfa cami dil oldu müncəli
Fürqəti şahi Nəcəf fərman verib göz yaşıma
Şovqu-zovqilən düşüb eşqi ziyarət başıma

Ağladım təxt üstə mən ruhum edib əzmi səfər

Kəbeyi-iqbali cananda təvafa açdı pər
Aləmi röyada oldum əhli dil, sahibnəzər
Gördüm İsanı gəlir bir mərdi alicah ilən
Fasilə tutmuşdu guya bir rəiyyət şah ilən

Bəədi izhari iradət, məhzi ifayi salam
Bu ağa kimdir dedim eylirsən izzu-ehtiram
Etdi fərmayiş, onu Allah yaratmış zulkəram
Ləni Həqq bər münkirəş, əvvəl Əli, axər Əli
Fəzlullah bər sərəş, batin Əli, zahir Əli

Bu həman şəxsi müəyyəddir hüzuri yaridən
Min Məsih azad edib qeydi tənabi daridən
Qurtarıb cani Xəlilullahi şərri-naridən
Mümkün olmadı sənə qəbrin ziyarət etməyə
Qəsdini bildi gəlib səndən əyadət etməyə

Həm ətiyullahidə əsli ülul-əmr intixab
Həm kəfa billahidə mən indəhu ilmul-kitab
Həm yuridullahidə zeydi xəbər, qeydi xitab

Bayi Bismillah Əli, fillah Əli, Allah Əli
Həm səbilullah Əlidir, həm fəna fillah Əli

Üzrxah oldum, salam etdim, buyurdu mərhəba
Qoy çəkim əl cismi rəncurun tapa əlan şəfa
Ərz qıldım əllərin qurbanı ollam, yox ağa
Cismimə əl çəkmə, didarın səadətdir mənə
Sən olan yerdə mərizlik eyni səhhətdir mənə

Sən təbib ol dərdimə, tərtibi dərman verməərəm
Bu mərizxana bucağın əldən asan verməərəm
Təxtimə gər versələr təxti Süleyman verməərəm
Neynirəm cismi şəfanı, ruhum irşad elə
Məktəbi əhkam və Qurana məni ustad elə

Sinəmə çəkdi əlin sultani mülki irtəza
Sinəmi elmlə doldurdu Əliyyi Mürtəza
Pərdə rədd oldu o röyadan ayıldım əzqəza
Olmuşam oldum qəribə rizəxar -o- cürənuş
Elm dəryası olub sinəm edir cuş -o- xüruş

İstədim bir söz deyəm, gördüm olur zibakəlam
Hüsnü mətlədən müsəccadır ila xəyri xitam
Hafizəm Nəhcül-bəlağə sözlərinə bit-təmam
Ari, ari zərrəyə salsa nəzarə Bu Turab
Aftab eylər nida ya ləytəna kuntu turab

Gəldi öz oğlum yenə təqib edə bərnaməni
Gördü təxt üstə Əli irşad edən əllaməni
Eylədim tərif ona röyadakı həngaməni
Xahiş etdim qoyma məhv olsun oğul asarimi
Mən deyim bundan sonra sən yaz mənim əşarımı

Əlqərəz olduq sənaxan biz vəliyyi-Davərə
Cüzvə-cüzvə pəxş olub Nəhcül-bəlağə hər yerə
Tərcümə etdik onu şer ilə rayic dillərə
Dəstə-dəstə yanıma gəldi məsihizadələr
Dini İslama müşərrəf oldular azadələr

Bir zaman gördüm azalmış sinə məhfuzatımı

Günbəgün ehsas qıldım nəqsi məlumatımı
Sidqilən mövlaya ərz etdim yenə hacatımı
Aləmi röyada gördüm müjdeyi-rəhmət gəlir
Yoxdu İsa, bir özü, bir qarəpuş orət gəlir

Etdi fərmayiş tanırsan hansı məhsimadı bu
Ərz qıldım, yox, buyurdu doxtəri-Tahadı bu
Aşina ol, xəstə pəhlusu sınan Zəhradı bu
Eyləyib səndən əyadət, var vəli bir xahişi
Sinənə əl çəkmərəm, düşsə yerə fərmayişi

Eylədim təzim o xatunun xəbər aldım sözün
Gəlməmiş dildən dilə, söz yandırıb əvvəl özün
Üz tutub Şamə tərəf əşgilə doldurdu gözün
Xidmətin çoxdur dedi, gərçi Əli ovladına
Bir kitabi müstəqillən yaz, Rüqəyyə adına

Şamidə səngi məzarı etibarımdır mənim
Həşrəcək məhv olmayan bir yadigarımdır mənim
Qəhrəmani fateh -o- poriftixarımdır mənim

Əşgi fərmandə, silahı ahi məzlumandır
Zülfü pərçəm, ləşgəri qəm, səngəri viranədir

Ağ geyib təslim ola haşası var sərbazımın
Ağ kəfən layiq deyildi şəninə həmrazımın
Qara köynək fəxridir bu doxtəri mümtazımın
Cisminə oldu öləndə qara pirahən kəfən
Yəni təslim olmadım mən geymərəm ağ pirəhən

İndi sən ey mərdi danişməndi bahuş -o- vəqar
Eylə təlif kitab, olsun cahanda yadigar
Xidmətin mənzuri Zəhradır, qəbuli Kirdigar
Bülbülün halın ərusi səhni gülşəndən soruş
Olmasa təhqiqə vəqtin möhnətin məndən soruş

Atəşi zülmə yanan gün məskən və məvaları
Göz götürməzdim, gözətlərdim o məh simaları
Bu qızın gəzdim danıca pabepa səhraları
Olmasaydı Zeynəbim, əllərdə öldürmüşdülər
Gəlməsəydim dadə mən, çöllərdə öldürmüşdülər

Bir gecə ki, seyr edirdim mən kənari Əlqəmi
Bu qızın əhvalı yandırdı yanıqlı sinəmi
Xeymədən çıxdı nə gördüm, var bir özgə aləmi
Qorxa-qorxa əyləşir, qalxır, baxır sağ-sola
Başı üstən quş keçir, qorxur məbada Şimr görə

Ay batır, qalxır şüğalani biyaban zuzəsi
Ay çıxır, bikəs balamı qorxudur öz kölgəsi
Quşların ku-ku səsi, ahuların ya hu səsi
Müxtəlif səslər o şirindil qızı heyran qoyub
Təllilən qodal ara veylan və sərgərdan qoyub

Səslənir hərdəm mənə, səs ver pərişanam baba
Pərşikəstə cucətək oftan və xizanam baba
Şimr ayrılsa öldürər axər hərasanam baba
Rəhbər ol, sərmənzili amala yol görsət baba
İstirəm gizlin gələm qodala yol görsət baba

Eşqidə gördüm ki, möhkəmdir, qədəm qoymur dala

Səslədim, yorğun balan gəldi, ona səs ver bala
Qanlı əllər qozanıb, düşdüm o dəm haldan hala
Gördü zibh olmuş boğazın səslədi can-can baba
Qorxulu canım yaralı canına qurban baba

Qanlı gördü yarəsin, əşgilə doldurdu gözün
Qoydu məlhəmtək yaralı sinəyə nili üzün
Etdi amadə təbabət etməyə forən özün
Bildi göy yapraq qoyarlar ümdə zəxmi karəyə
Qoydu hər dəfə göyərmiş surətin bir yarəyə

Səslədi ey bağibani qəm, saraldı güllərin
Dəstgir oldu əzalı nəğməxan bülbüllərin
Hey dil öyrətdin, dedin şirindi şirin dillərin
Nazımı tez-tez çəkib, ağuşə aldın məni
Qürbətə getdin vətəndən, çöllərə saldın məni

# Həzrət İmam Hüseynin (ə.s) İmam Həsənə (ə) xitabı (sinəzən)

Pərişan qəbrin üstündə pərişanam Həsəncanəm

Səsin qurbanım, səs ver Həsəncanəm, Həsəncanəm

Əgər Yəsribdə qalsam, qəbrin abad eylərəm qardaş
Yətimin Qasımin nazın çəkib şad eylərəm qardaş
Vəfa olsa cavan ömründə damad eylərəm qardaş
Bilirsən mən pərəstari yətimanəm Həsəncanəm

Gülüstanda solar güllər, susuzdan yanmağın bilsə
Çəməndə lal olar bülbül, yanıb odlanmağın bilsə
Həlak eylər özün Zeynəb, sənin oxlanmağın bilsə
Bu vəhşətli qəzayadan hərasanam Həsəncanəm

Nə qədri çeşmi düşməndə kiçildi şokətu-fəzlim
Baxır həsrətlə Əbdullah, Ovn, Cəfər və Fəzlim
Atır əl qəbzeyi-şəmşirinə hərdəm Əbəlfəzlim
Vəli hər əmrinə mən bəndə fərmanam Həsəncanəm

Əgərçi ehtiyat ilən deməzlər bu sözü çoxlar
Bu qafil şiə sən ilən üxüvvət aləmin yoxlar
Məgər aləmdə ümmül-möminin öz oğlunu oxlar

Kəzayi bir ləqəbdən ruygərdanəm Həsəncanəm

Olub rənci fəraqından ürək dərd ilə malamal
Necə səndən sonra qılam xəzab və ətri istemal
Mənim balu-pərim yansın, otursam evdə fariqbal
Sənə bir ömr əzadaram, nəvaxanam Həsəncanəm

Deyirdim mən sənin ömrün bu tezlikdə başa dəyməz
Bəlagərdanın olam, payi ümidin daşa gəlməz
Təəccübdür nədən qardaş, qadası qardaşa dəyməz
Sən öldün, mən bu qalmaqdan pərişanam Həsəncanəm

Səni sülh etməyə məcbur edib mənzuri Aşura
Həmin peymani sülh oldu mənə, mənşuri Aşura
Məni etdi sənə mədyun başımda şuri Aşura
Sənin sayəndə mən şahi şəhidanəm Həsəncanəm

# İmam Musəbni Cəfər (ə) Harunun zindanında

Hizbi şeytan çalışır məhv edə hizbullahı

Sehru-cadu qıra bilməz vəli hizbullahı

Necə ki, qüdrəti mafoq ilə Fironi-dəni
Yıxa bilmirdi əsa əldə Kəlimullahı
Nə qədər doldura Nəmrud od ilən dünyanı
Yandıranmaz yenə də muyi-Xəlulullahı
Verə gər dal-dala keyhanı əbər-qüdrətlər
Sındıranmazlar səfu-səngəri Bismillahı
Baxmasın hər nə dualar edisən vermir əsər
Günü gündən də qəvitər görüsən bədxahı
Külü daim öz əliylən tökər insan başına
Sonra bais görər öz halına xəlqullahı
Gecə nifrin eləmə sübhə kimi özgələrə
Özün islah elə tap sireyi-əhlullahı
İddiada hamı həqq üstə keçir başından
Vəli meydani əməldə görünür ikrahı
Mərdi həqq Musayi Kazimdi, Əba İbrahim
Zalıma olmadı təslim əbədən vəllahi
Nə əlində var idi əsləheyi-xunpala
Nə əmiri, nə sipahı, nə də ləşgərgahi

Taci şahənsi əmmameyi-Peyğəmbər idi
Həmdəmi həlqeyi-zəncir idi salu-mahi
Balışı başdakı əmmamə, əbası bəstər
Bir həsir idi onun fərşi neşiməngahi
Bir ağır silsilə etmişdi əlif qəddini xəm
Evi gün görməz idi, görsə də mehri mahi
Yer rütubət ola, ahən çürür, insan saralar
Ərimişdi bədəni, gərm idi suzu-ahı
Bir belə zəf ilə imanı qəvi ləşgər idi
Yıxdı Harunu, pozub xəyali əduvullahı
Ziru-ru oldu həman qəsri hezaru yek şəb
Nə qalıb şahı, vəziri, nə dəru-dərgahı
On bir il guşeyi-zindanda edib razu-niyaz
Oldu məqbuli əməl, qürbətən iləllahı
Nə qədər söhbətə  gəldi vüzarə və vükəla
Sazişə dəvət ediblər o müqəddəs şahı
Dedilər məzərət istə, səni azad eləyək
Göndərək Yəsribə, yığ başına alullahı
Nə qədər simu-zər istirsən, edək biz təqdim
Get dua eylə fəqət həzrətu zillullahı

Dedi mən simu-zərə yıxmaram İslamın evin
Kimdən üzr istəyim ey firqeyi-Fironcahı
Nə günah eyləmişəm əfv edib, azad edəsiz
Ta nəfəs vardı cəri eyləmərəm xudxahı
Siz gedin bu sözü məndən yetirin Haruna
Gün batan vəqtdə verir sənlə mənə agahı
İkimizdən kəm olur izzətu-zillət bir gün
Qalmaz axər mənə zillət, sənə şahənşahı
Mənim ömrüm qurtarar, Fatiməyə mehmanam
Səni zülmün edəcək duzəxəcək həmrahi
Zalıma ibrət üçün namu-nişan qoymazlar
Yenə payəndədi məzlumların xərgahı
Əlqərəz gördülər simorği müqəddəs şəhpər
Damə düşmür, onu seyd eyləyələr dilxahi
Yolladı bir zəni-rəqqasəni Haruni dəni
Bəlkə bədnam edə fərzəndi Rəsulullahı
Gəldi zindana o rəqqasə misalı zəni ruz
Nimə üryan bədəni, başda xiyali vahi
Gördü baş səcdədə bir seyyidi məzlumu-zəif
Gərmidir razu-niyaza, çağırır Allahı

Səcdədən baş götürür, nur yağır alnından

İsladır axdıqca göz yaşı vəchullahı

Qarışıb nəğmeyi-təkbirinə zəncir səsi

Təhi dildəndi onun zikri, deyil əfvahı

Orətin halı dolandı, yıxılıb torpağa

Qoydu baş səcdəyə, ram oldu dili agahı

Dedi ya Rəbb məni məyus eləmə bu qapıdan

Qapına gəlmişəm ey maxələqin Allahı

Məni əfv eylə, bu zindanda apar dünyadan

Görməyim bir də o Haruni cinayətxahı

# İmam Musəbni Cəfərin (ə) əhvalatı (sinəzən və cuşi)

Beş gün rəyasət eşqinə Harun cinayət eylədi

Musabni Cəfər həbsidə dərki şəhadət eylədi

Tutdu Peyəmbər oğlunu öz məhzərindən bihəya

Təbid hökmün şəhridən imza edib saldı yola

Yolda qoca bir seyyidin zənciri vurdu boynuna

Hər kim eşitdi mətləbi, Haruna lənət eylədi

Bilməm nədən tiri bəla qəlbi cəhanı dəlmədi
Məsumə çox yol gözlədi, gördü atası gəlmədi
Əyləşdi, durdu sühhəcək, göz yummadı, dincəlmədi
Sübhün zamanı baş açıq, Həqqə şikayət eylədi

Allah nə qədri zalım və cəbbar var, şəddad var
Hər yerdə şəhpər bağlayan bir səngdil səyyad var
Nabud eylə hər daş ürək səllax var, cəllad var
Ya hər kəsi məzlum axan qanə şərakət eylədi

Qarun eylə hər yerdə bir Harun kimi məğrur var
Sind ibni Şahəktək və ya hər xaini muzdur var
Nabud elə hər şəhrdə söz qanmayan məmur var
Bilsin kimə düşmən çıxıb, kimdən himayət eylədi

Axşam çıraq yandırcağın, hər gün cəhanı dağlarıq
On yeddi qız bir evdə biz hey oxşarıq, hey ağlarıq
Bayramda çün şərməndəyik, daim qapını bağlarıq
Şayəd biri gəldi bizi qərqi xəcalət eylədi

Haruna yoxdur bir deyən ey zalım az bidad elə
Axər qocaldı həbsdə, bu seyyidi azad elə
Yol gözləyən qızlarının Yəsribdə qəlbin şad elə
Bəlkə səni Allah ona xatir hidayət eylədi

Məsumə almışdı vüzu, eylirdi afaqa nəzər
Gözlürdü olsun nisfi şəb, dursun namaza didə tər
Birdən ürəkdən səslədi, ey müntəqim, ey dadgər
Səndən sonra məzluma kim bəzli inayət eylədi

Hey vird edib, ey Yusifi sicni bəladə hifz edən
Ya Rəbb çıxıb zindanidən gəlmir babam Musa nədən
Ləblər duada nagəhan bir səs ucaldı kuçədən
Ruhu pər açdı guya təndən fərağət eylədi

Səsləndi kimsən? Səs gəlib rəncuru qeydi məhbəsəm
Allah qonağı istəsən, mən bir qəribu bikəsəm
Rədd eyləməz Həqdən əgər hər nə təqaza eyləsəm
Hər dərdə dərman istədim, forən kəramət eylədi

Açdı qapını ağladı, ərz etdi əhlən, mərhəba
Gər müstəcabud-dəvasan ya seyyidi, eylə dua
Düz on bir ildi ayrılıb, bu dudumandan bir ağa
Heç bilmirik sağdır və ya dərki şəhadət eylədi

Fərmayiş etdi şoqidən aşiq siyaqı ağlama
Eylə təhəmmül şiddəti dərdi fəraqı ağlama
Musa mənəm Məsuməcan, yandır çırağı ağlama
Sən hər nə etmişdin dua, Allah icabət eylədi

Mən bu evə salim gələm, ruzu-şəb eylərdin dua
Qalmır vücudumdan mənim illa quru nəqşu-nəma
Gəl başını qoy sinəmə, salma vəli qol boynuma
Çün zalıma xəm olmadım, zəncir cürət eylədi

Birdən dedi vay bəxtimə, vay canıma, vay halıma
Şəhpər açaq vəqtdə fələk od saldı pərru-balima
Mən on bir il yol gözlədim, bir bax mənim iqbalıma
Zəncir xoşiqbal imiş, əvvəl ziyarət eylədi

Sən ağlama yorğun baba, qurban olum göz yaşına
Sidqən təsəddüq qıl məni, əyləş dolanım başına
Var çox gilayəm qəlbidə zindandakı yoldaşına
Gör hansı yoldaş yoldaşa belə xəyanət eylədi

Fərmayiş etdi azimi Bəğdadi viranəm qızım
Çox ağlama zindana da bir ləhzə mehmanam qızım
Olsa Müsəyyib nagəran, məsuli peymanam qızım
Biçarə zindanban məni şəxsən zəmanət eylədi

## Həzrət Məsumənin (s.ə) əhvalatı (sinəzən)

Baba on bir ildi ki, hər zaman
Gecələr səni deyib ağlaram
Necə gün batar, verilər azan
Gecələr səni deyib ağlaram

Səni gərçi bizdən uzaq salan
Bilirəm qəza əlidir baba
Diyəsən vüsalının axəri

Qəmi hicrin əvvəlidir baba
O xəmidə qamətinə fəda
Qocalıq nə qüssəlidir baba
Mənə çox gəlir bu qəmin geran
Gecələr səni deyib ağlaram

Gələ kaş o dərdi-dilin mənə
Niyə belə başı bəlalısan
De görüm bir ömrüdü hardasan
Vətənin haradı, haralısan
Niyə mənlə qol-boyun olmadın
İraq olsun, olma yaralısan
Yaran olsa da mənə ver nişan
Gecələr səni deyib ağlaram

Bu Mədinədən necə getmisən
Dağılıb cəlalu-tifaqımız
Qapımız nə vaxtdı açılmayıb
Gələ bir əziz qonağımız
Hamı səs-səsə verib ağlaşır

Gecələr yananda çırağımız
Mən özüm də həmdəm -o- həmzəban
Gecələr səni deyib ağlaram

Bu gül üzlü qızlarının üzü
Baba, bisəbəb belə solmayıb
Gecə-gündüz əşgilə gözləri
Boşalıb əbəs yerə dolmayıb
Neçə bayram axşamı görmüşük
Bizə bir libas alan olmayıb
Atasızlara hanı bir yanan
Gecələr səni deyib ağlaram

Gecə süfrə başına cəm olan
Dili bidəvamidən ağlaşır
Yerini ki, boş görür itrətin
Pozulub nizamidən ağlaşır
Səri süfrədə səni yad edən
Çəkib əl təamidən ağlaşır
Olub əllərindəki loğma nan

Gecələr səni deyib ağlaram

Bilisən ki, ayrılığın edib
Necə kaxu-izzətimi fəna
Başına dayan, dolanlım baba
Mənə çox da olma kəmetina
Bu gözüm yaşilə qoy isladım
Ağaran məhasininə həna
Mən olum solan gülə bağiban
Gecələr səni deyib ağlaram

Çox uzun günüzləri mən baba
Qapının dalında oturmuşam
Günüzü qapı döyən olmayıb
Gecə bəzmi təziyə qurmuşam
Hamının qəmində şərik olub
Özümü oda-suya vurmuşam
Hamı qəm edib məni bağrı qan
Gecələr səni deyib ağlaram

# Şairin sözləri

Mən aşiqəm neyu-nay və nəvada həqqim var
Bəhari ömrüdə abu-həvada həqqim var

Bəsir olan məni yanmaqda şəmə oxşatma
Bu sadiqanə olan iddiada həqqim var
O yansa tək gecələr, mən gecə-gündüz yanıram
Uzun bir ömrüdi bəzmi əzada həqqim var
Çəməndə guşeyi-gülşəndə xəstə bülbültək
Sızıldaram gecə-gündüz fəzada həqqim var
Ağam Hüseyn kimi müstəzəfə həvadaram
Süxənvərəm, demirəm fövqəladə həqqim var
Şəmatət eyləmə görsən bir az pərişanəm
Əgər düz əhli vilayəm, bəlada həqqim var
Hüseyn səni ananın həqqi bir təvəccöh elə
Gözüm əlindədi, əbri səxada həqqim var
Özün təbib, dəva türbətin, inayət qıl
Mərizinəm ki, təbib və dəvada həqqim var
Təbibə aridir dərbanı gər məriz olsa
Bir ömrüdün ki, bu daruş-şəfada həqqim var

Cavanlığım gedib əldən vəli uduzmamışam
Cəsur nokərəm allam, ağada həqqim var
Vüsalı olmasa da mümkün ətrini allam
Əlim yetişməsə badi səbada həqqim var
Peyami eşqə ki, lazım deyil pəyamavər
Bu ərzi halı yazam sərqoşadə həqqim var
O dörd ağac yer əgər zərxərid mülkündür
O nisbətilə mənim Kərbəlada həqqim var
Məgər nə olubdu bizi Kərbəlaya qoymullar
Mətafi eşqidi, qanlı minada həqqim var
Xoşa, Riza balanın barəsində halımıza
Gedəm ziyarətə sübhu-məsada həqqim var
Kimin mətai ola ayrı evdə həqqi də var
Necə anan dedi mətbəxsərada həqqim var
Olubdu mətbəxə daxil, şəbanə zəvvarı
Buyurdu burda yatan məhliqada həqqim var
Yatırtmışam bu başı sinəm üstə gül yerinə
Görüm niyə qalıb axər arada, həqqim var
Dedi kül olsun oğul, xanəsahibin gözünə
Ola nə qədri bu nifrin əda həqqim var

Sənin kimi qonağa gör verib hayanda məkan
Yanam bu hala əgər foqəladə həqqim var
Sözüm fələkdədi gör kim düşüb, kimin əlinə
Balam yatıb bu mühəqqər fəzada həqqim var
Bəlalı Fatimədən ey fələk nə görmüşdün
Əgər gül incisə məndən səzada həqqim var
Qonaq ki, səhlidi hətta kənizim inciməyib
Əgər əbəsdi bu sözlər cəfada həqqim var
Yaralı baş dilə gəldi yanıqlı dillərdən
Dedi ana bu müqəddər qəzada həqqim var
Az ağla, aləmi qalu bəla bəlasıdı bu
Bəli, bəliyyeyi-qalu bəlada həqqim var
Mənim yazım belədi, sən ana pozanmazsan
Nə gəlsə başıma silmu-rizada həqqim var
Böyük müsibətimin əcri də böyükdü ana
Bağışlasam kimi ruzi cəzada həqqim var
İki qapısı behiştin mənimdir ruzi cəza
Edəm ikisini birdən qoşadə həqqim var
Birisi babi Hüseyndir, birisi babi şəhid
Həmişə sayeyi-lütfü Xudadə həqqim var

Behiştə dəvət edəm şiəmi iki qapıdan
Qərarımız budu, bundan ziyadə həqqim var
Gərək o gündə mənə ağlayanlar, ağlamaya
Sallam o gözləri məhşərdə yadə həqqim var
Uzaqdı öz kərəmimdən yana əzadarım
Mənim şəfaət əhli əzada həqqim var
Başımı al ələ, dolandır öz başına
Xoşam bu gəlməyinə xoş səfada həqqim var
Yorulmuşam məni qoy dincəlim sinəndə bir az
O gəhvareyi mehru-vəfada həqqim var
Sinəndə yaran əgər olsa da dəvası mənəm
Yaralıyam mən özüm də yarada həqqim var
Yaralı sinənə qoy bu yaralı ləblərimi
Edəm dəva yerinə istifadə həqqim var
Qiyafənə baxıram, Kərbəla müsafirisən
Sızılda ney kimi, çün Neynəvada həqqim var
Danış görüm necə gördün Rübabın əhvalını
Varın verib utanan binəvada həqqim var
Gərək qoyaydın əlini sinəsində süd qayıda
Ola təhəmmül, o dərdaşinada həqqim var

Onun vəfasını yaddan çıxarda bilməmişəm
O pakbaxteyi-biriyada həqqim var
Vəfa və himmətini asimani billəm onun
Libasıtək ürəyi, eşqi sadə həqqim var
Görəndə Əkbəri Leyladan artıq ağlardı
Qoyun, deyərdi bu qanlı əbada həqqim var
Götürdüm Əsğəri, gizləndi xeyməsində vəli
Demirdi heç bu yaralı balada həqqim var
Ədəbli Fatimənin ey müəddəbə gəlini
Sizin qapızda sual və duada həqqim var
Gəlin ocağa gələr, sən də qaynanan kimi ol
Məni yubatma bu rəhmətsərada həqqim var
Yetir ərayizimi ey Rübab, ərbaba
Həqir Münzəviyəm bu ağada həqqim var

# İnqilab (cuşi)

Ey ruzu-şəb ya ləytəna deyənlər
Göy minliyə müşkülqoşa deyənlər
Gizlənmə gəl meydanda imtahan ver
Səngərdədir ruhi fəda deyənlər

Həccactək Səddami namüsəlman
İstir edə Kərbübəlanı viran
Məndən demək vazehdi küfr və iman
Bəs hardasız ay Kərbəla deyənlər

Əgər məğlub olsa sizin Xomeyniz
Nə Kərbəla qalar, nə nuri eyniz
İranlılar, əldən gedir Hüseyniz
Ey türbətin dərdə dəva deyənlər

Namə yazıb bir nocəvani xəstə
Anam qəhrəman ol, dəmir qəfəsdə
Mən yatmışam səngərimdə daş üstə
Rahat yatsın laylay balam deyənlər

Qürbət ölkə şirinləri acılar
Vətəndə çox şirin olar acılar
Qürbət yerdə yara düşər bacılar
Düz söz imiş bacım Sara deyənlər

Nazlı Sara bəxti qara gül bacım
Qardaş toyu ürəkdə niskil bacım
Dağ-daşı ağladar şirin dil bacım
Oxşamanı yana-yana deyənlər

Qızıl güllə yağıb, gül oldu pərpər
Toy adı tutma ey vəfalı xahər
Zifaf otağıtək bəzəndi səngər
Neynir toyu həqqə bəli deyənlər

Çəpgəralar ürəkləri daş imiş
Münafiqlər olardan da baş imiş
Ağ ilan da qaraylan yoldaş imiş
Məhv olsunlar ağa, qara deyənlər

Ölkəmizin pasdarları yaşasın
Sürüsünlər düşmənlərin laşasın
İstəmirik əcnəbilər paşasın
Yad oğludur dərdin yada deyənlər

Gəlinlərə alma atan cavanlar
Əldə bu gün narıncək oynadıllar
Müsəlsəl ilə qol-boyun yatıllar
Onlardı düz ya ləytəna deyənlər

## Bir İslam əsgərinin qəmində

Cavan sərbazımız İran yolunda
Verib can məktəbi Quran yolunda
Kəm etməz sayəsin qanuni cəngəl
Gər insan ölməsə insan yolunda

Şəhadət olmasa olmaz ədalət
Ədalət olmasa olmaz əmanət
Əmanət olmasa olmaz dəyanət
Dəyanət olmasa ruzi qiyamət
Qalar həsrət gözün rizvan yolunda

Yetibdir bir nəfər ali mərамə
Tapıbdır bu gözəl məclis iqamə

Gəlib millət təsəllayə səlamə
Verək başsağlığı əvvəl imamə
Ki, bir oğlu ölüb Quran yolunda

Xomeyni verdi əvvəl Mustafanı
Çəkildi qəlbinə daği cəvani
Çox istər kim o şahi Kərbəlanı
Gərək dinə fəda versin balanı
Otursun nagəran meydan yolunda

Ata gərçi ürəkdən atəşindi
Beş-on gün ağlasa qəlbi sərindi
Ananı razı etmək çox çətindi
Gəlin görsə deyər oğlum gəl indi
Kor oldu gözlərim hicran yolunda

Fələk toy köynəyi xələt biçilməz
Verillə toyda şərbət, qan içilməz
Ana dərdi təsəlladan kiçilməz
Qızıl güllə, qızıl güldən seçilməz

Açar gül sinədə peyman yolunda

# İnqilab şəhidlərinə şikayət və Kərbəlanın şir qadınının Yezid məlunla söhbətinə işarə

Qəhrəman bitirir vətənim mənim
Çiçəkdən doludur çəmənim mənim
Bir qara köynəkdir kəfənim mənim
Dərs verib Hüseynim, Həsənim mənim
Qan tökün torpağa azadlıq bitsin
Fəsadın, bidadın rişəsi itsin

Qocalmış olsam da şəhamətim var
Kinayə bilmərəm, sərahətim var
Mən həqdən keçmərəm dəyanətim var
Şəhid qardaşlara şikayətim var
Siz öldüz ki, hamı bahəm çalışa
Müsəlsəl lal ola, qələm danışa

Tağut gülləsindən sinəz gül açdı
Zülmün qabağında hamı qardaşdı

Hey yazdıq, oxuduq millət ağlaşdı
Yüzlər müsəlsəldən bir qələm başdı
Qələm, qələm olsa, top-tüfəng olmaz
Nə bir qan tökülməz, nə də cəng olmaz

Gəlin nə qan tökək, nə qəm düzəldək
Nə misli bütpərəst sənəm düzəldək
Qanlı köynəklərdən ələm düzəldək
Dar ağacın kəsib qələm düzəldək
Tanabların açaq köynək toxuyaq
Üryanlar geyinsin, yazıb oxuyaq

Ey müsəlmanların öz nuru eyni
Tağutu sındırıb yıxan Xomeyni
İnqilabi olan, satmaz Hüseyni
Mən istirəm edəm əda bu dini
Tanıtdıram xəlqə ağı, qaranı
Ayrı görək şuriləri, kərəni

Bəid deyil yəhudun istibdadı

Adına görədir hər zadın dadı
Hər nədən ucadır İslamın adı
Yetmiş min şəhidlən bu nə qoğadı
Millət dillənməsə hər zülmə vəllah
Şahkələr yoğunlar olar şahənşah

Məddahlıq insanın gəlir arına
Məddahların məğzi gərək arına
Biri rəyasətə, biri qarına
Allandılar varlıların varına
Yığışdılar kəsafətə milçəklər
Ayna sındı, çirkin oldu göyçəklər

Ay sizin çəkicə, orağa lənət
Çağrılmamış üzlü qonağa lənət
Dədəsindən cəsur uşağa lənət
Sərnizəyə, zora, çomağa lənət
İxtinaq yıxıldı, süründü gəldi?
Dolma kimi çula büründü gəldi

Qoy bir az da deyim xanım Zeynəbdən
Ağlamalı siyasətli mətləbdən
Dərs öyrənək inqilabi məktəbdən
Düşək şeytan celu tutan mərkəbdən
Görək xanım Şam əhlilən neylədi
Mübarizə etdi, ya səbr eylədi?

# Ülyayi-müxəddərənin (s.ə) Şamdakı xütbəsindən

Mən Zeynəbəm, müşatqi inqilabam
Pabəndi ədlu-ismət və hicabam
Nitqimlə covru-zülm evin çevirrəm
Mən bir xətib atəşin xitabəm

Mən Zeynəbəm, Səccad rəhbərimdi
Xərabənin divarı səngərimdi
Rüqəyyə bir dilli dilavərimdi
Vəzirimdi, əmiri ləşgərimdi
Çox tez olar zalımları yıxmağı
Həşrə qaldı viranədən çıxmağı

Mən Zeynəbəm, yaxşı tanırdız ey kaş
Əbbasa bacıyam, Hüseynə qardaş
Yalvarmaram, dejxeymə əymərəm baş
Bihudə qürfələrdən atmayın daş
Həqq danışan dil barışmaz baş ilən
Sakit olmaz çomaq ilən, daş ilən

Sən düş aşağa ey xətibi şami
Allatma bu evlər yıxan əvami
Xütbə oxumasa əsrin imamı
Cümə namazının olmaz davamı
Həqqini al, minbəri qəsb eyləmə
Tüləqanı iş üstə nəsb eyləmə

Yezid ürəyində kinə bəsləmə
Kam almağa ata-baban səsləmə
Müsəlmanlar ara salma həmhəmə
Qüdrətinə məğrur olub zor demə
Sərnizənin üstündə durmaq olmaz

Təkyə etmək olar, oturmaq olmaz

Ürəkləndir birdən mahi Mədinə
Dedi ki, ey sultani covru-kinə
Şəhid bacısıyam, adım Səkinə
İnqilaba düzəltmişəm zəminə
Nahaq qanlar qaynar, coşar daşlanar
Məzlumlar toplaşar, nehzət başlanar

Məzlum qardaşımın o məzlum qanı
Tacını, təxtini edəcək fani
Biçarə Rübabın quzu qurbanı
Ruhumun qidası, dərdim dərmanı
Getmişdi Fərata peyğam apara
Qorxdular su içə, dərya qurtara

Səkinə eylədi Rübabı kəbab
Ürəkdən od çıxdı, gözündən gülab
Dedi qızım dillən, səvabdır cavab
Mən danışanmıram, sən elə xitab

Qoy bilsinlər nə qədri dilkəbabam
Mən də şəhid anasıyam, Rübabam

Kərbəlaya düşən zaman güzərim
Soldu cəfa ilən gülüm-gülzarım
Paralandı medali iftixarım
Oxlandı bir şeşmahə pasdarım
Qan tökməmiş mükafatın pəs verdi
Dil açmamış pasdarlara dərs verdi

Pasdar gərək Əli kimi mərd ola
Gecə-gündüz məzluma həmdərd ola
Allah qorxusundan rəngi zərd ola
Azuqə çiyni üstə şəbgərd ola
Pasdar odur, din yolunda can verə
Ədalət ağacın əkib, qan verə

# Cəbhədə döyüşmək (inqilabi)

Xomeyni rəhbərim, Allahu Əkbər
İmamım sərvərim, Allahu Əkbər

Fətəhna pərçəmim, iman silahım
Əqidəm, səngərim, Allahu Əkbər

Cavanlar yollanın Əkbər yolunda
Sirati-həqqidə Heydər yolunda
Səbulullahda Peyəmbər yolunda
Şəhadət nuşidir rəhbər yolunda
Bu rəhbər düz gedir davər yolunda
Güvahim, dəvərim Allahu Əkbər

Cavan pastarızam, Quran əlimdə
İmamım yazdığı fərman əlimdə
Dolanam qan başımda, can əlimdə
Müsəlsəl eyləyir tufan əlimdə
Qalır aciz qəvi şeytan əlimdə
Dilimdə əzbərim, Allahu Əkbər

Gərək olsun Xuzistan bir gülüstan
Boyansın qanə bu zərxiz ostan
Bəzənsin lalələrdən sünbülüstan

Məsacid, padiqan, səngər, dəbistan
Yıxılsa torpağa hər sərvi bostan
Verər su gözlərim, Allahu Əkbər

Mənəm bir can bekəf sərbazi ərteş
Hərifi bazi barıt və atəş
Xişabım eyləyən saətdə xış-xış
Atır hey xəmsə-xəmsə qomi sərkeş
Yıxar təktir iman, xəsimi beş-beş
Qəvidir cohərim, Allahu Əkbər

Görəndə lucceyi şətti Fəratı
Götürmüş nərəsi dəştu-fəlatı
Dedim tapdım yəqin abi həyatı
Düşüb qüsl eylədim, qıldım səlatı
Şəhadət feyzinə aldım bəratı
Dağıldı qəmlərim, Allahu Əkbər

Üzü qara Fəratın sahilində
Yanan şamam şəhadət məhfilində

Alovlannam Əbəlfəl niskilində

Əmud ahən görəndə qatilində

Dedi bu kəlməni ətşan dilində

Kəsilmiş əllərim, Allahu Əkbər

# Qəməri Bəni Haşimin (ə) ürəkyandırıcı əhvalatı

Olub qollar qələm, Allahu Əkbər

Əsib qanlı ələm, Allahu Əkbər

Su məşgin gözlərindən çox gözətlir

O səqqayi-hərəm, Allahu Əkbər

O əllər ki, gəzərdi əllər üstə

Havadan od tökərdi səflər üstə

Həmin əllər düşüb xakistər üstə

Qiyamətdir o qolsuz peykər üstə

Yağır xəncər havadan xəncər üstə

Durub sabitqədəm, Allahu Əkbər

Hezar əfsus, o sərdari girami

Görənmir dorəsində əhli Şamı
Atın öz boynuna düşmüş licamı
Tutub öz başına səmti xiyamı
Səkinə gözləyir əldə su camı
Deyir hey dəmbədəm, Allahu Əkbər

Dedi ey mərkəbim, səmtin dolandır
Qayıt bu getdiyin yoldan amandır
Gözü yolda Rüqəyyəm bağrı qandır
Məni qaytar yenə qana boyandır
Və lakin teşnələrdən az utandır
Suyum yoxdur gedəm, Allahu Əkbər

Vəfalı mərkəbi rəzm azmudə
İtaət eylədi ol kani cudə
İki şəhr əhli səf-səf, tuda-tudə
Ediblər həmlə bir qolsuz vücudə
Rükuya getdi ta düşsün sücudə
Dedi ya zilkərəm, Allahu Əkbər

Hüseyn, cami əcəl mərdəfkən oldu
Vücudum hərbədən ruyintər oldu
Açıb gül sinəm üstü gülşən oldu
Bədən göz-gözə misali coşən oldu
Gəl indi görməyən göz roşən oldu
Gəlib Zəhra nənəm, Allahu Əkbər

Nə gördü bilmirəm, etdi bəhanə
Tutub üz xeyməgahə yanə-yanə
Təqaza eylədi şəhdən acizanə
Qonağın gəldi, gəl ver müjdəyanə
Əlim yoxdur verəm xeymən nişanə
Kəsilmiş əllərim, Allahu Əkbər

# Fərəc müjdəsi

Ey şiə qismət olsa Sahib Zaman gələndə
Aləm edər təəccüb Məhdi cavan gələndə

Çün iyirmi üçün gecəsi, həngami mahi Ramazan
Göydən gələr nidayi-qeybi behökmi Yəzdan

Əlhəqqu mə Əliyyin ey mərdümi müsəlman
Səslər günüzdə şeytan həqqa ki, həqdi Osman
Həqq, batil ayrılar tez bu imtahan gələndə

Ruknu-məqam arası görcək o məhliqanı
Cəbrəil səslər onda yarani bavəfanı
Dörd şəxs ənbiyadan dəvət edillər ani
İsa və Xizr, İlya və İdris mehribanı
Dörd şəxs Məkkədən var, həzrət haçan gələndə

Var on iki hüseyni, dördü imam Həsəndən
Həm on iki dəməşqi, misli onun Yəməndən
Beytul-Müqəddəsindən üç sərvi var çəməndən
Nəsli Bəni-Əsəddə artıq deyil du təndən
Üç azəridi, yeddi bəğdadiyan gələndə

Ovladi Ürvə, Hiyə üç üçdü, dörd teymi
Bəsrə on üç nəfərdi, üç mərvi səmimi
Qumi iyirmi beşdi, şəhri dehati nimi
Var on iki nəfər də əhli Reyi qədimi

Qorqani beşdi, üç tən ğəzniniyan gələndə

Hindistani beşdi, dörd şəxs əhli Kerman
Var idi şəxsi tusi, üç şəxs əhli Damğan
Beş kuhpayeyilər, dörd xavəri cəvanan
Dördü Nişabur əhli, bir isfəhani insan
Üç tən gələr Həbəşdən, ovcunda can gələndə

Var üç nəfər Hələbdən, dörd misri, yeddi Şiraz
Təbəri iki nəfərdi, kufi on iki canbaz
Kufəycə, səbzivari cümlə dəlir sərbaz
Üç yüz on üç nəfərdi bu aşiqani həmraz
Eylələr vəcdu-şadi çün aşiqan gələndə

Ənsar səf çəkəllər doru-bəri imamə
Əynində cilvə eylər ziba sefid camə
Əldə iki üzüklən, başda yaşıl əmmamə
Çox banəməkdi, oxşar Peyğəmbəri giramə
Təzim edillə qəhrən pir və cavan gələndə

Hər yerdə fitnə qalxar, mərdüm dönər hədəfdən
Dəccal İsfahandan, Süfyani bir tərəfdən
Yabis adında dəştu-səhrayi biələfdən
Süfyani qarət eylər hey Kufədən, Nəcəfdən
İqdam edər fərarə, Sahib Zaman gələndə

Mülhəq olar İmamə yüz min nəfər dilavər
Səkkiz ağac yazıllar, tuli süfufi ləşgər
Xumar və fasiq olmaz o cəmdə sərasər
Bircə xəbis və nakəs qoymaz qala o sərvər
Bidar olar yatanlar, bangi əzan gələndə

Yetmiş min çeşmə qaynar o dovru-bərdə
Yetmiş min qari, Quran oxur o yerdə
Cəfər geyən zireh ki, həzrət geyər nəbərdə
Heybətlə Zülfəqari şahi Nəcəf kəmərdə
Peyğəmbərin qəzibi əldə nişan gələndə

Üç pərçəmi mücəlləl saxlalla başı üstə
Pərçəmlərin dalında zühhad dəstə-dəstə

Hər pərçəmi bir ayət mərdani həqpərəstə
Möhkəm qılınc vuranlar olmazlar zərrə xəstə
Hərzə ələf deyillər, badi vəzan gələndə

Çün Kufə və Nəcəfdə fariğ olar o sultan
Əzmi Mədinə eylər, qəlbi yara, ürək qan
Cəddin ziyarət etdi, əvvəl o mahi taban
Ondan gələr Bəqiyə, əfsürdə, didə giryan
Daşlar salam edəllər, şəh bağrı qan gələndə

Sinni olar otuz dörd, zahirdə çox cavandır
Çün qönçə xəndə bərləb, batində qəlbi qandır
Səslər anam Bətulun dərdi mənə gerandır
Əllərdə öldürübsüz, qəbri nədən nihandır
Bəs hansı daşdan öpdü iraniyan gələndə

Gördükcə dörd imamın viran qalan məzarın
Ərşə edər rəvanə fəryad və ahu-zarın
Bir-bir o daşlar üstə ağlar, qoyar qzarın
Qəbri Bətulə sarı ondan salar güzarın

Xəlqə edər o gizlin qəbri əyan gələndə

Əl sinədə ədəblə, səslər oğul ananı
Dur gəlmişəm qapından əlan yuyam bu qanı
Gizlətmə məndən amma sinəndəki yaranı
Aya nədir üzündə məzluməlik nişanı
Ey kaş o gün gələydim, sili vuran gələndə

Mən tərhi intiqama izn almışam Xudadan
Əmlakını Fədəkdə kim qəsb edib cəfadan
Ya kim xilafət əmrin məmul olan zinadan
Qatil odur hayandan məzlum qan gələndə

Zəhra qəmin ki, həzrət bir-bir hekayət eylər
Gəh üz tutub səmayə Həqqə şikayət eylər
Gəh Zülfəqar əlində ali qəzavət eylər
Möhsin qəmində qəmlər, qəlbində şiddət eylər
Qan ağlar asitani qəm, dastan gələndə

Ərz eylər ey yaralı, billəm ənisi qəmsən

On bir imam anası, aləmdə möhtərəmsən
Qədrin nədən az oldu kimdən cahanda kimsən
Dur qanə döndü qəlbim, səs ver mənə nənəmsən
Taqət sınar həmişə möhnət geran gələndə

Əlan yanan qapında bir dadiqah qurram
Cəddim kimi qəzavət təxtində mən oturram
İqrara topraq altdan qasibləri çağırram
Dərgahının odundan piri xiriftə vurram
Hizom verər şəhadət nisfi yanan gələndə